Arif Rəhimoğlu

# Sosiologiyada partiyadaxili qruplaşmalar

E-kitab variantı – 2016

Bakı – Yöteburq

**“Hədəf bəlli, təşkilat bəlli, lider bəlli!”**
**inancını daşıyan ülküdaşlarıma**
**ithaf edirəm.**

**Redaktor: Əli Şamil**
**Yığıcı: Ramizə Fərəcova**

**Arif Rəhimoğlu. Sosiologiyada partiyadaxili qruplaşmalar. E - kitab. Bakı – Yöteburq. 2016.**

Bu əsər yazarın “Təşkilatdaxili qruplaşmanın sosial-psixoloji özəllikləri” (“525-ci qəzet”, 27 sentyabr 1997-ci il) məqaləsi və “Sosiologiyada partiyadaxili qruplaşmalar və AXCP-də “Yurd” fraksiyası” (Bakı: 2000) kitabı əsasında hazırlanmış E-kitab variantıdır. Təşkilat sosiologiyası üzrə Azərbaycanda ilk tədqiqat olan bu əsərdə partiyadaxili qruplaşma problemi AXCP örnək alınmaqla sosioloji, sosial-psixoloji, politoloji və s. baxımlardan araşdırılmış, bir sıra elmi-nəzəri və paktik müddəalar irəli sürülmüşdür.

Əsərdən bütün siyasi partiyalar, təşkilatlar və mütəxəssislər – sosioloqlar, politoloqlar..., həmçinin siyasi həyatla maraqlanan hər bir şəxs istifadə edə bilər.

© **Arif Rəhimoğlu**

**Rəhimov Arif Rəhim oğlu (Arif Rəhimoğlu).** 1955-ci ildə Naxçıvan şəhərində doğulmuş, 1972-ci ildə Naxçıvan şəhər 1 № li orta məktəbini, 1977-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini, 1984-cü ildə Azərbaycan EA Nəsimi adına Dilçilik İnstitutunun aspiranturasını bitirmişdir.

1985-ci ildə "Mahmud Kaşğarinin "Divanu luğat-it Türk" əsərinin leksikası və Azərbaycan dili" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

1977 – 1980-ci illərdə Babək rayon Vayxır kənd orta məktəbində müəllim, 1980 – 1990-cı illərdə Naxçıvan Dövlət Pedaqoji İnstitutunda müəllim və baş müəllim, 1997 – 2002-ci illərdə "Naxçıvan" Özəl Universitetində dosent işləmişdir.

Azərbaycan Xalq Cəbhəsinin (özəlliklə də, AXC Naxçıvan Muxtar Respublika təşkilatının) yaradılmasında geniş fəaliyyət göstərmiş, AXC-nin Məramnamə və Nizamnaməsinin müəlliflərindən biri olmuş, təşkilatın Naxçıvan MR üzrə öncə sədr müavini, sonra sədri, daha sonra isə AXC Sədrinin İdeoloji işlər üzrə müavini və AXC İdeologiya şöbəsinin müdiri vəzifələrində çalışmışdır. 1998 – 2003-cü illərdə öncə Bütöv Azərbaycan Birliyi (BAB) Sədrinin İdeoloji işlər üzrə müavini, sonra isə BAB Mərkəzi Şurasının sədri işləmişdir.

Hələlik hamısı çap edilməsə də, 20 kitab və 250-dək elmi məqalə müəllifidir. 7 kitabın redaktoru olmuş, Sona Rəhimova ilə birgə bir əsəri (İnqvar Karlson və Anna-Mariya Lindqren. Sosial-demokratiya nədir? İdeyalar və girişimlər haqqında kitab. Yöteburq, 2008) İsveççədən Azərbaycan Türkcəsinə tərcümə etmişdir.

2003-cü ilin sonlarında İsveçə mühacirət etmişdir və hazırda Yöteburq şəhərində yaşayır. Evlidir, altı övladı, dörd nəvəsi vardır.

# İçindəkilər


E-kitab variantına ön söz.......................................................................6

Təşkilatdaxili qruplaşmanın sosial-psixoloji özəllikləri.....................................8

Sosiologiyada partiyadaxili qruplaşmalar və

AXCP-də "Yurd" fraksiyası...................................................................16

Ön söz.............................................................................................16

Siyasi həyat anlayışı...........................................................................17

Siyasi münasibətlərdə iki qütb...............................................................18

AXCP-də durum.................................................................................21

Siyasi qatılma və "Oliqarxiyanın dəmir qanunu"……………………….............21

Qrup nədir?.......................................................................................26

Partiyadaxili qruplaşmalar………………………………………………..........26

1. İdarəedici qrup...........................................................................27

*a) Qapalı idarəedici qrup*...................................................................27

*b) Açıq idarəedici qrup*.....................................................................29

2. İdarəediciliyə can atan qruplar.........................................................31

3. Mərkəzçi ‹‹qrup››……………………………………………………32

Qruplararası siyasi münasibətlər............................................................36

*a) Qruplararası siyasi uzlaşma*............................................................36

b) *Qruplararası siyasi toqquşma*..........................................................39

AXCP-də qruplaşma tarixinə ötəri baxış....................................................46

AXCP-də bölünmə..............................................................................51

AXCP-də "Yurd" fraksiyası………………………………………….............55

"Yurd"içi qruplaşmalar: klassik "Yurd"çular

və yeni "Yurd"çular………………………………………………….............61

Yeni "Yurd"çularda təbliğatın linqvistik üsulu……………………….............64

Yeni "Yurd" islahatçılığın gerçək

adı – opportunist sağ təftişçilik…………………………………….............68

Cəbhəçilər və sağ təftişçilər, yaxud

yeni sıfır variantı təklifimiz……………………………………………..........74

Yararlanılmış qaynaqlar……………………………………………….........79

## *E-kitab variantına ön söz*

İstəkli oxucu!

1995-ci ilin avqust ayında partiyadaxili qruplaşmaların sosial-psixoloji köklərinin nəzəri yönlərinə aid bir məqalə yazmış və çap üçün "Müxalifət" qəzetinə vermişdim. Təəssüflər ki, ay yarım keçsə də, məqaləm çap edilmədi. Bir gün rəhmətlik Ağamalı Sadiq və başqa bir neçə dost-tanışla çayxanada çay içərkən Ağamalı bəy utana-utana məndən üzr istədi, bildirdi ki, verdiyim məqalənin bir qismi bilgisayarda yığıldıqdan sonra birdən-birə əlyazmam yoxa çıxıb, ya da kimsə onu götürüb... Ona görə də, məqaləni indiyədək çap edə bilməyiblər.

Mən məqaləni verəndə rəhmətlik Ağamalı bəydən xahiş etmişdim ki, bilgisayarda yığılandan sonra əlyazmanı özümə qaytarsın, çünki tək nüsxə idi və onu saxlamaq istəyirdim. Ağamalı bəy də məqaləni yığanlara tapşırmışdı ki, əlyazmadan muğayat olsunlar, müəllifin özünə qaytarılacaqdır. Ancaq yarıdan azı yığılmış məqaləmi kimsə götürmüş və onun çapını bilərəkdən əngəlləmişdi...

Rəhmətlik Ağamalı bəy məqaləmin bilgisayarda yığılan qismini mənə verdi və onu yenidən yazmamı istədi. Ancaq əlimdə başqa yazılar işləyirdim və yenidən təşkilat sosiologiyası üzərinə qayıtmağım, partiyadaxili qruplaşmalar haqqında başqa bir yazı yazmağım zaman aldı. Nəhayət, 1997-ci ildə bir daha bu mövzu üzərinə qayıtdım və "itmiş" məqaləmi yenidən bir az dəyişik yöndə işləyərək "Təşkilatdaxili qruplaşmanın sosial-psixoloji özəllikləri" adlı bir məqalə yazdım. Bu məqaləm "525-ci qəzet"də çap olundu (27 sentyabr 1997), ancaq artıq bir məqalə yetərli deyildi və mövzunu davam etdirib "Sosiologiyada partiyadaxili qruplaşmalar və AXCP-də "Yurd" fraksiyası" adlı bir kitab yazdım. Azərbaycanda təşkilat sosiologiyası üzrə ilk əsər olan bu kitabım 2000-ci ildə çap edilib paylandı*.

Bir neçə il sonra keçmiş "Yurd"çu jurnalistlərdən biri mənə maraqlı bir olay anlatdı. Dediyinə görə, "Yurd" rəhbərliyi ona tapşırır ki, mənim bu kitabıma qarşı mətbuatda yazılar yazsın. O da kitabımı tapıb oxuyur, sonra da "Yurd"un

---

* Fürsətdən yararlanıb o illərdə BAB-ın və "Tanıtım" qəzetinin bütün məsrəflərini, mənim şəxsi müalicəm və həmin kitabımın xərclərini ödəmiş dəyərli ziyalımız, iş adamı Mehrac bəy Babayevə bir daha öz minnətdarlığımı bildirirəm – A.R.

toplantılarından birində durub deyir ki, cavab yazılmasını istədiyiniz kitab elmi bir araşdırma əseridir və onun haqqında uzman alimlər yazsa, daha yaxşı olar. Ancaq nə qədər arasalar da, elmə yox, “Yurd” təşkilatına xidmət edərək mənim kitabıma qarşı qərəzli mövqe ortaya qoyacaq elə bir uzman alim tapa bilmirlər...

Dəyərli oxucular!

Artıq kitabın çapından 16 il keçir və dostlardan, tanıdığım və tanımadığın neçə-neçə adamdan eşitmişəm ki, o kitabın təkrar çapına ehtiyac var. Ancaq dərd burasında idi ki, kitabın bilgisayarda yığılmış variantı öz təcrübəsizliyim ucbatından silinmiş və əlimdə yalnız bircə nüsxə kitab qalmışdı. Ona görə də, kitabı yenidən bilgisayarda yığmaq gərəkirdi. 1999-cu ildə kitabın bilgisayarda yığılma əziyyətini boynuna götürmüş Ramizə xanım Fərəcova bu dəfə də yardım əlini uzatdı və 2015-ci ilin sonlarında onu yenidən bilgisayara köçürdü. Fürsətdən yararlanıb istəkli ailə dostumuz Ramizə xanıma dərin minnətdarlığımı bildirirəm.

Mənim üçün çox dəyərli bir dost, həyatda tanıdığım ən təmənnasız bir insan və Azərbaycanın ən üstün aydınlarından biri olan Əli bəy Şamilin məsləhəti ilə istəyən hər bir kəsə yetməsi üçün kitabın çap variantı ilə yanaşı, elektron variantı üzərində də durduq.

Ayrıca vurğulayım ki, kitabın 2000-ci ildəki çapında olan səhifə nömrələri E-kitab variantının səhifə nömrələri ilə əvəz edildi, yazarla bağlı tanıdıcı mətn yenidən işləndi və əsərə “E-kitab variantına ön söz” adlı kiçik bir bölmə artırıldı. Kitabın elektron variantında bunlardan başqa heç bir ayrı dəyişiklik olmadı. Nə bir söz artırdıq, nə bir söz çıxardıq, nə də hər hansı bir sözü başqası ilə dəyişdirdik. Kitab necə vardısa, elə də qorundu.

Eyni zamanda, düşündük ki, 1997-ci ildə yazdığımız “Təşkilatdaxili qruplaşmanın sosial-psixoloji özəllikləri” adlı məqaləmiz də mövzunun araşdırılma tarixi baxımından maraqlı ola biləcəyi üçün bu E-kitab variantında təkrar verilsin.

**Arif Rəhimoğlu**

**20 fevral 2016, Yöteburq (İsveç)**

# Təşkilatdaxili qruplaşmanın sosial-psixoloji özəllikləri

"525-ci qəzet"

27 sentyabr 1997-ci il, səh.3 – 4

AXCP daxilindəki "Yurd" adlı təşkilatın son üç illik fəaliyyəti çeşidli münasibətlər doğurmaqdadır. AXCP-nin gücündən və imkanlarından birtərəfli qaydada tam yararlana bilmək üçün özünü gizlətməyə çalışan "Yurd" təşkilatı səbəbinə artıq bu gün AXCP daxilində iki qütb açıq-aydın seçilir: yurdçular və cəbhəçilər.

İnsanlararası siyasi qruplaşmaların lider, təşkilat, hədəf... (məfkurə) təməllərinə münasibət baxımından cəbhəçilərdə tək lider Elçibəydir; yalnız AXCP-yə mənsub olma şüuru var; müsavatçılıq yeganə doğru məfkurədir.

"Yurd"çularda isə Elçibəydən başqa ayrı bir lider axtarma meyli güclüdür; AXCP ilə yanaşı, "Yurd" təşkilatına mənsub olma şüuru var; məfkurəyə bağlılıq elə bir ciddi önəm daşımır.

Bu qütblərin gerçək mahiyyətini ört-basdır etmək üçün bəzən onları liberallar və millətçilər, yaxud islahatçılar və mühafizəkarlar, yaxud da ki, yenilər və köhnələr və s. adlarla təqdim etməyə çalışırlar. Lakin mövcud qütbləşməni bu tip adlarla təqdimetmə cəhdi gerçəkliyin təhrifinə yönəlmiş terminoloji saxtakarlıqdan başqa bir şey deyil. AXCP-dəki qütblərin gerçək mahiyyətini əks etdirən yeganə doğru adlandırma yurdçular və cəbhəçilər fərqləndirməsidir.

1995-ci ilin avqust ayında heç bir ad çəkmədən, ümumiyyətlə, partiyadaxili qruplaşdırmaların sosial-psixoloji köklərinə dair bir məqalə yazmış və müxalifət qəzetlərindən birinə vermişdim. Təəssüflər ki, kiçik bir qismi kompüterdə yığıldıqdan sonra birdən-birə məqaləm "yoxa çıxdı", "itdi"…

Günümüzdəki ehtiyacı nəzərə alaraq həmin məqaləni yenidən işləyib oxuculara təqdim edirəm. Ümidvaram ki, bu məqalə AXCP-də mövcud olan yurdçular-cəbhəçilər qütblənməsinin elmi-nəzəri əsaslarını müəyyən qədər aydınlaşdıracaqdır.

**Müəllif**

Sosial-psixologiya, sosiologiya, politologiya və s. elmlərə görə, işbirliyi və rəqabət insanlararası qruplaşmaların başlıca səbəbidir. İşbirliyi insanları ortaq hədəflərə çatmaq üçün bir araya gətirib birləşdirir, uzlaşdırır. Rəqabət isə insanları ayırıb bölür, fərqlənmə, ziddiyyət, toqquşma yaradır. Lakin eyni zamanda, işbirliyi və rəqabət bir-birinə nəzarət edib sistemin bütövlüyünü tamamlayır, sistemin çalışmasında enerji verən daxili generator rolu oynayır.

İstənilən siyasi təşkilat – partiya işbirliyi əsasında toplaşmış fərdlərdən ibarət bir sistem olub, özü kimi sistem təşkil edən başqa partiyalarla iqtidara gəlmək uğrunda bu və ya digər dərəcədə rəqabət aparır. Eyni zamanda, bir sistem olduğu üçün partiya daxilində işbirliyi ilə yanaşı, həm də rəqabət var. Bu isə təşkilatdaxili qruplaşmaların yaranmasına gətirib çıxarır.

Təşkilatdaxili qruplaşmalar arasındakı rəqabətdə mütləq tarazlıq gözlənilməli və bununla da ümumtəşkilat içərisində işbirliyi təmin edilməlidir. Əgər tarazlıq gözlənilməzsə və qruplaşmalardan hər hansı biri ifrata vararaq sistem – partiya üzərində öz hegemonluğunu qurub təkəl (monopoliya) yaradarsa, o zaman tez-gec sistemin nizamı pozulacaq və nəticədə, partiya zəifləyib yıpranacaqdır (taqətdən düşüb heysizləşəcəkdir).

Sosiologiyanın bir sahəsi olan təşkilat sosiologiyasına aid araşdırmalardan, özəlliklə də, Robert Mixels, Ayşə Öncü və s. müəlliflərin tədqiqatlarından yararlanaraq təşkilatdaxili qruplaşmaların yaranma və fəaliyyət mexanizminə diqqət yetirək.

R.Mixelsə görə, çoxsaylı üzvləri olan böyük partiyalarda əksəriyyətin siyasi qərarvermə prosesinə birbaşa qatılması, yəni öz-özünü idarə etməsi texniki baxımdan imkansızdır. Bu səbəbdən, partiyada labüdən iyerarxik struktur yaranır və idarəedicilik üçün çox vacib olan informasiya axını, əsasən, iyerarxik strukturun üst qatına yönəlir. Üst qatdakılar aldıqları informasiyanın müəyyən qismini aşağılara ötürür, qalan qismini isə yalnız özləri bilirlər və ortaya çıxarılmayan bu "gizli" informasiya idarəedicilikdə çox mühüm rol oynayır. Prosesin müəyyən müddət davam etməsi nəticəsində üst qatdakılar yavaş-yavaş bürokratikləşir və iyerarxik strukturda getdikcə üst qatla aşağı qatlar arasında bir boşluq yaranır. Boşluğun bir tərəfində partiyanın siyasi qərarvermə proseslərinə birbaşa qatılmaqdan məhrum olmuş idarəedilən çoxluq, digər tərəfində isə hər şeyi öz hökmü altına alan və bunu yeganə doğru hal sayan bürokratik azlıq – partiya oliqarxiyası durur.

Adətən, partiya oliqarxiyası öz hakimiyyətini daim əldə saxlamağa çalışır. Lakin idarəedilən çoxluğun hamısını tam tabe olmağa məcbur etmək heç də asan məsələ deyil. Çünki zaman keçdikcə idarəedilən çoxluq içərisindən çıxıb kadra çevrilən üzvlər partiya oliqarxiyasının yanlışlıqlarını qəbul etməyərək siyasi qərarvermə prosesinə təsir göstərməyə can atarlar. O halda, partiya

oliqarxiyası yuxarıdan aşağı özünə sədaqətli şəxslərdən ibarət bir daxili qruplaşma yaradar və bu qruplaşma öz içərisində işbirliyinə malik olub digərləri ilə rəqabətə başlayar. R.Mixels bu prosesi partiyaların əksəriyyətində müşahidə etmiş və onu **"Oliqarxiyanın dəmir qanunu"** adlandırmışdır.

Ayşə Öncüyə görə, iyerarxik strukturda idarəedici azlığın üst qatdan aşağı qatlara doğru yaratdığı qruplaşma **"şaquli qrup"**, buna daxil olmayanlar isə **"üfüqi qrup"**dur.

Sosial psixologiya, təşkilat sosiologiyası və s. üzrə aparılmış tədqiqatlar təşkilatdaxili qruplaşmaların xarakterik xüsusiyyətlərini ortaya çıxarmışdır. Həmin xarakterik xüsusiyyətlərə və qrup müşahidələrimizə əsaslanaraq, partiya daxilində üç növ qruplaşmanın mövcudluğunu irəli sürür və onları aşağıdakı terminlərlə qavramlaşdırırıq (anlayışa çeviririk): idarəedici qrup, idarəediciliyə can atan qruplar, mərkəzi "qrup".

Bunları ayrı-ayrılıqda gözdən keçirək.

**İdarəedici qrup**. A.Öncünün "şaquli qrup" adlandırdığı bu qrup partiyadaxili iqtidarı təşkil edir. Öz xarakterinə görə, iki fərqli tipə ayrıla bilər:

**1. Qapali idarəedici qrup**. Bürokratik yadlaşmaya uğrayaraq özü ilə partiyadaşları arasında məsafə açıb boşluq yaradan partiya oliqarxiyası getdikcə avtoritarlığa yuvarlanır və partiyadaxili iqtidarı öz təkəlinə (monopoliyasına) çevirməyə çalışaraq qapalı idarəetmə sistemi formalaşdırır. Nəticədə, idarəedici qrup xaraktercə qapalı qrup olur və buraya kadrların cəlb edilməsi daha çox subyektiv amillər əsasında aparılır. Belə ki, burada A.Öncünün göstərdiyi yazılmamış bir qanun var: aşağı qatdakılar haqlı-haqsız bütün məsələlərdə üst qatdakıları dəstəkləyər; üst qatdakılar isə təşkilatın bu qrupa daxil olmayan digər qabiliyyətli kadrlarını yox, məhz özlərinə sədaqətli qrup üzvlərini bacardı-bacarmadı, qabağa çəkər, yaxud onlara gələcəklə bağlı şirin vədlər verər. Partiyanın qabiliyyətli kadrları dura-dura qabağa çəkilmiş və süni olaraq sosial status qazandırılmış nisbətən səviyyəsiz qrup üzvləri üst qatdakı öz rəhbərləri qarşısında "borclu" olar və daha sədaqətlə "xidmət" göstərməyə çalışar. Nisbətən səviyyəli qrup üzvlərinə isə aşılanar ki, sənin irəli çəkilməyin öz şəxsi qabiliyyətinə görə yox, rəhbərliyin sənə münasibətinə görədir. Çalış bu münasibəti korlama və həmişə rəhbərliyə sədaqətli ol.

Partiya daxilində qapalı idarəedici qrup öz mənafeyinə toxunanlara qarşı dərhal birlikdə cavab verir və bütün vasitələrdən – inandırma, aldatma, neytrallaşdırma, ələalma, gözümçıxdıya salma, hədələmə, böhtan, şantaj, partiyadan uzaqlaşdırma və s. istifadə etməklə, çalışır ki, öz idarəedicilik mövqeyini qorusun. Yeri gəlmişkən, mənafeyə toxunma təkcə idarəedici qrupu tənqid və ya ifşa etməklə yox, həm də bu qrupdan olmayanların hər hansı məsələdə təşəbbüskarlıq etməsi və iş görərək sosial status qazanması ilə də baş verir.

Partiyanın iyerarxik strukturunun üst qatından yönəldildiyinə və aparıcı liderə (yaxud, liderlərə) malik olduğuna görə, qapalı idarəedici qrup nisbətən sabitdir, ən başlıcası isə üzvləri arasında partiya mənsubluğu şüurundan daha çox, qrup mənsubluğu şüuru var və bu qrup şüuru həmin üzvlərdə həmrəylik, vahid bir mövqe yaradır. Daha yaxşı birləşmiş, təşkilatlanmış və partiyadaxili iqtidara yiyələnmiş bu qrup ilk növbədə öz qrup mənafeyini, bundan sonra isə ümumpartiya mənafeyini əsas götürür. Ona görə də, qapalı idarəediciliyə qarşı olan şəxsləri müxtəlif bəhanələrlə partiyadan uzaqlaşmağa, ən yaxşı halda passivləşməyə məcbur edərkən partiya mənafeyinə dəyən zərbə onları çox da rahatsız etmir. Əksinə, qrup mənafeləri təmin olunduğu üçün rahatlanırlar.

Qapalı idarəedici qrupun üzvləri, adətən, sayca az olar və partiyanın məfkurəsinə nisbətən ikinci dərəcəli bir məsələ kimi baxarlar. Praqmatikliyi (yəni gerçəkliyə uyğun hərəkət etməyi və nəyin bahasına olursa-olsun, günlük mənfəət qazanmağı) əsas götürdükləri üçün partiyanın məfkurəsini günün modasına uyğun dəyişdirməyə meyl göstərərlər.

Qapalı idarəetmə sistemi partiyadaxili rəqabətdə sağlam yarışma əvəzinə, qeyri-sağlam ziddiyyət doğurar və qapalı idarəedici qrupun təsirinə qarşı labüd əks-təsir kimi idarəediciliyə can atan yeni qruplar meydana çıxar. Bunlar arasındakı ziddiyyətlərin getdikcə dərinləşməsi son nəticədə partiyanı fəlakətlərə düçar edə bilər. Şübhəsiz ki, yaranacaq fəlakətlərdə birbaşa əsas günahkar məhz qapalı idarəedici qrupdur. Çünki dərinləşən ziddiyyətlərin formalaşmasında səbəb (tezis) rolu oynayan ilk təkan məhz bu qrupa məxsusdur. İdarəediciliyə can atan qruplar isə səbəb (tezis) yox, onun doğurduğu cavabdır (antitezisdir) və səbəb olmasaydı, cavab da olmazdı. Ona

görə də, normal partiya rəhbərliyi qapalı yox, açıq idarəetmə sisteminə üstünlük verər.

**2. Açiq idarəedici qrup.** Sovet həyat tərzinin doğurduğu “bürokratiya” stereotipi ilə yanaşı, dünyada normal sayılan bürokratiya anlayışı da var ki, bunları qarışdırmaq olmaz. “Bürokratiya” stereotipi daha çox bürokratik yadlaşmanın nəticəsidir. Normal bürokratiya isə partiyanın idarə edilməsində çox vacib olan iyerarxik strukturun mühüm amillərindən biridir. Partiyanın iyerarxik strukturunda üst qat bürokratik yadlaşmaya uğramırsa və partiyadaxili iqtidarı daim əldə saxlamaq üçün qrup mənafeyini partiya mənafeyindən üstün tutmursa, o zaman nə qapalı idarəetmə sistemi yaranır, nə də bu sistemi gerçəkləşdirəcək qapalı idarəedici qrupa ehtiyac olur. Daha doğrusu, üst qatdakı aparıcıların aşağı qatlardakı tərəfdarları, əvvəla, ayrıca liderə malik tam sabit qruplaşmalar yaratmırlar; ikincisi, onlarda partiya mənsubluğu şüuru qrup mənsubluğu şüurundan çox-çox üstün olur; üçüncüsü, yeni şərtlərə nə qədər uyğunlaşma baş verir-versin, partiya məfkurəsinin təməlləri eynilə qorunur. Nəticədə, mövcud nisbi qruplaşmalar arasındakı rəqabət qeyri-sağlam ziddiyyətə yox, sağlam yarışma əsasına söykənir. Partiyanın idarəedici qrupu qapalı yox, açıq xarakterdə olduğu üçün siyasi qərarvermə prosesi məhdud bir qrupun təkəlində cəmləşmir, əksinə, qabiliyyəti olan hər bir şəxsin bu qərarvermə prosesinə qatılması üçün açıq şərait yaranır. Nəticədə, bütün partiya üzvlərinin aktivləşməsinə imkan verən açıq idarəetmə sistemi meydana çıxır və idarəedici qrup da açıq qrup olur.

**İdarəediciliyə can atan qruplar.** Sayca birdən çox olan bu qruplar çeşidli təməllər əsasında formalaşar. Qapalı idarəedici qrupla müqayisədə idarəediciliyə can atan qruplar çox da sabit olmaz və bunlarda qrup mənsubluğu şüuru partiya mənsubluğu şüurunu üstələməz. Onlarda ayrıca liderə malik olma meyli nisbətən çox azdır və partiya məfkurəsinə bağlılıq ciddi önəm daşıyır. Lakin idarəediciliyə can atan qrupların xarakteri, mahiyyəti, tutduqları yol və s. partiyadakı idarəetmə sisteminin açıq, yoxsa qapalı olmasından asılı olaraq dəyişə bilər. Özəlliklə, qapalı idarəetmə sisteminə malik partiyalarda qapalı idarəedici qrup bütün partiyanı öz təkəlinə keçirmə fəaliyyətini gücləndirdikcə partiya yavaş-yavaş iflic vəziyyətinə düşər və bu

zaman partiyanın xilası idarəediciliyə can atan qrupların fəaliyyətindən asılı olar.

Qapalı idarəedici qrupun əsas gücü iyerarxik strukturun üst qatında daha çox təmsil olunmasında və öz gerçək niyyətlərini partiyanın idarəedilən çoxluğundan gizlədə bilməsindədir. Ona görə də, idarəediciliyə can atan qruplar çalışar ki, qapalı idarəedici qrupun gerçək niyyətləri, partiya mənafeyinə vurduğu zərbələr bütün partiya üzvlərinə bəlli olsun; özləri aşağı qatlardakı çoxluqla bütünləşib gücə çevrilsinlər; partiyada açıq idarəetmə sistemi yaradılsın və daxili tarazlığın pozulması ortadan qaldırılsın və s.

Qapalı idarəedici qrupla idarəediciliyə can atan qruplar arasındakı rəqabətdə üçüncü – mərkəzçi “qrup” hansını dəstəkləsə, o da üstünlük qazanacaqdır.

**Mərkəzi “qrup”.** Nə təşkilatı öz təkəlinə çevirməyə, nə də təşkilatda idarəediciliyi qazanmağa can atmayan mərkəzçi “qrup”da heç bir məhdud qrup mənsubluğu şüuru yoxdur və buna görə də, gerçək bir qrup sayıla bilməz (terminin “qrup” yazılışı da buradan irəli gəlir). Adətən, sıravi partiya üzvlərinin çox böyük əksəriyyəti mərkəzçi “qrup”da olar və onlar üçün partiyanın ümumi bir lideri, yalnız bu partiyaya mənsubolma şüuru və bu pratiyanın məfkurəsi ciddi önəm daşıyar. Ümumpartiya mənsubluğu şüurundan çıxış etdiklərinə görə, mərkəzçi “qrup”da bütün təşkilat üzvlərinin həmrəyliyinə, iş birliyinə üstünlük verirlər.

Ayrıca daxili təşkilatlanmaya malik olmadığı üçün mərkəzçi “qrup” üzvləri pərakəndədir və heç də bütün məsələlərdə eyni mövqeli deyil. Əksinə, onların bir qismi idarəedici qrupu, digər qismi idarəediciliyə can atan qrupları dəstəkləyər, üçüncü bir qismi isə bitərəf qalar. Partiyadaxili rəqabətlərdən çox da xəbərdar olmayan və gerçəklikləri bilməyən mərkəzçi “qrup” bütövlükdə mövcud ziddiyyətlərə heç də tam qarışmaz və nisbətən laqeyd bir mövqe tutar.

Partiya ilə geniş xalq kütlələri arasındakı münasibətlərdə mərkəzçi “qrup”un təşəbbüskarlığı və aktivliyi böyük rol oynayır. İctimai rəyin partiya xeyrinə formalaşdırılması və geniş xalq kütlələri tərəfindən partiyanın dəstəklənməsi üçün çox gərəkli olan partiya təbliğatı, özəlliklə partiya təşviqatı birbaşa mərkəzçi “qrup”un təşəbbüskarlığı və aktivliyi ilə həyata keçirilər. Lakin qapalı idarəedici qrupun bütün partiyanı öz təkəlinə keçirmə fəaliyyəti

genişləndikcə mərkəzçi "qrup"un təşəbbüskarlığı, aktivliyi boğular, yalnız yuxarılardan əmr gözləməyə məcbur edilmiş mərkəzçi "qrup" üzvləri hissə-hissə passivləşər, küskünləşib kənara çəkilər və partiya zəifləyər. Əgər partiyanın iqtidara gəlmə şansı böyukdürsə, bu zaman maddi qazanc hərisi vəzifəpərəstlər, rüşvətxorlar və məsləksiz hər cür mənfi tiplər fəallaşaraq qapalı idarəedici qrup ətrafında toplanıb fürsətdən yararlanmağa çalışarlar. Nəticədə, partiya mənafeyi daha da çox zərbələrə məruz qalar.

Partiyanı bu arzuedilməz sonluqdan oyadıcı başlıca amil idarəediciliyə can atan qruplardır. Bu qruplar qapalı idarəedici qrupun partiya mənafeyinə vurduğu zərbələri geniş açıqlamaqla mərkəzçi "qrup"da həyəcan yaradır və onunla bütünləşə bilirsə, o zaman mərkəzçi "qrup" aktivləşərək qapalı idarəetmə sistemini dağıdır və bununla da partiyanı acı sonluqdan xilas edir.

Məsələnin daha aydın təsəvvür olunması üçün bir müqayisəyə diqqət yetirək: partiya və dövlət təşkilatın ayrı-ayrı formalarıdır, lakin onlar mahiyyətcə bir-birlərinə çox yaxındırlar. Dövlətdəki iqtidar, müxalifət və əhali anlayışları partiyadakı idarəedici qrup (iqtidar), iradəediciliyə can atan qruplar (müxalifət) və mərkəzçi "qrup" (əhali) anlayışları ilə mahiyyətcə uyğundur. Nə dövlətdəki iqtidarın, nə də partiyadakı idarəedici qrupun heç bir haqqı yoxdur ki, bütün təşkilatı (dövləti, yaxud partiyanı) öz təkəlinə keçirsin, eybəcər diktaturadan başqa bir şey olmayan qapalı idarəetmə sistemi yaratsın. Doğrudur, bu eybəcərliyi pərdələmək üçün guya "seçki" keçirilər, guya "səsvermə" ilə qərar qəbul olunar. Əslində isə yalnız qapalı idarəedici qrupa aid şəxslərin "seçilməsi" təşkil edilər və "səsvermə" də nəticəsi öncədən bəlli bir oyundur. Bağlı qapılar arxasında hazırlanan bu gizli oyuna uymaq, ona tabe olmaq mahiyyətcə qapalı idarəetmə sisteminin yaranmasına kömək etməkdən başqa bir şey deyil.

Həm dövlətdəki müxalifətin, həm də partiyadakı idarəediciliyə can atan qrupların tam haqqı var ki, üzdəniraq iqtidara və üzdəniraq qapalı idarəedici qrupa qarşı mübarizə aparıb gerçək demokratiya – açıq idarəetmə sistemi yaratsınlar. Bunsuz nə dövlət ölkədəki bütün əhalinin, nə də partiya özünün bütün üzvlərinin mənafeyinə xidmət edə bilməz və məhdud bir qrupun ağalığı baş alıb gedər.

**P.S.** 1994-cü ilədək AXC-də açıq idarəetmə sistemi mövcud idi. Son üç ildə isə AXCP-də qapalı idarəetmə sistemi formalaşmışdır. Bunun başlıca

günahkarı qapalı idarəedici qrupa çevrilmiş "Yurd" təşkilatı və AXCP-dəki yurdçular qruplaşmasıdır. Yurdçulara qarşı duran cəbhəçilər qruplaşması isə idarəediciliyə can atan qruplarla mərkəzçi "qrup"un bütünləşməsindən, qaynayıb qovuşmasından doğan cavab reaksiyasıdır. İnanırıq ki, bütün gerçək cəbhəçilər AXCP-dəki bu qütblənmənin həqiqi mahiyyətini dərindən dərk edəcək və öz doğma təşkilatlarını – Xalq Cəbhəsini hər cür əyintilərdən qoruyacaqlar. Çünki cəbhəçilər üçün yeganə doğru bir deviz var: hədəf bəlli, təşkilat bəlli, lider bəlli!

***Redaksiyadan:*** *Son günlər AXCP daxilində baş verən proseslər bir sıra mətbuat orqanlarının diqqət mərkəzinə çəkilmişdir. Sözügedən proseslə bağlı "qocaman" cəbhəçinin fikirlərini dərc edir və əks tərəfin də mövqeyinə yer ayırmağa hazır olduğumuzu bildiririk.*

## Sosiologiyada partiyadaxili qruplaşmalar və AXCP-də "Yurd" fraksiyası

### *Ön söz*

Rəyasət Heyətinin yasaqlamasına baxmayaraq, AXCP daxilindəki "Yurd" qruplaşması ilə bağlı dartışmalar tez-tez mətbuat səhifələrinə çıxarılmaqda və çeşidli informasiyalar verilməkdədir. 19994-1999-cu illərdə başlıca dartışma "Yurd" qruplaşması ilə cəbhəçilər arasında gedirdisə, hazırda "Yurd" qruplaşmasının özü daxilində ikitirəlitk yaranmış və mübahisələr "Yurd"içi müstəviyə də keçmişdir. Bəzən dedi-qodu səviyyəsinə enən bu dartışma və mübahisələrdə bizi filankəsin nə deməsindən, yaxud behmankəsin nə etməsindən daha çox məsələnin elmi-nəzəri kökləri maraqlandırır. Unutmayaq ki, partiyadaxili qruplaşma təkcə AXCP-də yox, istənilən siyasi partiyada özünü göstərən bir gerçəklikdir. Hansı əsasda yaranmasına, xarakterinə, sosial bazasına, malik olduğu standartlara – norma və prinsiplərə, mübarizə üsullarına və s. görə nə qədər fərqlənsələr də, bütün partiyadaxili qruplaşmaların mahiyyətində bəlli bir qanunauyğunluq var. Sosiologiyanın çeşidli qolları, özəlliklə siyasət sosiologiyası, təşkilat sosiologiyası və s. üzrə aparılan araşdırmalarda bu qanunauyğunluğa dair geniş bilgi toplanmış və bir çox məsələlər öyrənilib açıqlanmışdır. Həmin araşdırmalardan da yararlanmaqla partiyadaxili qruplaşmaların törəmə və fəaliyyət mexanizminə müəyyən aydınlıq gətirmək niyyətindəyik. Obyekt olaraq AXCP-ni götürsək də, araşdırmamızdan Azərbaycandakı bütün siyasi partiyaların faydalanacağı umudundayıq.

## Siyasi həyat anlayışı

Toplum həyatının çoxyönlü, kompleks anlayışlarından biri olan ***siyasi həyat*** bir sıra faktları, hadisələri, sürəcləri (prosesləri) və s. özündə birləşdirir. Gündəlik danışığımızda siyasi həyatın o qədər də fərqləndirilməyən bu çoxyönlülüyünə ən azı aşağıdakı önəmli anlayışlar daxildir:

***1. siyasi ehtiyac və maraqlar;***

***2. siyasi qatılma;***

***3. siyasi münasibətlər;***

***4. siyasət;***

***5. siyasi hakimiyyət;***

***6. siyasi rejim;***

***7. siyasi sistem.***

Siyasi həyat üçün bu anlayışların hamısı böyük önəm daşıyıır və ona görə də, siyasi həyata atılan hər bir çəxs həmin anlayışlarla bağlı ən zəruri bilgilərə malik olmalıdır. Çünki ***"... kim siyasətlə məşğul olursa o, hakimiyyətə can atır..."*** (Maks Veber) və hakimiyyətə can atan bir insanın siyasi həyatla bağlı bilgisizliyi topluma yaxşı heç nə vəd etmir...

Yeri gəldikcə bu anlayışlar haqqında məlumat verəciyik. Hələliksə qeyd edək ki, siyasi həyatın ən təməl və mərkəzi anlayışı siyasi hakimiyyətdir – iqtidardır. ***Siyasi hakimiyyət dedikdə, qanun, nüfuz, iradə, zor... kimi müxtəlif vasitələrlə insanların davranış və fəaliyyətlərinə həlledici təsir göstərmə hüququ, yaxud imkanı nəzərdə tutulur.*** Siyasi hakimiyyətə yiyələnmiş insanlar ***iqtidar*** adlanır.

İqtidar olma istəyi yaradılışdan insana xas instinktiv bir istəkdir. Lakin bu istək hərədə bir cür özünü göstərir, Bertrand Rasselin dediyi kimi, liderlərdə açıq olaraq, lider ətrafında toplananlarda isə qapalı olaraq ortaya çıxır. Buradan da, siyasi hakimiyyət uğrunda mübarizə aparan insanların çeşidli siyasi təşkilatlanmaları yaranır.

Araşdırıcılara görə, ***siyasi hakimiyyəti gerçəkləşdirən çeşidli siyasi institutların – təşkilatların, sosial-siyasi birliklərin, onların forma, norma və prinsipləri arasındakı qarşılıqlı təsir və münasibətlərin şaxələnmiş bütünü siyasi sistemdir.***

Fikir müxtəlifliyi olsa da, siyasi sistemə, əsasən, aşağıdakılar daxil edilir:

***1. siyasi qurumlar;***

***2. siyasi şüur;***

***3. siyasi mədəniyyət.***

**Siyasi qurumlar** (dövlət, siyasi partiyalar, ictimai-siyasi hərəkatlar…) siyasi sistemin institutlaşdırılmış hissəsi olub birbaşa siyasi hakimiyyət problemi ilə uğraşır. Siyasi qurumlara qatılmış insanların ***siyasi mədəniyyətindən***, özəlliklə də, ***siyasi şüurundan*** irəli gələrək hakimiyyət uğrundakı mübarizənin ***siyasi prinsipləri və hüquqi normaları*** müəyyənləşir. Siyasi prinsiplər və hüquqi normalar isə həm siyasi qurumlar arasındakı, həm də ayrıca götürülmüş hər bir qurumun özü daxilindəki ***siyasi münasibətləri*** ortaya qoyur. Siyasi münasibətlərsiz nəinki siyasi sistemlər, bütövlükdə, siyasi həyat belə mövcud ola bilməz.

## Siyasi münasibətlərdə iki qütb.

Bioloji və psixo-sosial varlıq olan insan yalnız toplum içərisində, digər insanlarla birgə yaşaya bilər. Birgəyaşayış zərurəti labüdən insanların bir-biri ilə müəyyən münasibətlərdə bulunmasını gərəkdirir. Toplum həyatının siyasi, iqtisadi, sosial-psixoloji, mədəni və s. sahələrini içərən (ehtiva edən) bu münasibətlər nə qədər çeşidli və çoxyönlü olsalar da, adətən, sosioloqlara görə, iki başlıca qütbə bölünür:

***1. toqquşma (Latın. conflictus) qütbü;***

***2. uzlaşma (Latın. consensus) qütbü;***

Qeyd edək ki, geopolitika, politologiya, sosiologiya, sosial psixologiya, siyasət sosiologiyası və s. kimi elm sahələrinin araşdırma obyekti olan insanlararası münasibətlərin toqquşma və uzlaşma qütbləri ilə bağlı çağımızda elmin ayrıca **konfliktologiya** və **konsensologiya** sahələri də yaranmışdır.

Mövzumuzdan irəli gələrək bizi insanlararası münasibətlərin bütün sahələri yox, əsasən, siyasi sahə və bu sahəyə daxil olan **siyasi münasibətlər** maraqlandırır. Adətən siyasi hakimiyyət ugrundakı mübarizənin özəlliklərini əks etdirən siyasi münasibətlər siyasi uzlaşma və siyasi toqquşma qütblərinə bölünər.

***Siyasi uzlaşma*** uygun siyasi maraqlara malik insanların məsələlərə ***baxiş birliyi*** əsasında əmələ gəlir, ortaq məqsədlərə çatmaq, ortaq mənafeyi təmin etmək üçün onları bir araya gətirib birləşdirir, aralarında yaxınlıq, həmrəylik, birgəlik duyğusu və işbirliyi ruhu yaradır. Möhkəm, yaxud kövrək xarakter daşımasından asılı olaraq siyasi uzlaşmanın

***1. birləşmə*** *(tək partiya daxilində qovuşma);*

***2. bütövləşmə*** *(blok və ya ittifaq yaratma);*

***3. əməkdaşlıq*** *( partiyalar arasında ikiyönlü və ya çoxyönlü işbirliyi)*

formalarını fərqləndirə bilərik.

***Siyasi toqquşma*** fərqli siyasi maraqlara malik insanların məsələlərə ***baxış fərqliliyi*** əsasında əmələ gəlir, insanları mənafe və məqsədlərinə görə ayırıb bölür, aralarında yarış, rəqabət, münaqişə, ziddiyyət, qarşıdurma, konflikt və s. yaradır. Öz xarakterinə görə, siyasi toqquşmanın

***1. yumşaq;***

***2. sərt***

formaları bir-birindən fərqləndirilir. Yumşaq formaya ***yarış və sağlam rəqabət***, sərt formaya isə ***qeyri-sağlam rəqabət və əlbəyaxa dalaşmadan tutmuş müharibəyədək hər cür savaş daxildir***.

Siyasi toqquşma və siyasi uzlaşma bir-birini tamamlayaraq siyasi sistemin bütövlüyünü təmin edir və onun çalışmasında, gəlişməsində enerji verən daxili generator rolu oynayır. İstənilən siyasi sistemdə dəyişik xarakterli siyasi toqquşma və siyasi uzlaşma qütbləri həmişə yanaşı mövcuddur. Prof. A.T.Kışlalının (Türkiyə) fikrincə, ***"Açıq, ya da qapalı, yumşaq, ya da sərt toqquşmanın olmadığı yerdə uzlaşmadan söz edilə bilməz. Hər uzlaşma mütləq bir toqquşmanın məhsulu olduğu kimi, hər toqquşma da çox qatı və acımasız bir şəkildə olsa belə, labüdən gələcəkdəki uzlaşmanın toxumlarını daşıyır...***

***Hər siyasi sistem, eyni zamanda, bir uzlaşma modeli deməkdir. Uzlaşma yoxsa, sistem də yoxdur..."***

Ayrıntılarına toxunmadan qısaca qeyd edək ki, siyasi sistemin institutlaşdırılmış hissəsi olan siyasi qurumlardan hər biri özlüyündə ayrıca bir sistemdir və məhz siyasi uzlaşma nəticəsində yaranmışdır. Lakin siyasi toqquşmanın getdikcə sərtləşməsi həmin uzlaşmanı ortadan qaldıra və

sistemin mövcud şəklinə ciddi zərbə vura bilər. Nə zamansa növbəti uzlaşma yaransa da, artıq o, sistemin əvvəlki şəkli olmayacaqdır.

Siyasi uzlaşmanın ***birləşmə forması*** əsasında bir araya gəlmiş fərdlərdən ibarət ayrıca sistem olan partiya özü kimi sistem təşkil edən digər partiyalarla siyasi hakimiyyət uğrunda mübarizə aparır. Bu mübarizədə partiyalararası siyasi mübarizələrin istər toqquşma, istərsə də uzlaşma yönündə inkişafı asanlıqla başa düşüləndir. Çünki istənilən partiyanın siyasi hakimiyyət iddiası var və hər partiya öz mənafeyini güdərək siyasi süreclərin gedişində bəzi partiyalarla toqquşmalı, bəzi partiyalarla uzlaşmalı olur. Bu uzlaşmada bəzən ***birləşmə*** formasına rast gəlinsə də, əsasən, ***əməkdaşlıq*** və ***bütövləşmə*** formalarından istifadə olunur ki, onların da möhkəmlilik dərəcəsi birləşmə forması ilə müqayisədə daha kövrəkdir. Ona görə də, dünən siyasi uzlaşmaya malik partiyalar arasinda bu gün siyasi toqquşmanın getdikcə sərtləşə bilməsi, yaxud bunun əksi normallıqdan çox da uzaq sayılmır.

Ayrıca götürülmüş bir partiya daxilində isə siyasi toqquşmanın getdikcə sərtləşməsi və bu sərtləşmənin ümumpartiya mənafeyinə ciddi zərbə vuraraq partiya sisteminin varlıgını təhlükə altına salması çox zaman asanlıqla anlaşılmır. ***Axı partiya siyasi uzlaşmanın ən möhkəm forması olan birləşmə əsasında könüllü bir araya gəlmiş fərdlərdən ibarət bir sistemdir.*** Bu sistem daxilindəki fərdlərarası və qruplararası yumşaq toqquşma – dinc yarış, yaxud sağlam rəqabət siyasi uzlaşmanı nəinki pozmur, əksinə, onun dinamik inkisafını təmin edir. Lakin partiyada qeyri-sağlam rəqabətin – münaqişənin yaranması sistemdaxili siyasi toqquşmanı getdikcə gücləndirib, sərtləşləşdirir, qarşıdurmaya çevirir və ***bu qarsıdurma partiyanın varlıq səbəbi olan siyasi uzlaşmanı addım-addım yıpradaraq məhv edir.*** Partiyadaxili siyasi toqquşmanın həddən artıq sərtləşməsi və Azərbaycan siyasi mədəniyyətinin klassik bir ifadəsi ilə desək, bütün körpülərin yandırılması səbəbinə ***partiya sisteminin mövcud şəkli*** təhlükəyə düşür. Çünki möhkəm siyasi uzlaşma yoxsa, könüllü birləşmiş fərdlərdən ibarət partiya sistemi də yoxdur.

## AXCP – də durum

Nə qədər ört-basdır edilməsinə çalışılsa da, bu gün AXCP-də "Yurd" qruplaşmasının səbəb olduğu partiyadaxili siyasi toqquşma getdikçə sərtləşməkdə və öz qeyri-sağlam rəqabət xarakterinə görə, AXCP üçün təhlükə yaratmaqdadır. Partiya daxilində siyasi toqquşmanın addım-addım siyasi uzlaşmanı üstələməsi və partiyaya ciddi ziyan vuran qeyri-sağlam rəqabətin qabarması haradan qaynaqlanır?

Bəzən bu suala verilən "Qaynaq mövcud klan iqtidarıdır!" cavabı ilə qətiyyən razılaşmırıq. ***Çünki problemin haradan qaynaqlanması və artıq ortaya çıxmış problemdən klan iqtidarının öz xeyri üçün faydalanmağa çalışması ayrı-ayrı məsələlərdir. Partiyadaxili siyasi toqquşmanın getdikcə sərtləşməsini kənardan qızışdırıb körükləmək mümkün haldır, lakın bu şərtlə ki, partiyada siyasi toqquşmanın sərtləşə bilməsi üçün əlverişli zəmin olsun.*** Əlverişli zəminin olub-olmamasında partiya sisteminin xarakteri mühüm rol oynayır. Bu hesabla, partiyadaxili siyasi toqquşmanın sərtləşməsi və dinamikləşdirici sağlam rəqabət, dinc yarış əvəzinə, qarşıdurma yaradıcı qeyri-sağlam rəqabətin qabarıb önə çıxmasi birbaşa partiya sisteminin özündən qaynaqlanmaqdadır. Fikrimizi açıqlayaq.

## Siyasi qatılma və "Oliqarxiyanın dəmir qanunu"

Adətən, partiya strukturunun başlıca elementləri içərisində dördü daha çox fərqləndirilir:

***1. partiyanın bürokratik aparatı (idarə heyəti, icraiyyə komitəsi, rəyasət heyəti...);***

***2. partiya kadrları (funksionerlər, fəallar...);***

***3. partiyanın sıravi üzvləri;***

***4. partiya tərəfdarları.***

Zaman keçdikcə siyasi sürəclərin gedişində tərəfdarlar partiyanın inanclarını, hədəflərini, normalarını, siyasi xətlərini və s. tam qəbul edərək fəallaşıb partiya üzvü olur; bilik, bacarıq, vərdiş, təcrübə və s. qazanıb yetkinləşən sıravi üzvlər kadra çevrilir, kadrlar isə partiya həyatı ilə bağlı söz

sahibi olmaga, bürokratik aparatın qəbul etdiyi, yaxud edəcəyi qərarlara təsir göstərməyə can atarlar. "General olmağa çalışan əsgər" prinsipi üzərində qurulmuş bu inkişaf xətti insanın özünütəsdiq instinktindən irəli gələn normal bir haldır və siyasi həyata atılmış hər bir şəxs üçün məqbul yüksəliş yoludur.

Sosiologiyada buna siyasi qatılma adı verilir. ***Siyasi qatılma – siyasi həyatın əsas anlayışlarından biri olub, siyasi sürəcləri izləmə marağından siyasi qərarların alınmasına təsir göstərməyədək uzanan bir fəaliyyətlər bütünüdür.***

Politoloq R.A.Del (Amerika) siyasi qatılmanın dörd amilini göstərir:

***1. maraq (siyasi hadisələri izləmək);***

***2. önəm vermə (siyasi hadisələrə önəm vermək);***

***3. bilgi (siyasi hadisə və problemlər haqqında bilgi almaq);***

***4. hərəkət (siyasi hadisələrə qarışmaq və bunlarda aktiv rol oynamaq).***

Dəniz Baykala (Türkiyə) görə, siyasi qatılma üç pilləli bir bütündür:

*1.* ***siyasi hadisələri izləmə*** (qəzet oxumaq, radio dinləmək, TV-yə baxmaq, xəbərlərlə maraqlanmaq və c.);

***2. siyasi hadisələrlə baglı müəyyən davranışda bulunma*** (KİV-də çıxış etmək, iclaslarda, mitinqlərdə danışmaq, siyasi liderlərlə görüşüb onlara təsir etməyə çalışmaq və s.);

***3. siyasi hadisələrdə aktiv rol oynamaq*** (birbaşa siyasi hadisələrə qarışmaq, idarəedicilikdə iştirak etmək, siyasi qərarvericilərdən biri olmaq və s.).

S.Hantinqtonun fikrincə, ***siyasi qatılma siyasi modernləşmənin ən təməl yönüdür***. A.T.Kışlalı isə yazır: **"*Günümüzdə bir rejimin demokratikliyi xalqa tanıdıgı siyasi qatılma imkanları ilə ölçülür hala gəldi".***

Qeyd edək ki, siyasi qatılma ilə baglı üç anlayış bir-birindən fərqləndirilməlidir:

***1. Siyasi qatilmadan uzaqlaşma.*** Toplum üzvlərinin heç də hamısı siyasi həyata atılmaz və insanların müəyyən qismi könüllü surətdə, öz-özünə siyasi qatılmadan uzaq durmağa çalışar. Kənar təsirlə yox, daxili istəklə meydana çıxan bu hadisəni siyasi qatılmadan uzaqlaşma – **apolitizasiya** adlandırmaq mümkündür.

***2. Siyasi qatılmadan uzaqlaşdırılma***. Bir çox ölkələrdə Anayasa və mövcud qanunlar toplum üzvlərinin müəyyən qismini, özəlliklə, dövlətin güc sistemində çalışanları siyasi qatılmadan uzaqlaşmağa məcbur edər. Daxili istəklə yox, kənar təsirlə baş verən bu məcburi hadisə ölkə içərisində siyasi münasibətlərin silah gücü ilə aydınlaşdırılmasını önləyir və tam legitim sayılır. Ordunun, polisin və təhlükəsizlik qurumlarının rəsmi surətdə siyasi qatılmadan uzaqlaşdırılması (onu ***depolitizasiya*** da adlandırmaq olar) demokratiyaya qarşı deyil, əksinə, demokratiyanı qorumaq üçündür.

***3. Siyasi qatılmanı məhdudlasdırma***. Əgər siyasi qatılmadan uzaqlaşma, yaxud uzaqlaşdırılma normal xarakter daşıyırsa, siyasi qatılmanı məhdudlaşdırma anormal bir hadisədir və qeyri-demokratikliyin göstəricisidir. Adətən, qeyri-demokratik rejimdə özünü daha rahat hiss edən avtoritar, yaxud totalitar iqtidarlar sözdə və kağiz üzərində demokratik rejimdən, hər kəsin siyasi qatılma haqqının olmasından danıssa belə, əməldə özündən başqa heç kimə siyasi qatılma haqqı tanımaz. Bu cür iqtidarlara görə, siyasi qatılma yalnız onların özlərinin "qanuni" haqqıdır. Qalan insanlar isə ən uzağı, siyasi səhnənin passiv tamaşaçısı ola bilərlər. "Kitabdan-kitaba" salınaraq müxtəlif bəhanələrlə "əsaslandırılan" bu tezis həmin iqtidarların öz qeyri-demokratikliyini gizlətmə, ört-basdır etmə cəhdindən başqa bir şey deyil.

Müxalifət də daxil geniş xalq kütlələrinə siyasi səhnənin passiv tamaşaçısı rolu ayıran (ən yaxşı halda, mətbuatı oxu, radio-TV-ni izlə!), xalqın siyasi hadisələrlə baglı muəyyən davranışda bulunmasını qeyri-qanuni olaraq minimuma, siyasi hadisələrdə aktiv rol oynamasını isə zorakılıq və saxtakarlıqla sıfıra endirən belə iqtidarlar cox zaman xalqı siyasi həyatdan ayırmaq üçün süni şəkildə müxtəlif problemlər yaradır və insanların siyasi məsələlərə yox, həmin problemlərə (örnəyin, günlük çörək pulu qazanmağa) önəm verməsinə calışır. Çağdaş Azərbaycanın durumu göz qabağındadır…

***Siyasi qatılmanı məhdudlaşdırma – insanların siyasi qatılma haqqının qeyri-qanuni olaraq hər cür vasitələrlə daraldılması, hüdudlandırılmasıdır***. Qeyd edek ki, bu hadisə təkcə dövlət sistemində yox, partiya sistemində də geniş yayılmışdır.

***Partiya daxilində siyasi qatılmanı məhdudlaşdırma xəttinin yürüdülməsi siyasi toqquşma ücün zəmin yaradır***. Siyasi hadisələrə ***maraq***

***göstərib*** onları izləyən, bu hadisələrə önəm verib müəyyən davranısda bulunan partiya üzvləri həm də bu hadisələrlə baglı geniş ***bilgi almağa*** və hadisələrin gedişində ***aktiv rol oynamağa*** çalışacaqdır (Unutmayaq ki, partiya üzvləri apolitizasiyaya uğramış, yaxud depolitizasiyaya uğradılmış insanlardan yox, ***politizasiyanı – siyasiləşməni*** qəbul etmiş insanlardan ibarətdir). Bu insanların bilik, bacarıq, vərdiş, təcrübə qazanıb yetkinləşən və ***kadra*** çevrilən qismi Azərbaycan siyasi mədəniyyətinin bir ifadəsi ilə desək, "adam yerinə qoyulma"ğa, haqq etdiyi, yaxud haqq etdiyinə özünün və onu tanıyan çevrəsinin inandığı qiyməti, dəyəri almağa, bir sözlə, daha yuksək sosial status və rol əldə etməyə meyllidir. Təbii ki, bio-psixo-sosial xarakter daşıyan həmin meyl tam normaldır və çeşidli səviyyələrə malik olmaqla hər kəs üçün keçərlidir.

Partiya həyatı ilə bağlı siyasi qərarların verilməsində əsas səlahiyyət ən ali orqan olan qurultaya, qurultaylararası dövrdə ali məclisə (divan, ali şura, siyasi şura və s.), ali məclislər arası dövrdə isə mərkəzi bürökratik aparata (idarə heyəti, icraiyyə komitəsi, rəyasət heyəti, sədr aparatı və s.) məxsusdur. Qurultaya ***partiyadakı kadrların təxminən hamısı*** qatılar (tək-tək istisnaları nəzərə almırıq), ali məclisdə həmin ***kadrların müəyyən qismi*** təmsil olunar, mərkəzi bürokratik aparatda isə ***partiya kadrlarının çox kiçik bir qismi*** yer tutar. ***Partiya liderinin rəhbərlik etdiyi mərkəzi bürokratik aparat partiyanın cari siyasi qərarvermə sürəcində çox mühüm rol oynayır***. Buradan da partiyanın çoxsaylı kadrları arasında ***səlahiyyət və imkan fərqi*** yaranar.

Tanınmış alman sosioloqu, siyasət sosiologiyasının banilərindən biri Robert Mixels (1876-1936) hələ 1911-ci ildə aydınlaşdırdı ki, çoxsaylı üzvləri olan böyük partiyalarda əksəriyyətin siyasi qərarvermə sürəsinə birbaşa qatılması tekniki baxımdan imkansızdır. Bu səbəbdən, partiyada labüdən iyerarxik struktur yaranır və idarəedicilik üçün çox vacib olan bilgi və informasiya axını, əsasən, iyerarxik strukturun üst qatına yönəlir. Üst qatdakılar aldıqları informasiyanın müəyyən qismini aşağılara ötürür, müəyyən qismini isə yalnız özləri bilirlər və ortaya çıxarilmayan bu "gizli" informasiya idarəedicilikdə çox mühüm önəm daşıyır.

Bu sürəcin bəlli bir müddət davam etməsi nəticəsində üst qatdakılar yavaş-yavaş bürokratikləşir və iyerarxik strukturlarda getdikcə üst qatla aşağı qatlar arasında bir boşluq yaranır. Boşlugun bir tərəfində partiyanın siyasi

qərarvermə sürəcinə qatılmaqdan məhrum olmuş idarəedilən çoxluq, digər tərəfində isə hər şeyi öz hökmü altına alan və bunu yeganə dogru hal sayan bürokratik azlıq – partiya oliqarxiyası durur.

(Hətta bəzən mərkəzi bürokratik aparatda olan partiya oliqarxiyasının üst qatı o qədər bürokratikləşir və öz partiyadaşlarından təcrid olunub ayrılaraq bürokratik yadlaşmaya uğrayır ki, XIV Lüdovik "Dövlət mənəm!" dediyi kimi, bunlar da "Partiya bizik!" düşüncəsinə qapılır, özlərinə qarşı çıxanları partiyaya qarşı çıxanlar kimi qəbul edirlər).

Adətən, partiya oliqarxiyası öz hakimiyyətini daim əldə saxlamağa çalışar. Lakin idarə edilən çoxluğun hamısını tam tabe olmağa və partiya oliqarxiyasının çıxardığı bütün qərarlara sözsüz boyun əyməyə məcbur etmək heç də asan məsələ deyil. Çünki zaman keçdikcə idarəedilən çoxluq içərisindən çıxıb bilik, bacariq, vərdiş, təcrübə qazanan və yetkin kadra çevrilən üzvlər partiya oliqarxiyasının yalnışlıqlarını qəbul etməyərək siyasi qərarvermə sürəcinə təsir göstərməyə can atarlar. O zaman, partiya oliqarxiyası öz hakimiyyətini qorumaq üçün ***yuxarıdan aşağı özlərinə "sədaqətli" şəxslərdən ibarət bir daxili qruplaşma*** yaradar və bu qruplaşmaya daxil olan üzvlər bir-birləri ilə ayrıca uzlaşaraq partiyanın digər üzvlərini, özəlliklə, "başqa" kadrları siyasi qərarvermə sürəcinə yaxın buraxmamağa çalışar.

R.Mixels bu sürəci partiyaların əksəriyyətində müşahidə etmiş və onu "***Oliqarxiyanın dəmir qanunu"*** adlandırmışdır.

Siyasi qatılma imkanları məhdudlaşdırılıb siyasi qərarvermə sürəcinə yaxın buraxılmayan və mərkəzi bürokratik aparata təsir gücünün hər vasitə ilə zəifledilməsinə çalışılan bu "basqa" kadrlar partiya oliqarxiyasının yaratdığı qruplaşmaya qarşı dura bilmək üçün tez-gec məcbur olarlar ki, özlərini haqlı sayıb qəbul edən üzvlərdən ibarət əks qruplaşma(lar) yaratsınlar. Nəticədə, **"*Oliqarxiyanın dəmir qanunu" səbəbinə partiya daxilində çeşidli qruplar formalaşar və qruplararası rəqabət meydana çıxar*.**

## Qrup nədir?

Gündəlik danışığımızda qrup sözü daha çox ***"dəstə"*** anlamında işlədilir. Lakin sosiologiyada və sosial-psixologiyada hər dəstə qrup sayılmaz. Bir dəstənin qrup sayıla bilməsi müəyyən şərtlərin varlığına bağlıdır. Həmin şərtlərə görə, bir dəstənin qrup adlanması və bütövlükdə, qrupun mövcudluğu üçün:

***1. üzvlər arasında bilinən bəlli ortaq məqsəd və hədəflər olmalıdır;***

***2. üzvlər bir-birinin varlığından xəbərdar olub bir-birini dəstəkləməli və bir-birinə qarşılıqlı təsir göstərə bilməlidir;***

***3. üzvlərdə qrup mənsubluğu şüuru olmalı və özlərini başqalarindan "biz – onlar" ayırması ilə fərqləndirməlidir;***

***4. üzvlərin vahid davranış etalonları – ortaq norma, dəyər və standartları olmalıdır;***

***5. üzvlər arasında məqbul sayılıb qəbul edilən iyerarxik quruluş olmalıdır və s.***

Yalniz bu şərtlərə cavab verən dəstə sözün gercək mənasında qrup sayılır. Örnəyin, məhz həmin şərtlər əsasında AXCP digər siyasi partiyalardan ayrılır, yaxud "Yurd" qruplaşması qalan bütün cəbhəçilərdən fərqlənir.

İstənilən toplumda bir-birindən çeşidli yönlərə görə fərqlənən çoxsaylı qruplar olar. Bizi hər cür qruplar yox, partiyadaxili qruplar maraqlandırdığı ücün məhz bu məsələ üzərində dururuq.

## Partiyadaxili qruplaşmalar

Təşkilat sosiologiyası uzmanı Ayşə Öncü iyerarxik strukturda idarəedici azlığın üst qatdan aşağı qatlara doğru yaratdığı qruplaşmanı "şaquli qrup", buna daxil olmayanları isə "üfiqi qrup" adlandırır.

Sosiologiyanın çeşidli qolları üzrə aparılmış araşdırmalar bu şaquli və üfüqi qruplaşmaların xarakterik özəlliklərini ortaya çıxarmışdır. Həmin xarakterik özəlliklərə və şəxsi müşahidələrimizə əsaslanaraq partiya daxilində üç növ qruplaşmanın mövcudluğunu irəli sürür, onları aşağıdakı terminlərlə qavramlaşdırır (anlayışa çevirir) və bu cür sxemləşdiririk:




Başqa sözlə, biz şaquli qrup dedikdə həm idarəedici qrupu, həm də idarəediciliyə can atan qrupları, üfiqi qrup dedikdə isə, mərkəzçi “qrup”u nəzərdə tuturuq.

Bunları ayrı-ayrılıqda nəzərdən keçirək.

## 1. İdarəedici qrup

***İdarəedici qrup partiyadaxili iqtidardır***. Siyasi sistemin başqa bir institutlaşdırılmış hissəsində – dövlətdə partiyanın idarəedici qrupuna elə məhz ***iqtidar*** anlayışı uyğun gəlir. Yəni dövlətdə iqtidar və partiyada idarəedici qrup mahiyyətcə bir-birindən çox da fərqlənməyən eyni kateqoriyadır. ***Elita*** da adlandıra biləcəyimiz bu şaquli qrup yuxarıdan aşağıya dogru şaxələnir və öz xarakterinə görə iki fərqli tipə ayrılır: qapalı və açıq idarəedici qruplar.

### *a) Qapali idarəedici qrup*

Bürokratik yadlaşmaya uğrayaraq özü ilə partiyadaşları arasında məsafə açıb boşluq yaradan partiya oliqarxiyası getdikcə avtoritarlığa yuvarlanır və partiyadaxili iqtidarı öz təkəlinə (monopoliyasına) almağa calışaraq qapalı idarəetmə sistemi formalaşdırır. Nəticədə, **idarəedici qrup xaraktercə qapalı qrup olur və buraya kadrların cəlb edilməsi daha çox subyektiv amillər**

**əsasında aparılır.** Həmin amillər içərisində bir-biri ilə bağlı ***gizli bazarlıq üsulu*** və ***şəxsi sədaqət prinsipini*** ayrıca fərqləndirək.

Partiya oliqarxiyası yuxarıdan aşağı yaratdığı qruplaşmaya daxil olanlarla gizli bazarlıq yapır. **Bu bazarlıqda əsas şərt odur ki, aşağılar yuxarıdakıların daim ayaqda qalmasına çalışmalı, yuxarıdakılar isə bu şəxsi sədaqətə görə mütləq həmin aşağıdakıları mükafatlandırmalıdır.** A.Öncünün göstərdiyi kimi, burada yazılmamış bir qanun var: aşağı qatdakılar haqlı-haqsız bütün məsələlərdə üst qatdakıları dəstəkləyər, üst qatdakılar isə partiyanın idarəedici qrupdan olmayan digər qabiliyyətli kadrlarını yox, məhz özlərinə sədaqətli qrup üzvlərini bacardı-bacarmadı, qabaga çəkər, yaxud onlara gələcəklə bağlı şirin vədlər verər. Partiyanın qabiliyyətli kadrları dura-dura qabağa cəkilmiş və süni olaraq sosial status qazandırılmış nisbətən səviyyəsiz qrup üzvləri üst qatdakı "öz rəhbərləri" qarşısında "borclu" olar və daha sədaqətlə "xidmət" göstərməyə çalışar. Nisbətən səviyyəli qrup üzvlərinə isə aşılanar ki, sənin irəli çəkilməyin öz şəxsi qabiliyyətinə görə yox, rəhbərliyin sənə münasibətinə görədir. Çalış bu münasibəti korlama və həmişə rəhbərliyə sədaqətli ol.

Qapalı idarəedici qrup səlahiyyət sahibi olduğu mərkəzi bürokratik aparatdan sui-istifadə edir və bəzən onu öz əleyhdarlarına qarşı cəza aparatına çevirməkdən belə çəkinmir. Əksinə, bunu normal sayaraq öz mənafeyinə toxunanlara qarşı bütün vasitələrdən – inandırma, aldatma, şirnikləndirmə, neytrallaşdırma, ələalma, gözümçıxdıyasalma, hədələmə, böhtan, şantaj, partiyadan uzaqlaşdırma, töhmət, xəbərdarlıq və s. istifadə etməklə çalışır ki, öz idarəedicilik mövqeyini qorusun. Yeri gəlmişkən, qeyd edək ki, mənafeyə toxunma təkcə idarəedici qrupu tənqid və ya ifşa etməklə yox, həm də bu qrupdan olmayanların hər hansı təşəbbüskarlıq göstərməsi və qabiliyyətlərinə uyğun iş görərək sosial status qazanması ilə də baş verir.

Partiyanın iyerarxik strukturunun üst qatından yönəldildiyinə və aparıcı liderə (yaxud liderlərə) malik olduğuna görə, qapalı idarəedici qrup nisbətən sabitdir, ən başlıcası isə üzvləri arasında partiya mənsubluğu şüurundah daha çox, qrup mənsubluğu şüuru var və bu qrup şüuru həmin üzvlərdə həmrəylik, vahid mövqe yaradır və hadisələrə daha çevik, daha mütəşəkkil cavab verməsinə səbəb olur. Daha yaxşı birləşmiş, ayrıca təşkilatlanmış və

partiyadaxili iqtidara yiyələnmiş bu qrup ilk növbədə öz qrup mənafeyini, bundan sonra isə ümumpartiya mənafeyini əsas götürür. Ona görə də, qapalı idarəediciliyə qarşı olan şəxsləri müxtəlif bəhanələrlə partiyadan uzaqlaşmağa, ən yaxşı halda, passivləşməyə məcbur edərkən ümumpartiya mənafeyinə dəyən zərbə onları çox da rahatsız etmir, əksinə, qrup mənafeləri təmin olunduğu üçün rahatlanırlar.

Qapalı idarəedici qrupun üzvləri, adətən, sayca az olar (hamıya şirin vəd vermək mümkün deyil axı!) və partiyanın məfkurəsinə nisbətən ikinci dərəcəli bir məsələ kimi baxarlar. Praqmatikliyi (bu haqda sonra) əsas götürdükləri üçün partiyanın məfkurəsini günün modasına uyğun dəyişdirməyə meyl göstərərlər.

### *b) Açıq idarəedici qrup*

Partiyanın iyerarxik strukturunda üst qat bürokratik yadlaşmaya uğramırsa və partiyadaxili iqtidarı daim əldə saxlamaq üçün qrup mənafeyini partiya mənafeyindən üstün tutmursa, o zaman siyasi qatılmanı məhdudlaşdırma xətti mövcud olmur, əksinə, siyasi qərarvermə sürəcinə qatılmaq üçün hər kəsə imkan yaranır. ***Hər kəsə siyasi qatılma imkanı əməldə tanınan idarəedicilik sistemi açıq sistemidir və burada "Hər kəsə qabiliyyətinə görə!" prinsipi hökm sürür***.

Dogrudur, açıq idarəetmə sistemində də idarəedici qrup və idarəediciliyə can atan qruplar var, lakin ***əsas məsələ bu qrupların olub-olmamasında yox, bu qruplar arasındakı siyasi münasibətləri tənzimləyən təməl prinsipdədir***. Partiya daxilində insanların siyasi qərarvermə sürəcinə qatılma imkanını "Şəxsi sədaqətə görə!" prinsipi bir cür, "Hər kəsə qabiliyyətinə görə!" prinsipi isə başqa cür tənzimləyir.

**"*Şəxsi sədaqətə görə*!"** prinsipi siyasi qərarvermə sürəcinə qatılma imkanını məhdud bir qrupun təkəlində cəmləşdirdiyi, bu qrupdan olmayanları isə oyundankənar duruma saldığı, başqa sözlə, partiyadaxili demokratiyanı pozduğu üçün partiyanın enerjisi daha çox daxilə yönəlir və bu zaman idarəediciliyə can atan qruplar ciddi müqavimət göstərə bilirsə, partiyadaxili siyasi toqquşma güclənib sərtləşir; ciddi müqavimət yoxsa, siyasi qatılmadan məhrum idarə edilən çoxluq addım-addım passivləşir, partiyanın toplumla

əlaqəsi zəifləyir və partiya yavaş-yavaş arxa plana keçməyə başlayır. Bu durum uzun müddət davam edərsə, partiya tamam məhv ola bilər (Unutmayaq ki, istənilən qapalı sistem məhvə məhkumdur).

**"Hər kəsə qabiliyyətinə görə!" prinsipi** isə, siyasi qatılma imkanını partiyanın bütün üzvlərinə şamil etdiyindən və partiyadaxili demokratiya gözlənildiyindən heç kim oyundankənar duruma düşmür, əksinə, hamı üçün şərait yaranır və qabiliyyəti olan hər bir şəxs siyasi qərarvermə sürəcinə bu və ya digər dərəcədə qatıla bilir. Nəticədə, partiyanın bütün üzvlərinin aktivləşməsinə imkan verən açıq idarəetmə sistemi meydana cıxır və qruplararası siyasi toqquşma sağlam rəqabət xarakteri daşıdığından həm partiyadaxili siyasi uzlaşma daha da möhkəmlənir, həm də partiyanın enerjisi daha çox xaricə yönələrək partiya ilə toplum arasındakı əlaqələri gücləndirir.

Açıq idarəetmə sistemində partiyadaxili idarəedici qrupun bürokratik yadlaşmaya uğrayaraq öz partiyadaşlarından aralı düşməsi çox da asan məsələ deyil. Çünki bürokratik yadlaşmaya meylli kadrlar partiya üzvləri içərisində öz nüfuzunu – sosial statusunu itirə və başqa bir qabiliyyətli kadrla əvəz edilə bilər. Ona görə də, açıq xarakterli idarəedici qrup öz mənafeyi olan ayrıca bir sabit qrupa çevrilmir və "Partiya bizik!" xəstəliyinə yoluxmur.

Açıq idarəetmə sistemində üst qatdakı kadrların aşağı qatlardakı tərəfdarları, ***əvvəla***, ayrıca liderə malik tam sabit qruplaşmalar yaratmırlar; **ikincisi,** onlarda müəyyən qruplaşma olsa da, partiya mənsubluğu şüuru qrup mənsubluğu şüurundan qat-qat üstün tutulur; ***üçüncüsü,*** yeni şərtlərə nə qədər uyğunlaşma baş verir-versin, partiya məfkurəsinin təməlləri eyni ilə qorunur və s. Nəticədə, partiyadaxili sağlam rəqabət xarakterli yumşaq siyasi toqquşmaya girişən tərəflər ***nisbi qruplaşma*** olmaqdan irəli getmirlər. Əgər hər hansı bir məsələdə toqquşma sərtləşirsə, ümumpartiya mənafeyi naminə məsələnin optimal həlli tapılır və uzlaşma təmin edilir.

## 2. İdarəediciliyə can atan qrup(lar)

***İdarəediciliyə can atan qruplar partiyadaxili müxalifəti təşkil edir***. Sayca birdən çox olan bu qruplar çeşidli təməllər əsasında formalaşar və partiyadaxili hakimiyyət uğrunda əsasən idarəedici qrupla, nusbətən də bir-birləri ilə mübarizə aparar. İdarəediciliyə can atan bu şaquli qruplar mahiyyətcə dövlət sistemindəki ***müxalifət*** anlayışına tam uyğundur və bütövlükdə, ***əks-elita*** da adlana bilər. Müxalifət içərisində ana müxalifət seçildiyi kimi, idarəediciliyə can atan qruplar içarisində də aparıcı ***əks-elita*** asanlıqla fərqlənib tanınır.

İdarəediciliyə can atan qrupların xarakteri, mahiyyəti, tutduqları yol, qəbul etdikləri prinsiplər və s. partiyadakı idarəetmə sisteminin açıq, yoxsa qapalı olmasına bağlıdır. Əgər partiyada açıq idarəetmə sistemi mövcuddursa, idarəediciliyə can atan qruplar çox da sabit olmaz, az-cox sabit olanları isə o qədər də böyüyə bilməz. Siyasi qatılma haqları əməldə tanındığına və idarəedici qrupa çevrilmə, yaxud onunla qovuşma imkanına malik olduqlarına görə, açıq idarəetmə sistemində idarəediciliyə can atan qrupların hər biri aktiv fəaliyyət göstərər və bu aktivlik partiyanın toplumla əlaqələrinin sıxlaşmasında mühüm rol oynayar.

Qapalı idaetmə sisteminə malik partiyalarda isə idarəedici qrup idarəediciliyə can atan qrupları hər vasitə ilə susdurmağa, onların təşəbbüskarlığını boğmaga, siyasi qatılmalarını məhdudlaşdıraraq passivləşdirməyə çalışar. Qapalı idarəedici qrup bütün partiyanı öz təkəlinə keçirmə fəaliyyətini gücləndirdikcə partiya yavaş-yavaş iflic vəziyyətinə düşər və bu zaman partiyanın xilası idarəediciliyə can atan qrupların fəaliyyətindən asılı olar.

Qapalı idarəedici qrupun əsas gücü iyerarxik strukturun üst qatında daha çox təmsil olunmalarında və öz gercək niyyətlərini – **partiya mənafeyindən üstün tutduqları qrup mənafeyini partiyanın idarə edilən çoxlugundan gizlədə bilməsindədir**. Ona görə də, idarəediciliyə can atan qruplar çalişar ki:

***– qapalı idarəedici qrupun gerçək niyyətləri və partiya mənafeyinə vurdugu zərbələr bütün partiya üzvlərinə bəlli olsun;***

***– özləri aşagı qatlardakı çoxluqla bütünləşib gücə çevrilsinlər;***

***– partiyada açıq idarəetmə sistemi yaradılsın və daxili tarazlığın pozulması ortadan qaldırılsın*** və s.

Qeyd edək ki, qruplararası mübarizədə ***səlahiyyət gücü*** və ***nüfüz gücü*** anlayışlarına özəl diqqət yetirilməlidir. ***Siyasi iqtidara – idarəedici qrupa məxsus olan səlahiyyət gücü öz ardınca nüfüz gücü də gətirə bilir*** (tanınmamış birisini vəzifəyə qoymaq və vəzifənin verdiyi səlahiyyət gücü səbəbinə o şəxsə müəyyən nüfüz gücü qazandırmaq mümkündür). Lakin siyasi iqtidar – idarəedici qrup (yaxud vəzifəyə qoyulmuş şəxs) toplum tərəfindən ***haqlı*** sayılmırsa, nüfüz gücü qazana bilməyəcək və ya qazandığı nüfüz gücünü itirəcəkdir. Nüfüz gücünün yoxluğu tez-gec səlahiyyət gücünün də itirilməsi – iqtidardan (idarəedicilikdən) məhrum edilməsi ilə nəticələnər.

Qapalı idarəedici qrup müəyyən müddət sonra partiya daxilində öz nüfüz gücünü itirir və daha cox səlahiyyət gücü əsasında hərəkət etməyə başlayır. ***Mərkəzi bürokratik aparatın əleyhdarları cəzalandırma cihazına çevrilməsi də məhz buradan irəli gəlməkdədir***.

İdarəediciliyə can atan qruplarda isə səlahiyyət gücündən daha çox nüfüz gücü var. ***Nüfüz gücü – sosial iqtidar deməkdir*** və partiyadaxili sosial iqtidarı qazanan hər hansı bir əks-elita ana müxalifət durumuna keçir. İdarəediciliyə can atan aparıcı qrupun partiyadaxili sosial iqtidarı nə qədər güclü, geniş və böyükdürsə, onun partiyadaxili siyasi iqtidarı qazanma şansı da o qədər yüksəkdir. ***Ona görə də, idarəediciliyə can atan hər hansı bir qrupun ilk növbədə əsas işi öz nüfüz gücünü artırmaq və partiyadaxili sosial iqtidara yiyələnməkdir***. Bu məsələdə son sözü mərkəzçi “qrup” deyir.

## 3. Mərkəzçi “qrup”

***Mərkəzçi “qrup” partiyanın idarə olunan çoxsaylı üzvləridir və mahiyyətcə, dövlət sistemindəki xalq, geniş xalq kütləəri anlayışına uyğundur***. Nə təşkilatı öz təkəlinə almağa, nə də təşkilatda idarəediciliyi qazanmağa can atmayan mərkəzçi “qrup” əslində, gercək bir qrup sayıla bilməz. Çünki bunlarda gercək bir qrup xisləti yoxdur və qrupla baglı yuxarıda sadaladığımız şərtləri bunlara şamil etmək mümkün deyil. Bunların qrupu ele

pariyanin özüdür və xalq üçün ən ali təşkilatlanma forması dövlət olduğu kimi, mərkəzçi "qrup" üçün də başlıca qruplaşma forması məhz partiyadır. Adətən, ***sıravi partiya üzvlərinin cox böyük əksəriyyətinin cəmləşdiyi mərkəzçi "qrup" üçün partiyanın bir ümumi lideri olar, yalnız partiya mənsubluğu şüuru, yalnız partiya norma və standartları, yalnız partiya məfkurəsi və s. ciddi önəm daşıyar***. Ona görə də, daha çox partiyanın bütövlüyünü, üzvlər arasında həmrəyliyi, birlik və bərabərliyi əsas götürən ***mərkəzi "qrup" əslində kvazi (yalançı) qrupdur*** və "qrup" termininin dırnaq içərisində yazılışı da buradan irəli gəlir.

Ayrıca daxili təşkilatlanmaya malik olmadığı üçün mərkəzçi "qrup" üzvləri pərakəndədir və bir-birlərinin varlığından partiyadaxili qrup üzvü kimi yox, məhz partiya üzvü kimi xəbərdardır. Partiyadaxili siyasi munasibətlərin çox da gərgin olmadığı normal durumda mərkəzçi "qrup"un varlığı o qədər də açıq duyulmur, yaxud mərkəzçi "qrup" öz varlığını o qədər də açıq şəkildə hiss etdirmir. Lakin partiyadaxili siyasi munasibətlərin gərginləşdiyi, partiya sistemi üçün müəyyən təhlükənin yarandığı və partiyada bəlli bir böhranın ortaya çıxdığı durumlarda mərkəzçi "qrup" fəallaşaraq güc qazanır, öz varlığını açıq-aydın duyuraraq problemin çözülməsi yolunda hərəkətə keçir. Belə durumlarda, adətən, mərkəzçi "qrup"un ictimai rəyi həlledici olur. Elə ki, gərginlik çözüldu və partiyadaxili siyasi münasibətlər normal axara döndü, mərkəzçi "qrup" yenidən durğunlaşır və qruplararası siyasi toqquşmaya qatılmayaraq "yuxuya dalır".

Ümumpartiya mənafeyini hər cür qrup mənafeyindən üstün tutan ***mərkəzçi "qrup"da bazarlıq üsuluna və şəxsi sədaqət prinsipinə yer verilməz***. Qapalı idarəedici qrup məhz bazarlıq üsulu və şəxsi sədaqət prinsipi üzərində qurulduğu, yaxud idarəediciliyə can atan qruplarda bu amillər nə qədər az olsa da, müəyyən rol oynadığı halda, mərkəzçi "qrup" üçün nə bazarlıq üsulunun, nə də şəxsi sədaqət prinsipinin önəmi var. Əksinə, mərkəzçi "qrup"da bazarlığın cox vaxt qrup mənafeli gizli alverinə qarşı ***bütün partiya üçün faydalı açıq kütləvilik üsulu durur*** və üst qatdakılara şəxsi sədaqətlilik yerinə ***məfkurəyə sədaqətlilik*** daha böyük önəm daşıyır. Bu məfkurənin ifadəçisi kimdirsə (adətən, partiya lideri olar), mərkəzçi "qrup" daha çox onu dəstəkləyər.

Mərkəzçi "qrup"da partiyadaxili ***ədalətsizliyə*** və ***haqqın pozulmasına*** qarşı çox ciddi həssasliq var. İstər idrəedici qrup, istərsə də idarəediciliyə can

atan hər hansı bir qrup nə qədər güclü olur-olsun, ədalətsizlik yapır və haqqı tapdalayırsa, gec-tez mərkəzçi "qrup" ona qarşı çıxacaqdır. Lakin bunun üçün ədalətsizliyə və haqqın pozulmasına dair mərkəzçi "qrup"a geniş bilgi – ardıcıl, ətraflı informasiya verilməlidir. Məhz həmin bilgi və informasiya səbəbinə mərkəzçi "qrup"da məsələ ilə bağlı **baxış birliyi formalaşır** və o baxış birliyi mərkəzçi "qrup"un qərar qəbul edib hərəkətə keçməsi üçün başlıca motiv olur.

Mərkəzçi "qrup"da ayrıca lider, yaxud liderlərdən yox, ortaq mənafeyi dilə gətirərək ictimai rəyə təsir göstərən ***sözçülərdən*** danısmaq daha dogrudur. Partiyadaxili ədalətsizliyə və haqqın pozulmasına dair mərkəzçi "qrup"un ***bilgiləndirilməsində*** həmin sözçülər çox mühüm rol oynayır. Daha doğrusu, partiya daxilində toqquşan tərəflərdən hansının ədalətli, haqlı, hansının isə ədalətsiz, haqsız olması ilə bağlı mərkəzçi "qrup"da ictimai rəyin formalaşdırılmasında bu sözçülərin rolu böyükdür. Belə ki, toqquşan tərəflərdən hər biri öz baxışını ya birbaşa, ya da dolaylı kanalla mərkəzçi "qrup"a yetirməyə çalışar, lakin mərkəzçi "qrup" üzvlərinin heç də hamısı bu əks baxışlardan hansının dogru, hansının yanlış olmasına dair sərbəst qərar verə bilməz (İdarəedici qrupda, yaxud idarəediciliyə can atan qruplarda isə bu qərarı vermək asanlıqla mümkündür. Çünki bunlarda üst qatdakı liderin, yaxud liderlərin istəyinə uyğunluq məhz hansı qərarın verilməsinə yol göstərir). O zaman, seçim qarşısında qalmış mərkəzçi "qrup" üzvləri öz içlərindəki sözçülərin əks baxışları necə açıqlamasından, nə cür yozmasından asılı olaraq hərəkət edər. Sosial-psixologiyada bu sürəc ***informasiyanın iki aşamalı axını*** adlanır. Yəni toqquşan tərəflərin verdiyi informasiya əvvəlcə sözçülərin süzgəcindən keçir (birinci aşama), sonra isə mərkəzçi "qrup"a təqdim edilir (ikinci aşama). Deməli, partiya daxilində istər səlahiyyət gücünə, istərsə də nüfüz gücünə malik olan üst qatdan verilmiş informasiyanın necə dəyərləndirilməsində və əks baxışlardan hansının dogru sayılmasında ***sözçüləri nəzərə almamaq olmaz***.

***Sözçülər partiyanın üst qatındakı toqquşan tərəflərlə mərkəzçi "qrup" arasında ən mühüm vasitəçidir.*** Üst qatdakıların mərkəzçi "qrup"la birbaşa daimi əlaqəsi texniki baxımdan imkansızdır və sözçülərsiz, təxminən mümkün deyil. Əksinə, bu əlaqədə sözçülərin vasitəçiliyi qaçılmazdır və **sözçülər həm üst qatdakıların baxışlarını mərkəzçi "qrup"a ötürməkdə,**

**həm də mərkəzçi “qrup”un bu baxışlara dair cavab reaksiyasını – geribildirimi üst qatdakılara çatdırmaqla mühüm rol oynayır.** Ona görə də, qruplararası mübarizədə mərkəzçi “qrup”un sözçülərinə – sosioloqların **ictimai rəy lideri** adlandırdığı bu şəxslərə özəl diqqət yetirilməlidir (geniş bilgi üçün “Siyasi təbligatın əsasları” kitabımıza bax).

Partiya ilə geniş xalq kütlələri arasındakı münasibətlərdə mərkəzçi “qrup”un təşəbbüskarlığı və aktivliyi böyük önəm daşıyır. Toplumda ictimayi rəyin partiya xeyrinə formalaşdırılması və geniş xalq kütləleri tərəfindən partiyanın dəstəklənməsi üçün çox gərəkli olan **partiya təbliğatı**, özəlliklə **partiya təşviqatı** birbaşa mərkəzçi “qrup”un təşəbbüskarlığı və aktivliyi ilə həyata keçirilər. Lakin bunun üçün partiyada mütləq açıq idarəetmə sistemi mövcud olmali və partiya üivlərinin siyasi qatılma imkanı məhdudlaşdirilmamalıdır.

Əgər partiyada qapalı idarəetmə sistemi mövcuddursa, qapalı idarəedici qrupun bütün partiyanı öz təkəlinə keçirmə fəaliyyəti genişləndikcə mərkəzçi “qrup”un təşəbbüskarlığı, aktivliyi boğular, yalnız yuxarıdakılardan əmr gözləməyə məcbur edilmiş mərkəzçi “qrup” üzvləri hissə-hissə passivləşər, küskünləşib kənara çəkilər və partiya daxildən zəifləyər. Bu zaman maddi qazanc hərisi vəzifəpərəstlər və hər cür mənfi tiplər fəallaşaraq qapalı idarəedici “qrup” ətrafında toplanar, fürsətdən yararlanmağa çalışar. Nəticədə, partiya mənafeyi daha da çox zərbələrə məruz qalar.

Partiyanı bu arzuedilməz sonluqdan oyadıcı başlıca amil idarəediciliyə can atan qruplardır. Həmin qruplar qapalı idarəedici qrupun partiya mənafeyinə vurdugu zərbələri geniş açıqlamaqla mərkəzçi “qrup”da həyəcan yaradir və onunla bütünləşə bilirsə, o zaman mərkəzçi “qrup” aktivləşərək qapalı idarəetmə sistemini dağıdır və bununla da partiyanı acı sonluqdan xilas edir.

Lakin mümkündür ki, partiya sistemi üçün təhlükə idarəediciliyə can atan hər hansı bir qrupdan gəlsin. O zaman məhz idarəedici qrup mərkəzçi “qrup”u geniş bilgiləndirməklə onun dəstəyini qazanır (bu dəstək olmasa, idarəedici qrupun addımı yalnış yozular, hətta əks nəticə dogurar) və partiya sistemi üçün törənən təhlükəni ortadan qaldırır.

***Deməli, bütün hallarda partiyadaxili problemin çözülməsi üçün istər idarəedici qrupun, istərsə də idarəediciliyə can atan hər hansı bir qrupun***

***mərkəzçi "qrup"la bütünləşməsi başlıca şərtlərdən biridir. Çünki mərkəzçi "qrup"la bütünləşmə – partiyadaxili sosial iqtidarı qazanma deməkdir***. Bu isə partiyadaxili ***siyasi iqtidarı*** qazanmanın ən dogru yoludur (Eyni yol dövlət sistemində də keçərlidir. Burada da, hər şeydən öncə, xalqı qazanmaq gərəkdir).

## Qruplararası siyasi münasibətlər

Artıq göstərdiyimiz kimi, hakimiyyət ugrundakı mübarizənin özəlliklərini əks etdirən siyasi münasibətlər siyasi uzlaşma və siyasi toqquşma qütblərinə bölünür. Qruplararası müstəvidə bunları ayrı-ayrılıqda gözdən keçirək.

### *a) Qruplararası siyasi uzlaşma*

Siyasi modernləşmənin – çağdaşlaşmanın dışında qalmış gericil ölkələri çıxmaqla, bütün öncül və gəlişmiş ölkələrdə siyasi partiyalar siyasi sistemin mərkəzi ünsürü hesab edilir. Çünki siyasi çağdaşlaşmanın ən təməl yönü siyasi qatılmadır (S.Hantinqton) və toplum üzvlərinin siyasi qatılma imkanı isə, ilk sırada, məhz siyasi partiyalar vasitəsi ilə gerçəkləşə bilir. Ona görə də, insanların siyasiləşməsində – politizasiyasında siyasi partiyalar çox böyük rol oynamaqdadır.

Siyasiləşmiş hər bir insanın ***bəlli siyasi ehtiyac və maraqları*** olar ki, bu ehtiyac və maraqlar da onun siyasi məqsədlərinin, hədəflərinin təməlində durar. Lakin insan öz siyasi məqsəd və hədəflərini təkbaşına yox, digər insanlarla birgə həyata keçirə bilər. Buradan da, insanın öz siyasi məqsəd və hədəflərinə uygun baxışa malik digər insanlarla bir araya gəlməsi – eyni siyasi partiyada birləşməsi zərurəti ortaya çıxır.

***İstənilən partiya bəlli bir siyasi uzlaşma modelidir və öz üzvlərinin böyük çoxluğu arasındakı baxış birliyi əsasında yaranmışdır***. İnsanları bir araya gətirib siyasi uzlaşma modeli kimi filan partiyanı qurmağa yönəldən də məhz bu baxış birliyidir. Həmin baxış birliyi partiya həyatına aid konkret

məsələləri içərir (ehtiva edir). Partiya həyatında mühüm rol oynayan bu konkret uzlaşma məsələlərini iki qrupa ayıra bilərik:

1. *təməl uzlaşma məsələləri;*

*2. digər uslaşma məsələləri*.

***Təməl uzlaşma məsələləri siyasi partiyanın başlıca varlıq səbəbidir və partiyanın istər yaranması, istərdə də bir sistem kimi qorunub davam etdirilməsi məhz təməl uzlaşma məsələləri sayəsində mümkündür. Təməl uzlaşma məsələləri ilə bağlı baxış birliyinin yaranması və onun qorunması əslində partiyanın yaranması və qorunması deməkdir.***

***Siyasi uzlaşmanın əsas şərti baxış birliyi və bu baxış birliyinə uyğun davranış birliyidir.*** Müdrik xalqımızın "Niyyətin hara – mənzilin ora" atalar sözündə bu elmi gerçəklik çox dəqiq surətdə əks olunur…

Münci Kapaninin (Türkiyə) sözlərini partiya həyatına şamil etsək, **sabit və istiqrarlı bir uzlaşmanın mövcudluğu üçün üzvlərin ən azı yüzdə 75%-i arasında təməl uzlaşma məsələlərinə dair baxış birliyi olmalıdır.** Əgər uzlaşma səviyyəsi yüzdə 50%-dən bir qədər çox olsa belə, sabit və istiqrarlı bir partiya sistemindən danışmaq mümkün deyil.

Təməl uzlaşma məsələlərinə hələr daxildir? Şübhəsiz, burada hər şeydən öncə, ***məfkurə – ideologiya məsələsi*** xatırladılmalıdır. **İnsanın siyasi ehtiyac ve maraqları onun siyasi məqsəd və hədəflərini ortaya qoyur. Siyasi məqsəd və hədəflərin sistemləşərək bəlli fikir, inanc və dəyərlər sisteminə çevrilməsi məfkurəni yaradır.** Hansı məfkurənin seçilməsi ilə baglı baxış birliyi partiya sisteminin təməl uzlaşma məsələləri içərisində çox önəmli və özəl bir yer tutur.

Təbii ki, sistemli bir məfkurənin yaranmasında, yaxud gəlişdirilməsində, yaxud da sadəcə davam etdirilməsində ***liderin və onun ətrafındakı*** kadrların böyük payı vardır. Heç də hər insan məfkurə yarada, yaxud da onu gəlişdirə və başqalarına inanc aşılaya, yeni fikirlər, hədəflər və onların həlli yollarını göstərə bilməz. Bu işi lider həyata keçirir və bir kadrın lider ola bilməsi üçün onun insanlara inanc aşılamağı, hədəf göstərməyi, mövcud hədəflərə inamı möhkəmlətməyi və s. bacarması gərəkdir. Qustav Le Bon böyük liderlərin başlıca rolunu məhz inanc yaratmaqda görürdü.

Bəlli bir məfkurəyə inanan insanlar özlərində bu məfkurəyə inanc yaratmış, yaxud mövcud inanclarını daha da möhkəmlətmiş liderin ətrafında birləşərlər. ***Bu insanların birləşməsində məfkurə amili ilə yanaşı, həm də liderə inam və lider ətrafındakı kadrların fəaliyyəti mühüm rol oynayır***. Doğrudur, lider məsələsinə münasibət toplumdan-topluma fərq edər. Çünki hər toplum təkcə sosial-psixoloji özəlliklərinə görə yox, həm də təkraredilməz etnik özəlliklərinə görə seçilən bir etnososial varlıqdır. Örnək üçün, İngilis toplumundan fərqli olaraq, Alman və Türk toplumlarında lider amili çox ciddi önəm daşıyır (Əhməd bəy Ağaoğlu bunu həm Almanların, həm də Türklərin tarix boyu cəngavər, hərbçi bir etnos olmasına bağlayırdı). O zaman, mümkündür ki, İngilis (bütövlükdə, Anqlo-Sakson) zehniyyətinə məxsus partiya sistemləri üçün lider amili təməl məsələlərindən sayılmasın. Lakin həm Alman, həm də Türk zehniyyətlərinin partiya sistemlərində ***təməl uzlaşma məsələlərindən biri məhz lider və onun komandası amilidir***. Təsadüfi deyil ki, Şah İsmayıl Xətayi buyururdu: **Mürşidsiz yollar aşılmaz!**

Bəlli bir məfkurə üzrə və müəyyən bir lider ətrafında birləşmiş insanların bir-biri ilə münasibətlərini (özəlliklə, siyasi münasibətlərini) tənzimləyəcək və onları bir arada tutacaq bir mexanizm gərəkdir. Adətən, siyasi munasibətləri tənzimləyən mexanizm mütləq bəlli bir **siyasi qurum (dövlət, partiya və s.) daxilində** formalaşar. İnsanların siyasi mədəniyyətindən, özəlliklə də siyasi şüurundan asılı olan siyasi prinsip və hüquqi normalar üzərində qurulmuş bu mexanizm ***idarəetmə sistemi, yaxud siyasi rejim adlanır.***

Siyasi rejim mütləq ***ədalətli*** olmalı və hər kəs tərəfindən ***haqlı*** sayılıb qəbul edilməlidir. Yalnız bu halda bir araya gəlmiş insanların bir-biri ilə siyasi münasibətləri doğru tənzimlənə və onların arasında sıx uzlaşma yarana, yaxud davam etdirilə bilər. ***Məhz ona görə də, siyasi rejim, onun başlıca prinsipləri, hüquqi normaları partiya sistemlərindəki təməl uzlaşma məsələlərindən sayılır. Hətta bir az da irəli getsək, bir çox hallarda üzvün partiyada öz fəaliyyətini davam etdirib-etdirməməsi məfkurə və lider məsələlərindən daha artıq partiyadaxili siyasi rejimdən asılı olur***.

Məhz bu üc məsələ: 1. məfkurə, 2. lider və onun komandası, 3.siyasi rejim amilləri üzrə yaranan baxış birliyi müəyyən siyasi uzlaşma modeli kimi partiya sisteminin varlıq səbəbini təşkil edir. Başqa sözlə, ***bir partiyanın təməl***

***uzlaşma məsələləri dedikdə məfkurə, liderin başçılıq etdiyi avtoritetlər və siyasi rejim məsələləri anlaşılmalıdır***. Sabit və istiqrarlı bir partiya sistemi üçün partiya üzvlərinin ən azı 75%-i məhz bu üç məsələdə baxış birliyinə malik olmalı və uzlaşmalıdır.

Yeri gəlmişkən, Xalq Cəbhəsi üzvləri içərisində geniş yayılmış "Hədəf bəlli, təşkilat bəlli, lider bəlli!" deyimi məhz göstərdiyimiz üç təməl uzlaşma məsələsini nisbətən obrazlı şəkildə əks etdirməkdədir…

Adətən, təməl uzlaşma məsələləri ilə bağlı partiya üzvlərinin ən azı yüzdə 75%-i arasında baxış birliyinin əldə olunması partiya qurultayında gercəkləşər. Qurultayadək özünü lider kimi təsdiqləmiş şəxs, belə biri yoxsa, mövcud kadrlar içərisindən lider ola biləcək başqa birisi partiya sədri seçilər; məfkurə və partiyadaxili siyasi rejim isə qəbul olunan partiya məramnamə və nizamnaməsində təsbit edilər.

Qurultayda təməl uzlaşma məsələləri ilə bağlı baxış birliyi yarandığı kimi, ***partiya həyatının digər uzlaşma məsələlərinin də*** ən ümumi əsasları müəyyənləşdirilər və nizamnaməyə salınar. Partiya həyatının digər uzlaşma məsələləri sayca daha çoxdur və günün reallıqlarına uyğun dəyişə biləndir. Buraya partiyanın ölkədaxili və ölkəxarici siyasi xətti, taktiki gedişləri, mübarizə üsulları, təşkilati strukturu, başqa partiyalarla siyasi münasibətləri və s. daxildir.

Təbii ki, partiya həyatının digər uzlaşma məsələləri ilə bağlı üzvlər arasında ***baxış birliyi*** ola biləcəyi kimi, zaman-zaman ***baxış fərqliliyi*** də yarana bilər. ***Ancaq bu baxış fərqliliyi nə qədər ciddi olur-olsun, təməl uzlaşma məsələlərinə təsir göstərmirsə, bir siyasi uzlaşma modeli kimi partiya sistemi üçün elə bir təhlükə törətməz***. Sadəcə, baxış fərqliliyinin yaranması artıq partiyadaxili münasibətlərdə siyasi toqquşmanın başlaması deməkdir. Çünki baxış fərqliliyi siyasi toqquşmanın əsas qaynağıdır.

### *b) Qruplararası siyasi toqquşma*

"Oliqarxiyanın dəmir qanunu" səbəbinə istənilən (özəlliklə, çoxsaylı üzvlərə malik) partiyada daxili qruplaşmalar yaranır və ***qruplararası baxış fərqliliyi siyasi toqquşma törədir***. Siyasi toqquşmanın əsas qaynağı olan

baxış fərqliliyi bir tərəfdən insanın bioloji, digər tərəfdən isə, psixo-sosial özəlliklərindən irəli gəlmıkdədir. Fikrimizi açıqlayaq.

İnsanın ruhi aləmi tarazlıqdan yaranan rahatlığa meyllidir. Anadangəlmə instinktiv istəklərin hər hansı biri müəyyən oyadıcı ***refleks*** səbəbinə ortaya çıxarkən insanın ruhi aləmində qeyri-tarazlıq yaradır. Tarazlığın pozulması nəticəsində bir ***fərqliləşmə*** meydana çıxır və bu fərqliləşmə psixoloji baxımdan bir ***gərginlik*** doğurur. İnsanı rahatsız edən həmin gərginlik özünün aradan qaldırılması üçün gərək olan ***ehtiyacı*** ortaya qoyur. Əgər ehtiyac təmin edilməzsə, onda qeyri-tarazlıq ləğv edilə bilməz və insanın rahatsızlığı artar. Ona görə də, ***ehtiyacın təmin edilməsi məqsədə çevrilir və insanı davranışa itələyən motiv olur***.

İnsanın hər hansı bir partiyaya üzv olma davranışı onun öz ehtiyacını təmin etmək məqsədi ilə bağlıdır. Özü kimi eyni məqsədli, yəni baxış birliyinə malik partiya üzvləri ilə birgə olmaq insanın ruhi aləmində bir tarazlıq yaradır. Lakin bəzilərinin partiya daxilində hamı üçün rahatlıq gətirən baxış birliyinə zidd davranışları bu tarazlığı pozur, müəyyən fərqlilik ortaya çıxır. Fərqliliyin yaranmasında insan fəaliyyətinə yön verib onu bu və ya digər davranışa sövq edən ***şüuraltı sahədəki instinktiv istəklərin şiddətlilik dərəcəsi mühüm rol oynayır.***

A.H.Maslounun (Amerika) "Ehtiyaclar iyerarxiyası nəzəriyyəsi"nə görə, "…insan davranışlarına təsiri görülən ehtiyaclar iyerarxik bir düzən içində yer alırlar. Bu, bir önəm və güc sıralanmasıdır. Güclü olan istəklər digərlərindən daha əvvəl ortadan qaldırılma imkanına sahibdirlər… ehtiyaclar arasında ən şiddətlisi fərdin diqqətinə hakim olacaq, bunun əvəzində daha az önəmi olan ehtiyaclar isə kiçiləcək, hətta unudulacaqdır".

A.H.Maslou şiddətlilik dərəcəsinə görə ehtiyaclar iyerarxiyasını 1. fizioloji, 2. təhlükəsizlik, 3. sosial, 4. saygı, 5. özünü gercəkləşdirmə şəklində sıralamış və bu sıranı mütləqləşdirmişdir. Lakin ehtiyaclar iyerarxiyasında sıralanmanın mütləqləşdirilməsi digər araşdırmalarda özünü doğrultmamışdır.

Siyasi partiya üzvü olan insanlarla bağlı bizim irəli sürdüyümüz ***"Dəyişkən ehtiyaclar iyerarxiyası"*** anlayışında ehtiyacların şiddətlilik dərəcəsinə görə sıralanmasının ümumi durumu belədir:

1. *Mənəvi-psixoloji ehtiyaclar* (milli, ideoloji, siyasi, dini... hədəflərin təmin olunması istəyi);

2. *Təhlükəsizlik ehtiyacları* (təhlükə qarşısında tək qalıb əzilməmək, basqaları ilə birləşib daha güclü olmaq və təhlükəyə qarşı birlikdə durmaq, özünü güvəndə hiss etmək... istəyi);

3. *Mənlik ehtiyacları* (sayğı görmək, nüfuz qazanmaq, layiqli bir status sahibi olmaq, hörmət, etibar görmək, təqdir olunmaq, özünü göstərmək, qalib gəlmək, şəxsiyyətə çevrilmək… istəyi);

4. *Sosial ehtiyaclar* (yalnızlıqdan qurtulub bir qrupa üzv olmaq, insanlarla münasibət qurmaq, sevinc və kədərlərini paylaşmaq, başqalarından dəstək almaq, başqaları tərəfindən qəbul edilmək… istəyi);

5. *Maddi ehtiyaclar* (qazanclı bir iş əldə etmək, iqtisadi baxımdan təmin olunmaq… istəyi).

Təbii ki, göstərdiyimiz bu iyerarxik sıralanma mütləq xarakter daşımır və həm insandan-insana, həm partiyadaxili qrupdan-qrupa, həm partiyadan-partiyaya, həm də toplumdan-topluma ehtiyacların şiddətlilik və önəmlilik dərəcəsi dəyişdiyinə görə, həmin sıralanma da dəyişə bilir. Məsələn, bu gün AXCP üzvlərinin böyük bir çoxluğu üçün ***mənəvi-psixoloji ehtiyacların*** *(özəlliklə,* ***məfkurənin****)* önəmlilik dərəcəsi daha yüksəkdir və digər ehtiyacların hamısından öz şiddətliliyinə görə seçilir. Lakin AXCP-də ***maddi ehtiyaclara***, yaxud ***mənlik ehtiyacına*** daha çox önəm verən insanların varlığı da danılmazdır. Bu ikincilər məfkurəni əsas götürənləri fanatik sayaraq qəbul etmir və onlar kimi davranmağı bəyənmir, əksinə, onlardan fərqli, özləri demişkən, daha konstruktiv davranmağa üstünlük verirlər.

Yaxud AXCP üzvlərinin mühüm bir qismi sadəcə öz ***sosial ehtiyaclarını*** ödəməyə özəl diqqət yetirdikləri halda, başqa bir qismi də ***təhlükəsizlik ehtiyaclarını*** gercəkləşdirməyi üstün tuturlar. Təbii ki, şiddətlilik səviyyəsi yüksəlmiş hər ehtiyac özünə uygun davranış ortaya qoyacaq və nəticədə, fərqli davranışlar ortaya çıxacaqdır. Şübhəsiz, davranış fərqi məhz baxış fərqini əks etdirməkdə, bu baxış və davranış fərqi isə partiyadaxili siyasi toqquşmaya yol açmaqdadır.

***Yeri gəlmişkən, partiya daxilində baxış və davranış birliyinin uzun müddət yüzə-yüz eyni ilə qorunması, heç bir fərqliliyin yaranıb siyasi***

***toqquşmaya yol açmaması əksliklərin vəhdəti və mübarizəsi qanuna ziddir. Belə bir durum partiyaya hərəkətlilik gətirən, ona dinamizm verən daxili enerjinin tükənməsi və son nəticədə, partiya sisteminin içəridən çürüyərək məhv olması deməkdir***. Yaşama qabiliyyətinə malik bütün partiyalarda daxili siyasi toqquşma olar ki, bu da partiyanı içəridən dinamikləşdirərək onu topluma yönəlik daha canlı, daha enerjili fəaliyyətə sövq edər və apardığı mübarizədə daha da aktivləşdirər.

Qeyd edək ki, ***partiyadaxili siyasi toqquşma subyektləri içərisində elita və əks-elita kadrları özəl yer tutur***. Əslində, məhz bu kadrlar arasında başlayan toqquşma genişlənib dərinləşdikcə partiyanın tabanasına – sıravi üzvlər içərisinə yayılır və partiyadaxili ***çıxar qrupları*** əmələ gətirir. Partiyanın ümumi baxış birliyi içərisində müəyyən fərqə malik olub bir-biri ilə toqquşan çeçidli baxış birliyi qütblərinin və onları əks etdirən qruplaşmaların yaranması daha çox həmin kadrların adı ilə bağlıdır (Maraqlıdır ki, Vilfredo Pareto və Gitano Moska toplum daxilindəki mübarizəni də elita və əks-elita arasında gedən toqquşma sayır).

İstər partiyalararasi siyasi toqquşma, istərsə də pariya daxilində qruplararası siyasi toqquşma xaraktercə yumşaq və sərt olar. Fiziki zorakılığa dayanmayan yumşaq xarakterli siyasi toqquşma A.T.Kışlalının göstərdiyi kimi, daha çox dörd vasitə ilə aparılır:

**1.** ***pul;***

***2. təşkilat;***

***3. KİV;***

***4. üzvlərin sayı***.

Çoxsaylı üzvlərə malik kütlə partiyasında ***bu yumşaq toqquşma vasitələrinə*** daha çox yiyələnən partiyadaxili qrup digər qruplarla müqayisədə nisbətən güclü olar. Lakin pulu olan, bir qrup kimi partiya daxilində ayrıca daha yaxşı təşkilatlanan və KİV-ə yiyələnən qrup, adətən, üzvlərinin sayını çox da artıra bilməz. Çünki üzvlərinin sayı çox olarsa, o zaman həmin qrup partiyadaxili qrup olmaqdan çıxar və mahiyyətcə, elə partiyanın özünə çevrilər. Daha onun ayrıca təşkilatlanmasına ehtiyac olmaz və partiyanın ümumi baxış birliyindən fərqlənən ayrıca baxış birliyi yarana bilməz. Ona görə də, ***pulu olub ayrıca yaxşı təşkilatlanmış və KİV-ə yiyələnmiş qrup istəsə də, istəməsə də,***

***üzvlərinin sayına görə azlıqda qalmağa məhkumdur***. Özəlliklə, bu qrup çoxsaylı üzvləri olan kütlə partiyası daxilində siyasi iqtidara yiyələnmişsə, o zaman qapalı idarəedici qrupa çevrilmələri və siyasi qatılmanı məhdudlaşdırma xətti yürütmələri ehtimalı daha yüksək olur. Həmin ehtimalın tam gercəkləşməsi halında ***çoxsaylı üzvlərə malik kütlə partiyasi*** kiçilərək ***azsaylı üzvləri olan kadr partiyasına*** çevrilər (daha doğrusu, qapalı idarəedici qrupun bir ovuc kadrından ibarət kiçik bir partiya yaranar).

Çoxsaylı üzvləri olan kütlə partiyası daxilindəki əks qruplaşmaların siyasi toqquşmada ən böyük silahı məhz sayla bağlıdır. ***Pulsuz, ayrıca tam yaxşı təşkilatlanmamış və geniş surətdə KİV-ə yiyələnə bilməmiş (puısuzluqdan) bu əks qruplaşmalar partiya daxilində pozulan tarazlığı daha çox say üstünlüyü səbəbinə bərpa edə bilərlər***. Unutmayaq ki, demokratiyadan danışan bir partiyada həlledici mübarizə yolu seçkidir və hər bir üzvün də səsvermə hüququ vardır. Lakin bunun üçün partiya üzvləri mütləq ***bilgiləndirilməli*** və siyasi toqquşmanın gercək mahiyyəti, toqquşma subyektlərinin pərdəarxası qrup mənafeləri və s. ilə bağlı onlarda aydın, dəqiq, hərtərəfli təsəvvür yaradılmalıdır (buna sosiologiyada ***bilincləndirmə*** «şüurlandirma» deyilir). Əks qruplaşmalar tərəfindən bilgiləndirilmiş və bilincləndirilmiş çoxsaylı partiya üzvləri ayağa qalxıb daha güclü bir ***təşkilatlanmaya*** yiyələnərək, daha dogrusu, bütövlükdə ***partiya təşkilatını hərəkətə gətirərək*** öz sözlərini deyir və bununla da, pozulmuş partiyadaxili tarazlıq təmin edilmiş olur. ***Deməli, KİV-ə yiyələnmiş pullu və təşkilatlı məhdud qrupa qarşı dura bilmənin ən optimal yolu ümumpartiya təşkilatını hərəkətə gətirmək və çoxsaylı partiya üzvlərini aktivləşdirməkdən keçir***. Bu işi görmüş hər hansı bir partiyadaxili qrup partiya ilə bütünləşir və mahiyyətcə, partiyadaxili sosial iqtidara yiyələnir. Sosial iqtidara yiyələnmiş qrupun isə siyasi iqtidara gəlmə şansı daha artıqdır (Eyni fikir xalqla bütünləşmiş partiyaya da aiddir).

Qeyd edək ki, yumşaq toqquşma kəskinləşdikcə qruplararası təbliğat, təşviqat və əks-təbligat məsələlərinə **psixoloji savaşın** şayiə, dedi-qodu, şantaj, böhtan, iftira, təxribat, bölücülük və s. ünsürləri də əlavə olunur. Nəticədə, sərt toqquşma üçün addım-addım şərait hazırlanır.

***Fiziki zorakılığa dayanan sərt xarakterli siyasi toqquşmaya*** əlbəyaxa dalaşmadan tutmuş silahlı vuruşmayadək hər cür savaş vasitələri daxildir. Lakin sərt siyasi toqquşma hər zaman baş verməz və o, daha çox partiyadaxili siyasi toqquşma obyektindən asılı olaraq ortaya çıxar. Araşdırıcılara görə, ***rejimiçi siyasi toqquşma*** ilə ***rejimə yönəlik siyasi toqquşma*** bir-birindən fərqləndirilməlidir.

***Partiya sisteminin sabitliyi və istiqrarlılığı partiyadaxili güclər nisbətinin idarəetmədə necə əks olunmasına bağlıdır***. Unutmayaq ki, partiyadaxili güclər nisbəti dəyişkəndir və bu gün üstün olan bir güc sabah zəifləyə, yaxud əksinə, bu gün zəif görünən sabah güclənə bilər. A.T.Kışlalının yazdığı kimi, siyasi iqtidarın dəyişilməsi və ya ona təsir göstərilməsi güclər nisbətinə uygun olmalıdır. Çünki ən güclünün təmsilçiləri siyasi iqtidarda olursa, həm nüfuz boşluğu yaranmır, həm də rejimin legitimliyi qorunur və buna görə də, sistemdə sabitlik, istiqrar pozulmur.

Təbii ki, bu durumda siyasi toqquşma ortadan qalxmayacaq, sadəcə, ***rejimiçi müstəvidə*** cərəyan edəcəkdir. Rejimiçi siyasi toqquşma partiya həyatının digər uzlaşma məsələləri (hətta bəzən təməl uzlaşmanın məfkurə və lider məsələləri) üzərində özünü göstərir. Bu zaman partiya daxilində çeşidli çıxar qrupları, fraksiyalar yaranar, lakin siyasi toqquşma yumşaq xarakterdən çox da uzaqlaşmaz. Doğrudur, bu yumşaq toqquşma şəraitdən irəli gələrək (özəlliklə, təməl uzlaşma məsələlərinə aiddirsə), zaman-zaman kəskinləşə bilər. Həmin kəskinləşmə ayrı-ayrı şəxslərin, hətta bəzi kiçik qruplaşmaların partiyadan ayrılması ilə sonuclansa belə, o sonuc partiya sisteminin sabitliyinə, istiqrarlılığına, bütövlülüyünə ciddi zərbə sayılmır.

Zaman keçdikcə siyasi iqtidarda olan güc öz nüfuzunu itirir və əks qruplaşmalar güclənərək partiyadaxili ən böyük gücə çevrilirsə, ***bu yeni üstün güc labüdən siyasi iqtidarda təmsil olunmalı, yaxud ona təsir göstərə bilməlidir***. Əgər partiyadaxili siyasi rejim buna müsaiddirsə, o zaman siyasi toqquşmanın rejimiçi müstəvisi dəyişməyəcək və partiya sisteminin istiqrarı qorunacaqdır. Yox, əgər partiyadaxili siyasi rejim buna müsaid deyilsə və siyasi iqtidar – idarəedici qrup qapalı bir idarəetmə sistemi yaradaraq öz qruplaşmasından olmayan bir kimsəni yaxına buraxmamaq üçün ciddi cəhdlə çalışırsa, o zaman ***rejimə yönəlik siyasi toqquşma*** meydana çıxacaqdır. Artıq

təməl uzlaşmanın siyasi rejim məsələsi gündəliyə gəlmiş və partiya rejiminə yönəlik toqquşma başlamışdır. Bu toqquşma yumşaq xarakterdə başlasa da, qısa müddətdə kəskinləşər və çox keçmədən, sərt toqquşmaya çevrilər. Başqa sözlə, rejimiçi toqquşmadan fərqli olaraq, rejimə yönəlik siyasi toqquşmanın sərtləşmə ehtimalı daha böyükdür. Çünki rejimə yönəlik siyasi toqquşmada partiya sisteminin sabitliyi, istiqrarı pozulur və onun bütövlüyü təhlükə altına düşmüş olur.

Siyasi toqquşmanın istər rejimiçi müstəvisində, istərsə də rejimə yönəlik müstəvisində təməl uzlaşma məsələlərinin toqquşma obyektinə çevrilməsi partiya sistemi üçün ciddi nəticələr doğura bilər. Belə ki, məfkurə məsələsinin (və onunla sıx bağlı lider məsələsinin) toqquşma obyekti olması partiyadaxili çıxar qruplaşmalarını daha köklü və daha dərin bir qruplaşmaya – ***fraksiyaçılığa*** yönəldəcəkdir. Həmçinin siyasi rejim məsələsinin toqquşma obyekti olması da labüdən partiya sisteminin sabitliyini pozacaq və fraksiyaçılığı dərinləşdirəcəkdir.

Fraksiyaçılığın yaranması ilə partiya sistemində ***təməl uzlaşma (konsensus***) ortadan qalxır və ***pozuşma (dissensus***) yaranır, pozuşmanın getdikcə dərinləşməsi səbəbinə toqquşan tərəflər bir-birindən daha çox təcrid edilir, bir-birinə yadlaşmağa başlayır və siyasi toqquşma sərtləşir. Nəticədə, siyasi münasibətlərin toqquşma qütbü üstünlük qazanıb önə çıxır. Faktlar göstərir ki, partiya daxilində siyasi toqquşmanın siyasi uzlaşmanı üstələdiyi zaman **partiya sisteminin mövcud şəkildə qorunub yaşadılması** sual altına düşür. AXCP-nin tarixi məhz bu gercəkliyi bariz şəkildə əks etdirməkdədir.

## AXC-də qruplaşma tarixinə ötəri baxış

Bir siyasi uzlaşma modeli kimi, istənilən siyasi sistemin (istər partiya sistemi, istərsə də dövlət sistemi olsun) sabitliyi, istiqrarı və ciddi siyasi böhrana uğramaması təməl uzlaşma məsələlərinin böyük əksəriyyət – ən azı yüzdə 75% tərəfindən qəbul edilməsi, legitim sayılması ilə bağlıdır. Əgər bir sistemdə təməl uzlaşmanın **1. *məfkurə,* 2.** bu məfkurəni əks etdirən **siyasi rejim** və **3.** həmin siyasi rejimi təmsil edən ***lider başda olmaqla avtoritet sahibləri*** kimi mühüm məsələləri legitimliyini itirir və ən azı yüzdə 75% tərəfindən qəbul edilmirsə, o zaman sistemin dinc yolla ayaqda durması çox çətin problemdir.

1980-ci illərin sonlarına doğru Rus Sovet imperiya sistemi pozulmuş, sabitliyini və istiqrarını itirmişdi. Necə deyərlər, artıq idarə olunanlar əvvəlki qaydada idarə olunmaq istəmir, idarə edənlər isə əvvəlki qaydada idarə edə bilmirdilər. Çünki Sovet sisteminin təməl **uzlaşması** (konsensus) ortadan qalxmış və **pozuşma** (dissensus) ilə əvəz edilmişdi. Daha doğrusu:

1. ***sosializm məfkurəsi*** *yıpranmış və xalqın ona olan inancı büsbütün yox olmuşdur;*

*2. bu məfkurəyə* ***uyğun totalitar Sovet siyasi rejimi*** *və onun normaları gözdən düşmüş, nifrət obyektinə çevrilmişdi;*

3. *Sovet siyasi rejimini təmsil edən* ***Sov.İKP-nin avtoritetləri bütün*** *nüfuzlarını itirmiş və bir nüfuz boşluğu yaranmışdı*.

***Bir sözlə, sistemin ümumi böhranı ortaya çıxmış və rejimə yönəlik sərt siyasi toqquşma başlamışdı***. Sistem labüdən dəyişməli idi. Lakin sistemi təmsil edən Sovet rəhbərləri özlərini qorumaq üçün dəyişikliyə gedən dinc yolu zorla bağlamağa çalışır və buna cavab olaraq xalq da öz dirənmə gücünü artırırdı. Nəticədə, siyasi toqquşma həm yuxarıdan, həm də cavab kimi aşağıdan getdikcə sərtləşirdi. Etnik toqquşmalar, o sıradan Qarabağ problemi Sovet sisteminin ümumi böhranını daha da dərinləşdirirdi…

Çox keçmədi ki Qarabağ uğrunda yaranan Azərbaycan xalq hərəkatı daha da genişlənərək Rus Sovet imperiya sisteminə qarşı milli-azadlıq hərəkatına çevrildi və özünün milli təşkilatlanma forması olan Azərbaycan Xalq Cəbhəsinin – AXC-nin rəsmən qeydə alınmasına nail oldu (16 iyun 1989).

O dövrdə milli-azadlıq hərəkatı ***məfkurə*** olaraq yalnız bir anlayışı qəbul edirdi: ***Azadlıq!*** (Baş meydanın “Azadlıq” adlandırılması, hərəkatın qəzetinə “Azadlıq” adı verilməsi, ən geniş yayılmış şüarın “A-zad-lıq!” olması və s. məhz buradan irəli gəlirdi).

Hərəkatçılar “Azadliq” məfkurəsinə (daha doğrusu, milli ideyasına) uyğun siyasi rejim kimi yalnız ***açıq siyasi rejimi – demokratiyanı*** qəbul edir və onu qapalı Sovet siyasi rejiminin ən doğru alternativi sayırdı.

Şübhəsiz, azadlığın demokratik rejimini gercəkləşdirəcək avtoritet sahinləri – ***yeni elita kadrları*** məhz hərəkatdan və onun təşkilatlanma forması olan AXC-dən çıxmalı idi. Ona görə də, təxminən hərəkata qatılmış hər kəs özünü AXC üzvü sayır və xalq da bunların hamısına, hətta kənara çəkilmiş ayrı-ayrı şəxslərə, müstəqil kiçik qruplara belə “cəbhəçi” deyirdi.

Lakin ***siyasi şüur*** inkişaf etdikcə bəlli oldu ki, məsələ heç də göründüyü qədər sadə deyilmiş. ***Sistemlərarası mübarizə bitmiş və demokratik sistem Sovet sisteminə ümumi şəkildə qalib gəlmişdi***. Lakin qarşıda ***hələ sistemdaxili mübarizə*** dururdu və hələ demokratik sistemin özü daxilində bir çox məsələlər siyasi toqquşma obyekti idi.

İlk öncə ***məfkurə məsələsində fərqli baxışlar*** ortaya çıxdı. ***Ümumi “Azadlıq”*** anlayışında birləşmiş insanların bir qismi ***dini azadlığı*** qabartmağa çalışdı, başqa bir qismi azadlıq deyərkən yalnız ***liberal dəyərləri*** əsas götürdü, digərləri ***milli azadlığı*** önə çəkdi, bəziləri ***fəhlə sinfinin kommunist istismarından qurtuluşunu azadlıq*** saydı və s. Başqa sözlə, sistemdaxili siyasi toqquşmaların gedişində ümumi “Azadlıq” anlayışı öz yerini konkret məfkurələrə verdi və üç rəngli, ay-ulduzlu istiqlal bayrağımızın yenidən öz layiqli mövqeyini tutması ilə məfkurələrarası toqquşmanın nəticəsi bilindi: ***hərəkata qatılanların 75%-dən çoxu müsavatçılıgı qəbul etdi və təməl uzlaşmanın məfkurə məsələsi çözüldü.***

Həmçinin ***siyasi rejim məsələsi*** önəm qazandı və bəlli oldu ki, açıq siyasi rejimi bildirən demokratiya anlayışı çoxyönlüdür. Burada ***milli demokratiya, liberal demokratiya*** və ***sosial demokratiya*** yolları bir-birindən fərqlənir (Azərbaycan siyasi həyatında ***dini demokratiya*** xətti çox da gəlişmədi). Siyasi toqquşmaların gedişində ***təməl uzlaşma kimi milli demokratiya*** önə çıxdı və hərəkata qatılanların yüzdə 75%-dən çoxu həm gercək milli dəyərlərə, həm də

ümummәqbul liberal dәyәrlәrә sayğı göstәrәn, milli dәyәrlәrlә liberal dәyәrlәrin harmonik vәhdәtinә söykәnәn ***milli demokratik rejimi*** әsas götürdü.

Nәhayәt, ***tәmәl uzlaşmanın yeni elita mәsәlәsindә*** eniş-yoxuşlu siyasi toqquşmalardan sonra ***milli liderә çevrilmiş Əbülfәz Elçibәy vә onun әtrafında birlәşәn kadrlar*** qәbul edildi.

Belәliklә, sistemlәrarası vә sistemdaxili ardıcıl siyasi toqquşmalar nәticәsindә hәrәkata qatılanların yüzdә 75%-dәn dә çoxu tәmәl uzlaşmaya vararaq müsavatçılıq mәfkurәsini, milli demokratik rejimi vә Ə.Elcibәy başda olmaqla milli demokratik avtoritetlәri qәbul etdi, mәhz bu әsasda yeni bir siyasi uzlaşma modeli kimi AXC sistemini yaratdı vә davam etdirdi. Tәbii ki, AXC sisteminin tәmәl uzlaşma mәsәlәlәrini (hәr üçünü, yaxud bir-ikisini) qәbul etmәyәn vә ümumi baxış birliyinә qarşı öz fәrqli baxışını qoyan ayrı-ayrı şәxslәr, müәyyәn qruplar uduzduqlarını görüb AXC-dәn ayrıldılar. Onların içәrisindә Hacı Əlikram kimi dinçilәri, Nemәt Pәnahov kimi "milli sosialist"lәri, Zәrdüşt Əlizadә kimi sosial demokratları vә s. özәlliklә fәrqlәndirmәk gәrәkir (AXC-yә "kabab iyinә" gәlmişlәrin çıxıb getmәlәrini hesaba almırıq).

Bu şәxslәrin vә әtraflarındakı kiçik qrupların AXC-dәn ayrılmaları ***bölünmә*** yox, yalnız vә yalnız ***qopma*** sayılmalıdır***. Hәr hansı bir tәşkilat sistemindә bölünmә, yaxud qopmanın baş vermәsi tәmәl uzlaşma mәsәlәlәrinә qarşı öz fәrqli baxışını qoyan qruplaşmanın tәşkilatdakı çәkisindәn asılıdır***. Belә ki, әgәr bu çәki tәmәl uzlaşmanın әn azı yüzdә 75%-lik sәviyyәsini aşağı salırsa (yәni fәrqli baxışı olan qruplaşma tәşkilat üzvlәrinin yüzdә 25%-dәn çoxunu özündә birlәşdirirsә), o zaman hәmin qruplaşmanın tәşkilatdan ayrılması bölünmәdir, tәşkilatın parçalanmasıdır.

Yox, әgәr bu çәki tәmәl uzlaşmanın әn azı yüzdә 75%-lik sәviyyәsinә elә bir ciddi tәsir göstәrmirsә (yәni fәrqli baxışı olan qruplaşma tәşkilat üzvlәrinin yüzdә 25%-dәn azını özündә birlәşdirirsә), o zaman hәmin qruplaşmanın tәşkilatdan ayrılması bölünmә yox, qopmadır (Tәbii ki, göstәrdiyimiz rәqәmlәr nisbәtәn tәxminidir. Lakin sistemdә sabitliyin, istiqrarın qorunması ilә bağlı әn azı yüzdә 75%-lik uzlaşma sәviyyәsinin gәrәkliliyinә dair prof. Münci Kapaninin yuxarıdakı fәrziyyәsi bu tәxminiliyin gerçәkliyә daha yaxın olmasını tәsdiqlәyir).

Fikrimizcә, milli-azadliq hәrәkatının tәşkilatlanma forması kimi meydana çıxmış AXC sistemi yalnız 1990 – 91-ci illәrdәn gerçәk bir siyasi tәşkilat olaraq

fəaliyyətə başladı. Çünki o vaxtadək AXC daha cox sistemlərarası mübarizə ilə uğraşan və köhnəyə – Sovet sisteminə qalib gəlmək üçün öz aralarında birləşən fərqli baxışlara malik müxtəlif qüvvələrin qatıldığı mozaik bir sistem idi. 1990 – 1991-ci illərdə isə köhnənin məğlubiyyəti tam şəkildə aydın oldu və siyasi toqquşmaların ağırlıq mərkəzi ***"hansı yeni?"*** sualını aydınlaşdırmaq üçün AXC sisteminə yönəldi, sistemdaxili toqquşmalar başlandı. Məhz bunun nəticəsi idi ki, AXC-də bir tərəfdən ümumi baxış birliyinə söykənən təməl uzlaşma formalaşdı və hakim oldu, digər tərəfdən isə, idarəediciliyə can atan fərqli baxışlara malik çeşidli qruplaşmalar – dinçilər, "milli sosialistlər", sosial-demokratlar və s. AXC-nin tabanası ilə – mərkəzçi "qrup"la bütünləşə bilmədikləri üçün azlıqda qalıb uduzdular, zaman-zaman AXC-dən qopdular.

Dogrudur, hər qopma təşkilat sistemi üçün xeyirli deyil və bəzən elə qopma olur ki, təşkilatı içəridən dinamikləşdirən, onun enerjisini yüksəldib, hərəkətliliyini artıran bir qaynağın quruması ilə nəticələnir. Lakin istənilən təşkilatda təməl uzlaşma məsələlərinin yüzdə 75%-lik səviyyəsi yaranıb tam legitimləşməyibsə, fərqli baxışlar təşkilat sistemini içəridən yıpradıb dağıdar, sabitliyi, istiqrarı yaratmaya imkan verməz və nə zamansa daha ağır bölünmə doğurar. Ona görə də, 1990 – 91-ci illərdəki qopmalar AXC-yə elə bir ciddi zərbə vurmadı, əksinə, onun bir sistem kimi normallaşmasına, sağlamlaşmasına səbəb oldu.

Bu dövrdə olan qopmalardan birinə – Etibar Məmmədov və ətrafındakı qruplaşmanın AXC-dən ayrılmasına özəl diqqət verilməlidir. Çünki həmin qruplaşma dinçilər, "milli sosialistlər", sosdemlər və s. kimi təməl uzlaşma məsələlərinə dair elə bir ciddi fərqli baxış irəli sürməmiş, sadəcə, təməl uzlaşma modeli daxilində idarəediciliyə can atan çıxar qruplarından biri kimi mövcud olmuşdu.

"Oliqarxiyanın dəmir qanunu" səbəbinə istənilən (özəlliklə, böyük) təşkilat sistemində bu cür çıxar qruplarının olması tamamilə təbii və normal bir hadisədir. Eyni bir təməl uzlaşma modeli daxilində siyasi toqquşma məhz bu cür çıxar qrupları arasında baş verər və siyasi sistemin bütövlüyünə heç bir xələl gəlməz.

O dövrdə başlıca toqquşma E.Məmmədov qruplaşması ilə ŞADP (Şimali Azərbaycan Demokrat Partiyası) qrupu arasında idi. ŞADP adı rəsmən elan

olunmasa da, İsa Qəmbərin başçılıq etdiyi bu qruplaşma AXC-nin idarəedici qrupu sayılırdı. Həm ŞADP, həm də E.Məmmədov qruplaşması məfkurə baxımından müsavatçı olub liberal dəyərlərlə milli dərərlərin vəhdətini qəbul edirdi. Lakin bu vəhdətdə ŞADP ağırlığı daha çox liberal dəyərlərə, E.Məmmədov qruplaşması isə daha çox milli dəyərlərə verdiyindən baxış fərqi yaranmış, siyasi toqquşma ortaya çıxmışdı. Bu baxışlar arasındakı fərq məfkurələr arasındakı fərq yox, məfkurədaxili fərq olduğundan onların birgə yaşaması mümkün idi. Lakin ŞADP-də İsa Qəmbər, Pənah Hüseynov, Tofiq Qasımov, Arif Hacıyev, Sabit Bağırov və s. kimi kadrlar cəmləşdiyi halda, E.Məmmədov qruplaşmasında onun özündən başqa elə bir kadr tanınmırdı. Ona görə də, öz zəifliyini görən və idarəedici qrupa tabe olmaq istəməyən E.Məmmədov "Ya mən, ya İsa bəy! Elçibəy birimizi seçsin!" mesajını verdi və mesaji AXC-nin tabanası tərəfindən qəbul olunmayınca təşkilatdan qopub ayrıldı. Təbii ki, bu qopma təməl uzlaşma modelinin içərisindən baş verdiyinə görə, əvvəlki qopmalara bənzəmirdi və AXC sisteminin ən azı yüzdə 75%-lik təməl uzlaşma səviyyəsini aşağı salmasa da, o, fikrimizcə, AXC üçün bir itki idi (E.Məmmədovun sonrakı fəaliyyəti başqa məsələdir).

Bu dövrdə mövcud çıxar qruplarından biri də "Yurd" qruplaşması idi. Müsavatçı, milli demokratik açıq rejim tərəfdarı və Elçibəyçi "Yurd" qruplaşması AXC-nin təməl uzlaşma modelinə qarşı heç bir fərqli baxış irəli sürmür və tam normal bir çıxar qrupu kimi fəaliyyət göstərirdi.

1990 – 91-ci illərdə AXC tabanasının – mərkəzçi "qrup"un sözçüləri kimi oraya çıxmış "Səkkiz işıq" qruplaşmasını da ayrıca fərqləndirməmiz gərəkir. Heç bir çıxar qrupu özəlliyi daşımayan "Səkkiz işiq"çılar AXC I qurultayında yaranan həyəcanlı və böhranlı anlarda fəallaşaraq təşkilatın bütövlüyü, təməl uzlaşma modelinin qorunması uğrunda çalışmış, mövcud siyasi toqquşmanın tam yumşaldılması və tərəflərin bir araya gələrək uzlaşması yönündə müəyyən müsbət işlər görmüşdülər (təbii ki, bu yöndə ən böyük fəaliyyət Əbülfəz Elçibəyin idi).

Yarandığı vaxtdan iqtidara gələnə qədərki dövrədək AXC-nin təşkilatdaxili qruplaşmalarının bir çoxuna ötəri toxunduq. Gözdən kecirdiyimiz durum özünü nə qədər fərqli şəkillərdə göstərsə də, mahiyyətcə bütün kütləvi hərəkatlar və yeni yaranan böyük təşkilatlar üçün ümumi xarakter daşıyır. "Oliqarxiyanın

dəmir qanunu"nu  və siyasi sistemin sabitliyini, istiqrarlılığını təmin edən təməl uzlaşma məsələlərini nəzərə almadan bu ümumi xarakteri qətiyyən anlamaq olmaz.

## AXC-də bölünmə

***İqtidara gələnə qədər AXC-də 1. məfkurə; 2. siyasi rejim; 3. lider və ətrafındakı kadrlarla bağlı təməl uzlaşmanın ən azı 75%-lik səviyyəsi heç vaxt aşağı düşməmiş, əksinə, həmişə qat-qat yuxarı olmuşdur.*** Təməl uzlaşmanın baxış birliyinə qarşı cıxan fərqli baxışlar nə qədər çalxalanmalar, təlatümlər yaratsalar da, qətiyyən AXC sisteminin bütövlüyünü ortadan qaldıra və AXC-də bölünmə yarada bilməmişdir. Yalnız AXC-dən qopmalar baş vermişdir ki, ona da yuxarıda toxunduq.

İqtidara gəldikdən sonra isə, artıq durum dəyişildi və AXC-də bölünmə baş verdi. ***Nisbətən görünməz bir şəkildə ortaya çıxan bu bölünmənin səbəbi iqtidara gəlmə idi.*** Fikrimizi açıqlayaq.

Dövlət, siyasi partiyalar, ictimai-siyasi təşkilatlar, ictimai-siyasi hərəkatlar… bir-birindən nə qədər fəqrlənsələr də, eyni bir ***siyasi qurum*** anlayışına daxildirlər. Siyasi sistemin institutlaşdırılmış hissəsi olub birbaşa hakimiyyət problemi ilə uğraşan siyasi qurumlardan hər biri özlüyündə ayrıca bir sistemdir. İstənilən bu tip sistem özünün varlığı, sabitliyi, istiqrarlılığı, bütövlüyü üçün mütləq təməl uzlaşmanın baxış birliyi üzərində qurulmalı və həmin baxış birliyi sistem üzvlərinin ən azı yüzdə 75%-i tərəfindən dəstəklənməlidir. Əks təqdirdə, sistemin varlığı və sabitliyi təhlükəyə düşəcəkdir.

Sistem daxilində nə qədər siyasi toqquşma getsə də, bu toqquşma təməl uzlaşmanın baxış birliyini sarsıtmamalı və onun ən azı yüzdə 75%-lik səviyyəsini aşağı salmamalıdır. ***Təməl uzlaşmanın 1. məfkurə; 2. bu məfkurəni əks etdirən siyasi rejim; 3. həmin siyasi rejimi təmsil edən lider və ətrafındakı kadrlar kimi mühüm məsələlərinə dair ən azı yüzdə 75%-lik baxış birliyinin yaradılması və qorunması sistemin varlığının, sabitliyinin, bir sözlə, idarə olunanların idarə edənlərə könüllü tabeçiliyinin başlıca qarantıdır.***

İqtidara gələnədək AXC-də nə qədər toqquşmalar olsa da, təməl uzlaşmanın baxış birliyi gərəkli səviyyədə idi. ***İqtidara gəldikdən sonra isə qruplararası siyasi toqquşma AXC sistemindən dövlət sistemi üzərinə köçürüldü, lakin təməl uzlaşmanın baxış birliyinin də gərəkli səviyyədə AXC sistemindən dövlət sistemi üzərinə köcürülməsi qayğısına qətiyyən qalınmadı.*** Unuduldu ki, AXC sisteminə AXC-nin üzvləri daxil olduğu kimi, dövlət sisteminə də dövlətin vətəndaşları daxildir və AXC sisteminin varlığı, sabitliyi üzvlər arasındakı təməl uzlaşmanın ən azı yüzdə 75%-lik baxış birliyinə bağlı olduğu kimi, dövlət sisteminin də varlığı, sabitliyi vətəndaşlar arasındakı təməl uzlaşmanın ən azı yüzdə 75%-lik baxış birliyindən asılıdır.

Siyasi münasibətlərin uzlaşma və toqquşma qütbləri AXC sistemindən çox-çox geniş və daha mürəkkəb dövlət sistemi üzərinə köçürülərkən həddindən artıq kobud səhvlərə yol verildi. O səhvlərdən bəzilərini əöstərək.

***1. Təməl uzlaşmanın məfkurə amili heç bir əsas olmadan inkar edildi və ideologiyasızlaşdırılma strateji yanlışlığı dövlət sisteminin baxış birliyinə ciddi zərbə vurdu***. Düşünülməlidi ki, demokratik cəmiyyət ideologiyasız cəmiyyət deyil, əksinə, çoxideologiyalı cəmiyyətdir. Çoxideologiyalı bir cəmiyyətdə isə bütün ideologiyaların hökmən qəbul etməyə məcbur olduqları bir strateji anlayış var: ***dövlətin varliq səbəbi!*** (Bu anlayışı qəbul etməyənlər qanundankənar sayılar və rəsmən ciddi cəzalandırılar).

***Dövlətin varlıq səbəbi, adətən, dövlətin mövcudluğunu haqlı göstərən bəlli bir anlayış və ya fikir olur***. Dövlət, məhz bu bəlli anlayış və ya fikir ətrafında birləşib bütünləşən əhali ilə ərazinin (ölkənin) mərkəzləşmiş təşkilatıdır (Nurettin Türsan).

"Siyasi mübarizədə legitimlik və ideologiya" əsərimizdə bu məsələdən geniş danışacağımıza görə, hələlik qısaca onu qeyd edək ki, ***strateji müstəvidə dövlətin varlıq səbəbi deyilən anlayış ideoloji müstəvidə milli ideologiya adlanır. Daha doğrusu, dövlətin varlıq səbəbi anlayışının sistemləşdirilməsinə milli ideologiya deyilir***. Yer üzərində bəlli bir milli ideologiyaya söykənməyən heç bir dövlət yoxdur və ola da bilməz! Sadəcə, elə dövlət var ki, öz milli ideologiyasını əhali içərisində çox geniş yaymaqla ***milli uyumluluğu*** – əhalinin birlik və bərabərliyini təmin edir, bununla da dövlət sisteminin sabitliyinə, istiqrarlılığına nail olur (söhbət zor gücünə yox, könüllü

surətdə yaradılan milli uyumluluqdan gedir). Elə dövlət də var ki, milli ideologiyasının əhali içərisində geniş yayılıb dərindən dərk edilməsinə nail olmadığı üçün əhalinin milli uyumluluq səviyyəsi aşağı düşür və dövlət sisteminin sabitliyi, istiqrarı qoruna bilmir (bu zaman sabitlik, istiqrar ya zor gücünə qorunar, ya da dövlət sistemi məğlubiyyətə uğrayıb dəyişdirilər).

Çox təəssüflər ki, ideologiyasizlaşdırılma strateji yanlışlığı səbəbinə 1993-cü ildə Azərbaycanda məhz ikinci durum ortaya çıxdı: ***"Azərbaycançılıq prinsipi üzərində qurulmuş türklük" anlayışının sistemləşdirilməsi olan müsavatçılıq milli ideologiyamızın*** nəinki əhali içərisində geniş yayılıb dərindən dərk edilməsinə və milli uyumluluğun – bu təməl uzlaşmanın yaradılmasına ciddi çalışılmadı, əksinə, bu yöndə elə bir təbliğat aparılmadi və hətta, əks-təbliğata geniş meydan verildi, çeşidli qaynaqlardan gələn fərqli baxışların təməl uzlaşmanı ortadan qaldırmasına göz yumuldu.

İdeologiyasızlaşdırılma strateji yanlışlığı labüdən ***təbliğatdan imtina siyasəti*** doğurdu. Halbuki bütün dünyada təbliğat dövlət siyasətinin dörd əsas vasitələrindən biri sayılmaqdadır (digər vasitələr: diplomatiya, iqtisadiyyat və hərb).

2. İstənilən siyasi rejim bəlli bir məfkurəni əks etdirər. Həmin məfkurəni qəbul edib ona inanan insanlar bu məfkurəyə uyğun siyasi rejimi və onun normalarını da könüllü qəbul edər, inanıb haqlı sayar, tabe olar. Başqa sözlə, ***məfkurə siyasi rejim və onun normalarının tam legitimləşməsində – qanuni və haqlı, doğru sayılmasında həlledici önəmə malikdir***.

Legitimlik anlayışını yalnız ***"qanunilik"*** kimi başa düşən, onun çox mühüm ***"haqlılıq" (dogru sayılma)*** komponentini anlamayan avtoritet sahiblərinin yürütdüyü ***ideologiyasızlaşdırılma strateji yanlışlığı təkcə müsavatşılıq məfkurəsinin geniş yayılıb dərk edilməsini önləmədi, həm də milli domokratik rejimin qəbul edilərək haqlı sayılmasına çox ciddi zərbə vurdu. Nəticədə, əhali içərisində milli demokratik rejim və onun normaları nəinki haqlı sayılmadı, əksinə, anarxiya kimi dəyərləndirildi və qəbul edilmədi*** (yəni yeni siyasi rejim öz legitimliyini təsdiqləyə bilmədi və gözdən düşüb mənfi qiymətləndirildi).

Milli demokratik rejim və onun normaları ***haqlılıq*** qazanmadığına, yaxud öncədən ***qazandığı haqlılığı qoruyub saxlaya və möhkəmləndirə***

***bilmədiyinə*** görə, məfkurə ilə yanaşı, təməl uzlaşmanın digər mühüm amili – ***siyasi rejim*** məsələsi də əhalidə baxış birliyi yaratmağa qabil olmadı.

3.Təməl uzlaşmanın məfkurə və siyasi rejim məsələləri haqsız sayıldığı yerdə ***bu məfkurə və siyasi rejimi təmsil edən avtoritet sahibləri qətiyyən öz nüfüz güclərini qoruyub saxlaya bilməzlər*** (yalnız zorakılıq səbəbinə səlahiyyət güclərini qorumaları mümkündür ki, o da həmişə uğur qazandırmaz).

Milli demokratik iqtidarın avtoritet sahibləri bir tərəfdən öz strateji yanlışlıqları səbəbinə nüfuz güclərini itirdi; digər tərəfdən, zorakılıq səbəbinə səlahiyyət güclərini qorumağı qəbul etmədi; üçüncü tərəfdən isə, öz aralarındakı siyasi toqquşmanı yumşaldıb birləşmək, yaxud bütövləşmək əvəzinə, əksinə, bu toqquşmanı daha da sərtləşdirdilər.

O vaxt hakimiyyətdə ***Müsavat, "Boz qurd", "Yurd"*** və s. kimi qruplar təmsil olunmuşdu. Dövlət sistemindəki idarəedicilik uğrunda mübarizə məhz bu qruplaşmalar arasında gedirdi və razılaşılmış açıq "oyun qaydaları" rəsmən mövcud olmadığına görə, necə deyərlər, örtülü bazar dostluğu pozurdu. ***Özəlliklə, hərbi iqtidara sahiblənmiş Rəhim Qazıyevin hərbi gücün köməyi ilə siyasi iqtidara yiyələnməyə çalışması durumu daha da pisləşdirir və toqquşmanın sərtliyini artırırdı***.

R.Qazıyevin hərbi qruplaşması, Müsavat, "Boz qurd", "Yurd" və s. üçün artıq AXC sistemi və onun təməl uzlaşma məsələləri ikinci plana keçmişdi. Artıq bu təməl uzlaşma məsələləri üzərində qurulan vahid AXC sistemi mövcud deyildi, əksinə, ***yeni təməl uzlaşma modelləri kimi müstəqil partiya sistemləri – Müsavat, "Boz qurd" və s. yaranmış, mahiyyətcə AXC-nin bölünməsi baş vermişdi!*** Sadəcə, bu yeni təməl uzlaşma modelləri – müstəqil partiya sistemləri AXC-dən sakitcə, hay-küysüz ayrıldıqları üçün AXC-nin bölünməsi faktı çox da qabarıq nəzərə çarpmırdı…

Beləliklə, iqtidara gəldikdən sonra nə AXC sistemində təməl uzlaşmanın ən azı yüzdə 75%-lik baxış birliyi səviyyəsi qorundu, nə də bu səviyyənin dövlət sistemində formalaşdırılması qayğısına qalındı. Həm AXC sistemində təməl uzlaşmanın pozulması, həm də dövlət sistemində təməl uzlaşma məsələlərinə barmaqarası baxılması çox böyük bir boşluq doğurdu və məğlub olub səhnə arxasına itələnmiş Sovet sisteminin başqa bir adla yenidən siyasi səhnəyə qatılmasına, demokratik sistemdən çox ciddi qisas almasına şərait yaratdı.

Müsavatçılıq məfkurəsini və milli demokratik rejimi təmsil edən avtoritet sahibləri (istər iqtidardakı bölünmüş AXC elitası, istərsə də müxalifətdəki AMİP və s. kimi partiyaların əks-elitası) ***məğlub olmuş köhnə Sovet sisteminin intiqam ala biləcəyini unutdu***. Nə elita, nə də əks-elita düşünmədi ki, təkcə Sovet iqtidarı milli demokratik iqtidarla əvəz edilməyib, həm də Sovet rejimi milli demokratik rejimlə əvəz olunub. ***Bu sistem dəyişikliyini qorumaq təkcə milli demokratik iqtidarın yox, həm də milli demokratik müxalifətin müqəddəs borcudur***! Yeni rejimin oturuşub sabitləşməsi, istiqrarlılıq qazanıb tam bərqərar olması üçün həm zaman, həm də iqtidarlı-müxalifətli bütün milli demokratik qüvvələrin sistemli geniş fəaliyyəti gərəkirdi. Ancaq nə bu sistemli fəaliyyət oldu, nə də bu zaman tanındı. Əksinə, iqtidar uğrunda siyasi toqquşma o qədər sərtləşdi ki, milli demokratik rejimin gözdən düşməsi və əhalinin Sovet rejimini, özəlliklə onun ***"güclü əl"*** normasını arzulaması faktlarına heç kim diqqət yetirmədi. ***Bir sözlə, yenicə qurulmağa başlamış demokratik rejim iqtidar uğrundakı sərt siyasi toqquşmanın qurbanı oldu*** (təbii ki, düşmənlərin fəaliyyətləri də unudulmamalıdır) və Azərbaycan, Tanrı bilir, nə qədər geri düşdü.

## AXCP-də "Yurd" fraksiyası

İlk öncə daha çox tələbə birliyi kimi yaranan "Yurd" qrupu 1990 – 1991-ci illərdə bir fraksiya kimi yox, AXC-nin təşkilatdaxili çıxar qruplarından biri kimi fəaliyyət göstərmiş və ümumtəşkilat mənafeyini qrup mənafeyindən üstün tutmuşdur.

1992 – 1993-cü illərdə isə sıraları bəzi yeni şəxslər hesabına genişlənən "Yurd"da yavaş-yavaş qrup mənafeyi güclənməyə və iqtidara can atma istəyi qabarmağa başlamışdı. Lakin o dövrdə bu qrup mənafeyinin tam təmini üçün nə dövlət sistemində, nə də AXC sistemində əlverişli imkan yox idi və "Yurd" qruplaşmasının özü də idarəediciliyi tam götürmək üçün gərəkən səviyyədə formalaşmamışdı.

4 iyun qiyamından sonra isə çox çəkmədi ki, "Yurd" üçün əlverişli şərait yarandı… Artıq xeyli zəifləmiş AXC-yə qarşı total hücumun ardı-arası kəsilmirdi. Yalnız sərt, radikal siyasi xətt yürütməklə AXC bu total hücuma duruş

gətirə bilməzdi, mütləq həm də yumşaq, liberal siyasi xətt gərəkirdi. ***Ona görə də, AXC-nin əsasən radikal siyasi xətli mərkəzi bürokratik aparatı – İcraiyyə Komitəsi könüllü istefa verdi***. Millət vəkili İbrahim İbrahimli başda olmaqla yeni İcraiyyə Komitəsi təşkil olundu və onun tərkibinə bir neçə "Yurd"çu da daxil edildi.

Yeni İcraiyyə Komitəsində millət vəkilləri İbrahim İbrahimli və Mirmahmud Fəttayevin daha çox radikal, "Yurd"çu kadrların isə daha çox liberal siyasi xətt yürütmələri o dövrdə tam doğru bir gediş idi. ***İqtidarı itirmənin şoku altında yaşayan AXC-nin müdafiə olunaraq qoruna bilməsində bu radikal və liberal gedişlərin qoşa addımlaması mühüm rol oynadı***.

Həmin dövrdə artıq Müsavat, "Boz Qurd" və s. kimi qruplaşmalar AXC-dən getmişdi və təşkilatda "Yurd"dan başqa heç bir gerçək qruplaşma qalmamışdı. Təşkilatdaxili tarazlığı təmin etmək üçün ən azı başqa bir qruplaşmanın yaradılmasına ehtiyac duyulurdu və bu işi görməyə İ.İbrahimli ilə M.Fəttayevin imkanları vardı. Lakin onlar qruplaşma yaratmaq istəmədilər. M.Fəttayev hərdən etiraz edib öz fikrini bildirsə də, İ.İbrahimli "Yurd" qruplaşması qarşısında addım-addım gerilədi, "Yurd" öz qarşısında elə bir ciddi müqavimət görmədi və istər obyektiv, istərsə da subyektiv səbəblər ucbatından ortaya çıxan bu durum "Yurd"un təşkilatdaxili hakimiyyətə tam yiyələnməsi üçün şərait yaratdı.

"***Yurd" qruplaşması liberal siyasi xətt yürütməyə alışdiqca yavaş-yavaş məfkurə məsələsində də liberalizmə meyilləndi və AXC-yə liberal demokratiyanı qəbul etdirmək fikrinə düşdü*** (Xatırladaq ki, 1994-cü ilə qədərki "Yurd"da bu meyl yox idi və digər cəbhəçilər kimi, onlar da məhz milli demokratiyanı – müsavatçılıq məfkurasini üstün tuturdular).

1995-ci il qurultayında idarəedici "Yurd" qruplaşması bir tərəfdən AXC-ni partiyaya çevirməyə və partiyanın mərkəzi bürokratik aparatını tam nəzarətə götürməyə, digər tərəfdən isə, partiya sistemində təməl uzlaşmanın məfkurə məsələsi kimi liberalizmi qabartmağa bütün gücünü qoydu. Doğrudur, artıq şərait yetişmiş və həm obyektiv, həm də subyektiv səbəblərə görə AXC-nin partiyaya – AXCP-yə çevrilməsi vaxtı çatmışdı. Lakin "Yurd" qruplaşmasının AXC-ni AXCP-yə çevirmə cəhdi ilə yanaşı, müsavatşılığı da liberalizmlə əvəz etmək istəyində bulunması cəbhəçilərdə etiraz doğururdu. Əslində, "Yurd"

qruplaşmasının ideologiya ilə məşğul olacaq elə bir kadrı da yox idi. Buna görə də, başqa bir kadrdan – nisbətən sadəlövh və xülyaçı liberal Hüseynbala Salimovdan müvəqqəti istifadə edildi: onun əli ilə mahiyyətcə müsavatçılığa qarşı olan liberal bir sənəd hazırlandı və həmin sənəd təşkilatın yeni proqramı kimi təqdim edildi.

Lakin "Yurd" üçün mərkəzi bürokratik aparatı götürmək məfkurə məsələsindən daha önəmli idi. Cəbhəçilər üçünsə, müsavatçılığın qorunub saxlanması daha böyük əhəmiyyət daşıyırdı. Ona görə də, Ə.Elçibəyin Kələkidən qurultaya müraciətində irəli sürülmüş "AXC – AXCP-yə çevrilməli, müsavatçılıq isə bir məfkurə kimi tam qorunmalıdır!" fikri dərhal uzlaşma yaratdı: cəbhəçilərin bir qismi "Yurd"çularla birgə AXC-nin AXCP-yə çevrilməsinə səs verdi, "Yurd"çular da cəbhəçilərlə bərabər müsavatçılığı dəstəklədi. ***Lakin artıq məfkurə məsələsində baxış birliyi haçalanmış və idarəedici qrupda təməl uzlaşmaya yönəlik fərqli baxışın ilkin cücərtiləri ortaya çıxmışdı.*** Rəsmən bu fərqli baxışdan – liberal proqramdan (bir az sonra isə onu hazırlayan H.Səlimovdan) imtina edilsə də, əməldə "Yurd" qruplaşmasının yuxarı elitası artıq özünü millətçi saymır və daha çox liberalizmə üstünlük verirdi (Sonradan onların Bütöv Azərbaycan ideyasına və BAB-a mənfi yanaşmalarının bir kökü də məhz buradandır).

Çox keçmədi ki, təməl uzlaşmanın digər bir məsələsində – ***partiyadaxili siyasi rejim amilində*** də idarəedici "Yurd" qruplaşmasının ***fərqli baxışı*** tam formalaşdı. O vaxtadək Xalq Cəbhəsinin mərkəzi bürokratik aparatı qətiyyən hər hansı bir daxili qruplaşmanın təkəlində (monopoliyasında) olmamış və təşkilatın siyasi rejimi həmişə **açıq** xarakter daşımışdı (Birillik iqtidar dövründə siyasi toqquşmanın başlıca ağırlıq mərkəzi dövlət sistemi üzərinə köçürüldüyü üçün AXC sistemi daxilində idarəedicilik uğrunda toqquşacaq qruplaşmalar yox idi. İcraiyyə Komitəsinin istefa verməsi də məhz açıq siyasi rejimdən irəli gələn normal bir hadisə sayılmalıdır).

1995-ci il qurultayından sonra AXCP-nin mərkəzi bürokratik aparatı Rəyasət Heyəti oldu və Rəyasət Heyətində "Yurd" qruplaşmasının tam təkəli (monopoliyası) yarandı. ***M.Fəttayevi çıxmaqla, AXCP rəhbərliyində "Yurd" təkəlinin yaranması partiyadaxili tarazlığı tam pozdu və siyasi rejimin***

***yavaş-yavaş açıq sistemdən qapalı sistemə keçməsinə təkan verdi***. Nə üçün belə oldu?

Kələkidə oturan Ə.Elçibəyin tarazlıq yaratma imkanlarının azalmasını və s. obyektiv, yaxud subyektiv səbəbləri unutmayaq. Lakin məsələnin kökü, şübhəsiz ki, ilk sırada "Yurd" qruplaşmasının mahiyyəti ilə bağlıdır.

Hər çey 1993-cü ildə "Yurd" qruplaşmasının güclü maliyyə qaynağının ortaya çıxması – ***qrant şəklində pul əldə etməsi ilə*** başladı (Bax: National Endowment for Democracy. 1993. Annual Report. səh. 57) . ADİF adlı yan qurum yaradaraq bir sıra xarici fondlardan qrant şəklində pula alan "Yurd" qruplaşması (başqa maliyyə qaynaqlarının olub-olmamasına toxunmuruq) öz qrup mənafeyinin təmini üçün fəaliyyətini gücləndirdi. Pul əldə etdikdən sonra zorakılığa dayanmayan yumşaq siyasi toqquşmanın digər vasitəsinə – ***təşkilat amilinə*** özəl diqqət yetirən "Yurd" qruplaşması 1994 – 1995-ci illərdə ayrıca təşkilatlanma məsələsini uğurla həyata keçirdi və gizli bazarlıq yaparaq AXC-nin bir sıra üzvlərini, eləcə də, bəzi bitərəf şəxsləri "Yurd"a cəlb etdi.

Artıq 1995-ci ildə bir tərəfdən "Yurd" qruplaşmasının ayrıca gizli təşkilatlandırılması, digər tərəfdən isə, "Yurd" üzvü olmayan cəbhəçilərin AXC(+P) rəhbər orqanlarından uzaqlaşdırılması güclənmişdi. Yaxşı yadımızdadır: 1995-ci ildə Ə.Kərimov AXC sədr aparatının 56 əməkdaşını toplayaraq bildirdi ki, artıq AXC heç kimə maaş vermək gücündə deyil və ona görə də, həm aparatda ixtisar aparılır – cəmi 21 əməkdaş işdə saxlanılır, həm də bu 21 nəfər öz başlarına çarə qılsın – gedib başqa yerdə işləyərək maaş alsınlar.

Məhz həmin toplantıdan sonra AXC sədr aparatı faktiki ləğv edildi və "Yurd" üzvü olmayan cəbhəçilərin əksəriyyəti AXC mərkəzindən uzaqlaşdırıldı, yaxud uzaqlaşmağa məcbur oldu. "Yurd"un bir sıra aparıcı üzvləri isə çeşidli adlarla "Yurd"dan maaş alaraq AXC qərargahının (daha doğrusu, "Azadliq" qəzeti binasının) daimi "sakinləri"nə çevrildilər. Şübhəsiz, bu gediş "Yurd"un təşkilatlanması yolunda düşünülmüş addımlardan biri idi.

Pul və təşkilatlanma məsələləri ilə yanaşı, "Yurd"çular ***KİV məsələsinə*** də özəl diqqət yetirdilər və "Azadlıq" qəzetini ələ keçirtməklə kifayətlənməyib başqa neçə-neçə qəzet çıxarmağa, yaxud qəzetlərə pul yardımı təşkil edərək

onları özlərinə işlətməyə başladılar (“Azadlıq” başda olmaqla bu qəzetlər “Yurd” üzvü olmayan cəbhəçilərin üzünə bağlandı).

***Beləliklə, “Yurd”çular zorakılığa dayanmayan yumşaq siyasi toqquşmanın dörd vasitəsindən üçünə – pul, təşkilat və KİV amillərinə yiyələnərək özlərində yenilməz bir güc duydular*** (Təbii ki, dördüncü vasitəyə – say amilinə gizli bazarlıq yapmaqla yetmək olmazdı). Nəticədə, “Yurd” qruplaşmasının mahiyyəti dəyişildi: ***AXCP sisteminin təməl uzlaşma məsələlərinə sadiq olan çıxar qrupundan özünün ayrıca təməl uzlaşma modelinə malik müstəqil təşkilat sisteminə çevrildi və AXCP daxilində fraksiya yaratdı***.

Bu fraksiya rəsmən elan edilmədiyinə, gizli olduguna və daha çox bağlı qapılar arxasında örtülü bazarlıq yapmağa üstünlük verdiyinə görə, müəyyən müddət AXC(+P)nin tabanası – mərkəzçi “qrup”u tərəfindən çox da ciddi şəkildə fərq edilmədi. Çünki daha çox bütövlük mövqeyindən məsələlərə yanaşan mərkəzçi “qrup” üçün bu cəbhəçi ilə o cəbhəçinin heç bir fərqi yox idi.

Məsələlərə aydınlıq gətirilməsi – mərkəzçi “qrup”un bilgiləndirilməsi və bilincləndirilməsi üçün idarəediciliyə can atan qrup(lar) – ***müxalifət*** gərəkirdi. ***Lakin “Yurd” qruplaşması özünün qapalı idarəedici xislətinə uyğun olaraq müxalifətə qarşı tam dözümsüzlük nümayiş etdirir və sahibləndiyi mərkəzi bürokratik aparatı cəza aparatına döndərərək hər vasitə ilə müxalifəti susdurmağa, əzib sıradan çıxarmağa çalışırdı.*** Ayrı-ayrı faktları bir kənara qoyub elə yalnız “On altılar qiyamı” məsələsini xatırlatmağımız yetərlidir ki, “Yurd” qruplaşmasının gerçək mahiyyətini anlaya bilək.

“Yurd”un AXCP-də yaratdığı qapalı idarəetmə sisteminə və onun qeyri-sağlam rəqabət üsullarına qarşı çıxan on altı cəbhəçi kadr dərhal “Yurd”çu KİV-də “qiyamçı”, “xain”, “bölücü”… kimi qiymətləndirildi, əleyhlərinə gözdənsalıcı geniş təbliğat kompaniyası aparıldı (Şübhəsiz ki, Ə.Elçibəyin maneçiliyi olmasaydı, bu on altı yetkin kadr AXCP-dən xaric ediləcəkdi).

Müqayisə üçün xatırladaq ki, klan iqtidarı da eyni işi görür və Azərbaycan müxalifətini xalqa yalnız “qiyamçı”, “xain”, “bölücü”… kimi təqdim etməklə cəzalandırıb sıradan çıxarmağa çalışırdı. Müxalifətə bu cür yanaşmanın uyğunluğu təsadüfi deyil. Belə ki, ***Devit Spitzin (Amerika) göstərdiyi kimi,***

***bütün anti-demoktarik sistemlərdə iqtidar üçün müxalifət qiyamçıdır, sui-qəsdçidir, bölücüdür, xaindir… və cəzalandırıb susdurulmalıdır!***

Bu yanaşma anti-demokratik qapalı idarəetmə sisteminin mahiyyətindən irəli gələn bir özəllikdir. Adətən, bütün qapalı idarəedici qruplar yalnız özlərini yetkin, yaxşı, dogru, haqlı.., qalan hər kəsi isə səviyyəsiz, pis, yanlış, haqsız… sayar. Öz fəaliyyətini ***gizli bazarlıq üsulu*** üzərində qurmuş “Yurd” qruplaşması da məhz bu cür hərəkət edir və ***şəxsi sədaqət prinsipini*** üstün tutaraq “Yurd” üzvü olmayan cəbhəçilərin ***siyasi qatılma haqqını hər vasitə ilə məhdudlaşdırmağa*** çalışırdı. ***Artıq 1995-ci ildən sonra “Hər kəsə qabiliyyətinə görə!” prinsipi ortadan qaldırılmış və “Yalnız “Yurd”a (əslində: Ə.Kərimova) şəxsi sədaqətə görə” prinsipi cəbhəçilərin qiymətləndirilməsində başlıca meyar olmuşdu***. Bu meyarın tələbinə görə, yalnız “Yurd”a üzv olub Ə.Kərimova şəxsi sədaqət nümayiş etdirən AXCP üzvləri partiya həyatı ilə bağlı tam bilgi – informasiya ala və siyasi qərarların verilməsinə birbaşa qatıla, yaxud ona təsir göstərə bilərlər. Qalan cəbhəçilər isə siyasi səhnənin passiv tamaşaçısı olmaqdan və “Yurd”çuların qərarlarına boyun əyməkdən başqa heç bir iş görə bilməzlər. Əgər “nizam-intizamı” pozub “Yurd” mətbəxindən icazəsiz bir iş görsələr, onların işi pislənər və iş görənlər də cəzalandırılar. Məsələn, rayon konfransının qərarı ləğv edilər, təşkilat şöbəsinin işini çox mükəmməl bilən Bəybala Əbilov kimi kadrın sərəncamı uzun müddət süründürülər, Azər Quliyev kimi kadr heç bir əsas olmadan AXCP-dən çıxarılar, Fazil Qəzənfəroglu kimi savadlı və yetkin bir kadra qərəzlə xəbərdarlıq edilər və s. və i.a.

İdarəedici “Yurd” qruplaşması ilə mərkəzçi “qrup” arasında təməl uzlaşmanın ***məfkurə*** və ***siyasi rejim*** məsələlərinə dair fərqli baxışların yaranması və getdikcə dərinləşməsi gec-tez təməl uzlaşmanın digər mühüm amili – ***lider*** məsələsi ilə də bağlı baxış fərqinin doğacağından xəbər verirdi. Gerçəkdən də, çox çəkmədi ki, 1993-cü ildən bəri addım-addım məhdud “Yurd” qruplaşmasının təkəlinə keçən “Azadlıq” qəzetində Ə.Elçibəy əleyhinə açıq, yaxud qondarma imzalarla ardıcıl yazılar görünməyə başladı. Bu da təbii idi. Çünki təməl uzlaşmanın məfkurə və siyasi rejim məsələlərinə AXCP-dən fərqli baxış – fərqli davranış ortaya qoyan “Yurd” qruplaşması təməl uzlaşmanın lider məsələsində də öz mövqeyini müəyyənləşdirməli, bununla da ***özünün ayrıca***

***bir siyasi uzlaşma modeli olmasını*** başa çatdırmalı idi. Ə.Kərimovun bir kadr kimi yox, bir lider kimi təqdim olunması və Ə.Elçibəyin bir lider kimi inkar edilməsi cəhdləri məhz buradan doğdu. Həmçinin AXCP sədrinin dəyişdirilməsi söz-söhbətinin dövriyyəyə buraxılması da qətiyyən təsadüfi bir iş deyildi.

Şübhəsiz, AXCP tabanasının – mərkəzçi “qrup”un illər uzunu alışdığı və könüldən bağlı olduğu 1. müsavatçı, 2. açıq siyasi rejimli, 3. Ə.Elçibəyçi təməl uzlaşma modeli çox da asanlıqla dəyişdirilə bilməz. Əgər hər hansı bir qrup bu işi görməyə qalxarsa, labüdən özünə qarşı alternativlər doğurar və tabana ilə bütövləşib onu bilgiləndirən, bilincləndirən həmin əks qruplar təməl uzlaşma modelinin qorunmasını təmin edərlər. AXCP-nin yaxın tarixi buna açıq sübutdur.

Dogrudur, idarəedici qapalı “Yurd” qrupuna qarşı cıxan müxalif qruplar ilk dövrlərdə – 1996 – 1998-ci illərdə yumşaq toqquşmanın ***pul, təşkilat*** və ***KİV vasitələrinə*** “Yurd” qədər yiyələnə bilmədiyi üçün, özəlliklə də, ***say vasitəsinə*** gərəyincə diqqət yetirib AXCP tabanasını yetərli səviyyədə bilgiləndirmədiyinə bə bilincləndirmədiyinə görə, nisbətən zəif idilər. 1999-cu ildən bəri isə AXCP tabanası məsələlərin mahiyyətinə varmaqda və qapalı “Yurd” fraksiyasına qarşı duran müxalif qruplar addım-addım güclənməkdədir.

Təbii ki, bu nöqtədə “Yurd”un özü daxilindəki baxış və davranış fərqliliyinə ayrıca toxunulmalıdır.

## “Yurd”içi qruplaşmalar:
## klassik “Yurd”çular və yeni “Yurd”çular

Bir daha təkrarlayırıq: AXCP-nin “Yurd” fraksiyası artıq əvvəlki çıxar qruplarından biri deyil, əksinə, AXCP-dən fərqli özünəməxsus təməl uzlaşma modelinə malik ayrıca bir təşkilat sistemidir. Hələlik bu təşkilat sistemi AXCP-dən ayrılmadığı üçün özünü müstəqil partiya adlandırmır, sadəcə, AXCP-nin elan edilməmiş fraksiyası kimi fəaliyyət göstərir. Lakin unutmayaq: ***daxil olduğu partiyadan fərqlənən öz təməl uzlaşma modelinə malik bir fraksiyanın müstəqil partiyaya çevrilməsinə bircə addım qalıb və partiya ilə həmin fraksiya arasında təməl uzlaşma məsələlərinə dair sözdə yox,***

***əməldə baxış və davranış birliyi yaranmasa, gec-tez bu addım atılacaq – fraksiya müstəqil partiyaya çevriləcəkdir.***

Təbii ki, "Yurd" fraksiyasının heç də bütün üzvləri AXCP-dən ayrılmaq sonluğu ilə razılaşa bilməz. Məhz ona görə də, "Oliqarxiyanın dəmir qanunu" səbəbinə ***"Yurd" fraksiyasının öz daxilində də artıq qruplaşmalar yaranmış və siyasi toqquşma başlamışdır.*** Hələlik bu qruplaşmalardan ikisini ayrıca fərqləndirir və onları şərti olaraq belə qavramlaşdırırıq: ***1. klassik "Yurd"çular və 2. yeni "Yurd"çular.***

Təbii ki, klassiklərin içərisində sonradan "Yurd"a girmiş şəxslər olduğu kimi, yenilərin içərisində də əvvəldən "Yurd"çu olmuş şəxslər var. Lakin ***bizim qavramlaşdırmamızda kimin "Yurd"a nə vaxt daxil olması yox, AXCP-nin təməl uzlaşma məsələlərinə münasibət əsas götürülmüşdür.*** Bu baxımdan, klassik "Yurd"çularla yeni "Yurd"çular arasında çox ciddi baxış fərqi var.

**Klassik "Yurd"çuların** təməl uzlaşma məsələlərinə baxışı AXCP-nin ümumi baxışından qətiyyən fərqlənmir. Fazil Qəzənfəroglu, Əli Mustafayev, Namiq Həsənov və s. kimi kadrlardan ibarət bu "Yurd"çular üçün "Hədəf bəlli, təşkilat bəlli, lider bəlli"dir. Deməli, klassik "Yurd"çular AXCP-nin təməl uzlaşma məsələlərinə münasibətdə elə bir fərqlilik nümayiş etdirmirlər və onlar üçün nə liberalizm, nə AXCP-dən üstün tutulan "Yurd" və onun qapalı siyasi rejimi, nə də Ə.Elçibəy liderliyinə qarşı alternativ qoyulmasına cəhd göstərilən Ə.Kərimov liderliyi aparıcı deyil.

"Yurd"un 1993-cü ilə qədərki çıxar qrupu mahiyyətini qoruyan klassik "Yurd"çular öz qrup mənafelərini AXCP-nin ümumi mənafeyindən ayrı götürmür, sadəcə, partiya daxilində iqtidara can atırlar ki, bu da tam normal bir məsələdir. Unutmayaq ki, partiya mənafeyini əsas götürən bir çıxar qrupu sistem yaradaraq digər çıxar qruplarını əzməyə, susdurmağa calışmaz, əksinə, onlara dözümlülüklə yanaşar, partiyadaxili iqtidarı paylaşmaqla daha böyük bir tabanaya yiyələnməyə və tarazlığın qorunmasına üstünlük verər, eləcə də, partiyada öz təkəlini yaratmağa cidii meyl göstərməz. Hazırda klassik "Yurd"çularda məhz bu özəlliklər mövcuddur.

**Yeni "Yurd"çuların** təməl uzlaşma məsələlərinə baxışı isə, AXCP-nin ümumi baxışından köklü surətdə fərqlənir. Nə qədər ört-basdır edilməsinə və gizlədilməsinə çalışılsa da, yeni "Yurd"çularda AXCP-nin təməl uzlaşma

məsələlərinə baxış tamam ayrı cürdür. Məfkurə, siyasi rejim və lider məsələlərində AXCP-nin ümumi baxışına qarşı fərqli baxışı hazırda məhz bu qrup dəstəkləyir və 1993-cü ildən sonrakı "Yurd"un öz qrup mənafeyini AXCP mənafeyindən üstün tutma siyasətini məhz bunlar yürüdür.

Əli Kərimov, Asim Mollazadə, Fuad Mustafayev və s. kimi kadrlardan ibarət bu yeni "Yurd"çular artıq AXCP-nin təməl uzlaşma modelinə söykənən bir çıxar qrupu yox, özlərinin ayrıca təməl uzlaşma modelinə malik bir fraksiyadır. Bu fraksiya üçün:

1. məfkurə müsavatçılıq yox, praqmatizm adı ilə pərdələnmiş liberalizmdir. Ona görə də, artıq qeyd etdiyimiz kimi, bunlar özlərini millətçi saymır, Bütöv Azərbaycan ideyasına və BAB-a çox da müsbət yanaşmırlar (ən azı, BAB yaranarkən, "Azadlıq"da gedən yazıları xatırlayaq);

2. sözdə demokratik rejim məqbuldur, lakin **əməldə açıq yox, qapalı siyasi rejim yaratmaqla** özlərinin anti-demokratik mahiyyətli gerçək düşüncələrini ortaya qoyurlar;

3. ***sözdə Ə.Elçibəy liderdir. Lakin əməldə lider Ə.Elçibəy yox, Ə.Kərimov sayılır*** ("Azadlıq" qəzetində Ə.Elçibəyə və Ə.Kərimova münasibəti xatırlayaq: Ə.Kərimov qətiyyən tənqid edilməz, yalnız təriflənər və həmişə də şəkli qəzetin birinci səhifəsində lap yuxarıdan verilərdi. Ə.Elçibəy isə daha çox tənqid edilər və şəkli ya verilməz, ya da Ə.Kərimovdan altda, yaxud sonrakı səhifələrdə verilərdi).

Beləliklə, ***artıq günümüzdə vahid bir "Yurd" qruplaşmasından danışmaq özünü dogrulda bilməz. Artıq bir-birindən köklü surətdə fərqlənən iki "Yurd" var: klassik "Yurd" və yeni "Yurd".***

Klassik "Yurd" öz cəbhəçi ənənəsinə sadiq qaldığı və dünən olduğu kimi, bu gün də çıxar qrupu özəlliyi daşıdığı halda, yeni "Yurd" bu ənənədən ayrılıb başqalaşmış, öz qrup mənafeyini partiya mənafeyindən üstün tutan, qapalı idarəetmə sistemi yaradaraq partiyadaxili çıxar qruplarını əzməyə, susdurmağa çalışan, partiyanın geniş tabanasına yox, öz məhdud qrup üzvlərinə söykənən və AXCP-də anti-demokrarik düşüncənin tarazlığı pozan təkəlçi avtoritarlığını tətbiq edən bir fraksiyaya çevrilmişdir. Hazırda AXCP-nin idarəedicilik sükanını əlində bulunduran bu qapalı fraksiya öz imkanlarından yararlanaraq klassik "Yurd"çular, bütövlükdə, cəbhəçilər əleyhinə geniş təbliğat müharibəsi

aparmaqdadır. Bu təbliğat müharibəsində sağlam və qeyri-sağlam bütün üsullardan istifadə edilir ki, onlardan birinə – təbliğatın linqvistik üsuluna ayrıca diqqət yetirək.

## Yeni "Yurd"çularda təbliğatın linqvistik üsulu

"Siyasi təbliğatın əsasları" əsərimizdə göstərdiyimiz kimi, linqvistik üsul fərqli anlayışlar yaradılması məqsədilə adların dəyişdirilməsinə, yaxud yeni ad qoyulmasına əsaslanan bir təbliğat üsuludur. Bu üsul dil faktlarına söykənməklə manipulyasiya etmək üçün böyük imkanlar yaradır.

Yeni "Yurd"çular əllərindəki KİV-dən geniş istifadə edərək klassik "Yurd"çuları və bütövlükdə, cəbhəçiləri ***"mühafizəkar", "qaragüruh", "fanatik",*** özlərini isə ***"praqmatist", "islahatçı"*** adlandırırlar. Dil faktlarına əsaslanmaqla bu cür manipulyasiya etmənin gerçək mahiyyəti gözdən qaçırılmamalıdır.

***Əvvəla,*** unutmayaq ki, Azərbaycan toplumu üçün "mühafizəkar, qaragüruh, fanatik AXCP" və "praqmatist, islahatçı AXCP" adlı iki ayrı-ayrı partiya yox, AXCP adı ilə tanınan vahid bir partiya var. İstənilən partiya topluma yönəlik təbliğatında özü ilə bağlı müsbət imic yaratmaq və öz fikirlərini topluma qəbul etdirmək üçün ***təbliğatın ziddiyyətsizliyi amilinə*** özəl diqqət yetirməlidir. Hər partiya ayrıca götürülmüş vahid bir təbliğat qaynağıdır və bu vahid təbliğat qaynağından – partiyadan bir-birinə zidd informasiyalar yayılırsa, toplum çaşdırılır və partiya ilə bağlı müsbət imic yaradılmasına böyük zərbə dəyir. Eləcə də, əleyhdarların partiyaya qarşı apardıqları əks-təbliğatda ***rəqibi öz-özü ilə təzad halında göstərmə üsulundan*** geniş istifadə olunmasına şərait yaradılır. Buradan da açıqca görünür ki, ***yeni "Yurd"çuların linqvistik üsulla manipulyasiyası ümumpartiya mənafeyinə ciddi ziyan vurur və məhdud qrup mənafeyinə xidmət edir***.

***İkincisi***, mənfi mənada təqdim edilməsinə çalışılsa da, mühafizəkarlıq (konservatorluq) dünyada müsbət bir anlayış kimi qəbul olunur. Unutmayaq ki,

gerçəkdən də, AXCP sağ mərkəzçi mühafizəkar bir partiyadır və təbii olaraq, bu hesabla ***özlərini AXCP üzvü sayan yeni "Yurd"çular da elə mühafizəkardır***. O zaman, özləri də mühafizəkar olduğu halda, nə üçün mühafizəkarlıqdan imtina edirlər? Bəs imtina edilən nədir, mühafizə olunan nədir?

Mühafizəkar AXCP-nin mühafizə etdiyi 1. milli və liberal dəyərlərin ahəngdar vəhdətindən ibarət ***müsavatçılıq məfkurəsidir***; 2. bu məfkurəyə uyğun ***açıq siyasi rejimdir*** və 3. köhnə sosializm ideologiyasını, totalitar sovet siyasi rejiminin qapalı sistemini, sovet partnomenklatura elitasını kökündən dəyişdirərək Azərbaycana müsavatçılığı və açıq siyasi rejimi gətirmiş milli-azadlıq hərəkatına rəhbərlik edən ***Əbülfəz Elçibəy liderliyidir***. Myhafizəkar AXCP məhz bu məsələləri mühafizə edir və mühafizə etdiklərini əsas götürməklə AXCP sistemində təməl uzlaşmanın baxış birliyini formalaşdırır.

Yeni "Yurd"çular da məhz bunlardan imtina edir və bunlardan imtina etməyənləri "mühafizəkar" adlandırmaqla kifayətlənməyərək onlara həm də ***qaragüruh*** damğası yapışdırmağa çalışır. Lakin ***"AXCP-də bizdən başqa hamı qaragüruhdur!"*** mesajı kimlərə ünvanlanıb və nəyə işarə edir?

Dilimizdə ***qaragüruh*** sözü hərfən "dağıdıcı, talançı qüvvə; irticaçı dəstə" deməkdir. Partiyalararası siyasi mübarizənin genişləndiyi və Azərbaycan toplumu içərisində AXCP imicinin yüksəldilməsinə həmişəkindən daha artıq ehtiyac duyulduğu bir dövrdə öz oturduğu budağı kəsmək – öz partiyasına ***qaragüruh*** damğası yapışdırmağa çalışmaq hansı mənafedən irəli gəlir? Dogrudanmı yeni "Yurd"çular üçün öz məhdud qrup mənafeləri ümumpartiya mənafeyindən bu qədər üstündür?

Bir anlayış kimi ***qaragüruh*** sözünün haradan qaynaqlanmasına diqqət yetirək. Adətən, siyasi hakimiyyət uğrundakı sivil mübarizədə iki üsuldan geniş istifadə edilər:

***1. açıq kütləvi hərəkat üsulu;***

***2. gizli bazarlıq üsulu.***

Şəraitdən asılı olaraq siyasi partiyalar hər iki üsuldan yararlanar. Lakin öz çoxsaylı üzvlərinin gücünə və xalqın inamına, dəstəyinə arxalanan kütlə partiyaları açıq kütləvi hərəkat üsuluna üstünlük verərək hədəfləri uğrunda açıq-aşkar mübarizə aparar; öz gücünə və xalqın inamına, dəstəyinə arxalana

bilməyən azsaylı kadrlardan ibarət partiyalar isə daha çox örtülü qapılar arxasında gizli bazarlıq yaparaq hədəflərinə yönəlik bir pay umar. ***Təbii ki, kadr partiyasına bu payı verən tərəf başqa bir payı özünə götürəcəkdir.***

Koalisiyon hökumət yaradılmasında gizli bazarlıq üsulu geniş yayılmış normal bir üsul sayılır. Həmçinin antidemokratik rejimlərdə irticaçı iqtidara qarşı müxalifət qüvvələrinin öz aralarında bazarlıq yapması da mənfi dəyərləndirilmir. ***Lakin bu zaman antidemokratik iqtidarla yapılan bazarlıq heç də müsbət qarşılanmaz.***

Antidemokratik rejimlərdə açıq kütləvi hərəkat üsulu ən təsirli üsuldur. Hətta demokratik rejimlərdə də bu üsuldan geniş surətdə istifadə edilməkdədir (Unutmayaq ki, açiq kütləvi hərəkat insan haqlarının və vətəndaş hüquqlarının Anayasada təsbit olunmuş mubarizə formasıdır).

Açıq kütləvi hərəkat üsulunda məhdud qrup mənafeyindən daha çox ümumi mənafe qabarıq nəzərə çarpar. ***Gizli bazarlıq isə örtülü qapılar arxasında və çoxluqdan (mərkəzçı "qrup"dan, geniş xalq kütlələrindən) xəbərsiz aparıldığına görə, bu üsulda məhdud qrup mənafeyinin önə çəkilməsi heç də nadir hadisə deyil***.

Yarandığı vaxtdan AXC açıq kütləvi hərəkat üsuluna üstünlük vermişdir və bu özəllik indi də AXCP-də aparıcıdır. ***Cünki bir kütlə partiyası olan AXCP üçün öz çoxsaylı üzvlərinin gücünə və xalqın inamına, dəstəyinə arxalanmaqdan üstün heç nə yoxdur***.

Yeni "Yurd"çular isə hərəkatçılığın əleyhinədirlər (bu, Ə.Kərimovun bir müsahibəsində açıqca etiraf olunur) və azsaylı bir qrup kimi həm partiyadaxili, həm də partiyaxarici siyasətdə daha çox ***gizli bazarlıq üsulunu*** əsas götürürlər (***İlham Əliyevlə yapılmaq istənən bazarlığa dair mətbuatda gedən informasiyaları xatırlayaq***). Təbii ki, öz məhdud qrup mənafeyi üçün gizli bazarlıq yapmağa üstünlük verən bir qruplaşma açıq kütləvi hərəkat üsulunu tərifləməz. Əksinə, onu aşağılamağa, gözdən salmağa, ***qaragüruh*** adlandırıb mənfi dəyərləndirməyə çalışar ki, öz gizli bazarlıq üsuluna və örtülü sövdələşmələrinə haqlılıq qazandırsın. Yeni "Yurd"çuların AXCP-yə yapışdırmaq istıdikləri ***qaragüruh*** damğası da məhz buradan qaynaqlanmaqdadır.

Yeni "Yurd"çular cəbhəçilərin müsavatçılıq məfkurəsinə bağlılığını (Türkiyədə buna ülküçülük "ideyalılıq, idealistlik" deyilir) ***fanatiklik*** sayır və özlərini ***praqmatist*** adlandırırlar. Lakin unudulur ki, çağdaş siyasi həyatda praqmatizm iki mənada işlədilməkdədir:

***1. gerçəkçi olmaq və günün reallıqlarından hərəkət etmək;***

***2. bütün yüksək ideyaları, prinsipləri tapdalayaraq yalnız günlük mənfəət üçün çalışmaq.***

Müsavatçılıq Klassik Turançılığı Yeni Turançılığa çevirərək uzaq Turan Dövləti qurmaq ideyasını günün reallıqlarına uyğun Azərbaycan Dövləti qurmaqla əvəz etdi, lakin təbii ki, uzaq ideyanı da unutmadı. ***Yəni müsavatçılıq bir kor fanatiklik deyil, əksinə, ideyalı gerçəkçilikdir***. Başqa sözlə, müsavatşılıqda praqmatizmin birinci mənası tamamilə məvcuddur və müsavatçılıq yüksək ideyasız gercəkçiliyi qəbul etməz. Çünki yüksək ideyasız gerçəkçilik praqmatizmin ikinci mənasına uyğundur və ümumi ideyaları, ümumi prinsipləri bir kənara ataraq, ***yalnız özünün günlük şəxsi, yaxud məhdud qrup mənafeyindən ötrü çalışan mənfəətpərəst praqmatistləri bildirmək üçün işlədilir***.

Bu hesabla, ***ideyalı praqmatistlərlə mənfətpərəst praqmatistlər bir-birindən fərqlənir: ideyalı praqmatistlərə idealist (yaxud ülküçü), mənfəətpərəst praqmatistlərə isə, sadəcə, praqmatist deyilir***.

Cəbhəçilər ideyalı praqmatistlərdir – müsavatçılığa söykənən gerçəkçilərdir (idealistlərdir, ülküçülərdir). Yeni "Yurd"çular isə, çox doğru olaraq, özlərinə, sadəcə, praqmatist deyirlər. Bu, yalnız fərdiyyətçiliyə söykənən liberalizmin toplum mənafeyinə xor baxan və çağdaş liberal dövlətlərdə belə qəbul edilməyən bir özəlliyidir.

Nəhayət, yeni "Yurd"çuların ən çox üzərində durduğu və fəxrlə özlərinə şamil etdiyi ***islahatçı*** adına diqqət yetirək.

***İslahatçı*** sözü dilimizdə ***"islahat, yəni əsaslı dəyişiklik aparan"*** anlamı verir. Azərbaycanda islahatçılıq məhz AXC ilə başlamışdır və ***hazırda da əsaslı dəyişiklik apara biləcək gerçək islahatçılar AXCP başda olmaqla bütün milli demokratik qüvvələrdir***. Gerçək islahatçıların ən öncül bir qüvvəsinin – AXCP üzvlərinin ***kiçik bir qrupunu islahatçı*** adlandirmaq,

mahiyyətcə, qalan ***mütləq çoxluğu qeyri-islahatçı*** saymaqdır. Bu məntiqsizlik nə dərəcə doğrudur?

Xatırladaq ki, İlham Əliyevin islahatçı adlandırılması məntiq baxımından Heydər Əliyevin qeyri-islahatçı olması təsəvvürünü yaradırdı və ona görə də, iqtidardakılar öz yanlışlıqlarını düzəltməkdə gecikmədilər.

Bu hesabla, "Ə.Kərimovun islahatçı komandası" anlayışı məntiq baxımından Ə.Elçibəy komandasının islahatçı olmaması təsəvvürünü dogurur. Azərbaycan toplumuna belə bir təsəvvürün aşılanması AXCP-nin ümumi mənafeyi üçünmü, yoxsa yeni "Yurd"çuların qrup mənafeyi üçünmü xeyirlidir?

Cəbhəçilərə görə, AXCP-nin bütün üzvləri islahatçıdır. Yeni "Yurd"çulara görə isə, yalnız özləri islahatçıdır. Təbii ki, hər iki fikirdə məntiq var. Çünki AXCP Azərbaycanın siyasi həyatında "köklü dəyiçiklik" yaratmışdır, yeni "Yurd"çular isə yalnız AXCP daxilində "köklü dəyişiklik" yapmışlar. Bəs yeni "Yurd"çuların yapdığı bu "köklü dəyişik" nədir və nələrdən ibarətdir?

## Yeni "Yurd" islahatçılığın gerçək adı: opportunist sağ təftişçilik

Yeni "Yurd"çuların AXCP daxilində apardıqları "köklü dəyişiklik" AXCP-nin təməl və digər uzlaşma məsələlərindəki baxış birliyinə qarşı özlərinin fərqli baxışlarını qoymalarından ibarətdir. Bu dəyişikliyin nə olmasını anlamaq üçün təməl və digər uzlaşma məsələlərinə dair AXCP-nin və yeni "Yurd"çuların münasibətini aydınlaşdıraq.

1. Klassik "Yurd"çular daxil bütün AXCP üzvləri müsavatşılığı ən dögru məfkurə saydıqları və Bütöv Azərbaycan ideyasını müsavatçılığın indiki dövrə uyğun gəlişdirilməsi hesab etdikləri halda, yeni "Yurd"çular bu baxış birliyində ***"islahat"*** aparır və bir tərəfdən məfkurəyə barmaqarası baxaraq (ideologiyasızlaşdırılma strateji yanlışlığı) özlərinin, sadəcə, praqmatist olmalarını vurğulayır; digər tərəfdən isə, əlləri yetən KİV-də Bütöv Azərbaycan ideyasına və BAB-a yönəlik mənfi fikirlər yaymağa çalışırlar (Yeni "Yurd"çulardan heç kimin BAB-a üzv olmaması da buradan qaynaqlanır).

2. Klassik "Yurd"çular daxil bütün AXCP üzvləri üçün ümumi mənafe əsasdır və onlar təkcə partiyalararası münasibətlərdə yox, həm də partiyadaxili

münasibətlərdə ümumi AXCP mənafeyinin gözlənilməsini tələb edir və buna görə də, AXCP-dəki siyasi rejimin açıq sistemdə olmasını, “Hər kəzə qabiliyyətinə görə!” prinsipinin əsas götürülməsini dəstəkləyirlər.

Bu baxış birliyində ***“islahat”*** aparan yeni “Yurd”çular üçün isə qrup mənafeyi daha üstündür (AXCP-yə yapışdırmaq istədikləri “qaragüruh”, “qeyri-islahatçı”, “fanatik” yanaşımları da məhz buradandır), sözdə inkar etsələr də, əməldə istər partiyalararası, istərsə də partiyadaxili münasibətlərdə məsələlərə ümum AXCP mənafeyindən daha çox yeni “Yurd” mənafeyindən yanaşırlar, AXCP-də qapalı siyasi rejim yaradaraq mərkəzi bürokratik aparatı – ***Rəyasət Heyətini öz əllərində alətə və yeni “Yurd”a qarşı çıxanları əzmə cihazına döndərmişlər.*** Nəticədə, artıq nə müddətdir ki, AXCP-nin siyasi rejimində “Yalnız şəxsi sədaqətə görə!” prinsipi hökm sürməkdə və AXCP üzvlərinin böyük çoxluğunun siyasi qatılma haqqını məhdudlaşdırmaqdadır.

3. Klassik “Yurd”çular da daxil bütün AXCP üzvləri üçün həm sözdə, həm də əməldə yalnız Ə.Elçibəy liderliyi mövcuddur (Ə.Elçibəy liderliyinin xarizmatikliyi onun milli lider kimi qəbul edilməsində mühüm rol oynamışdır). Eyni zamanda, milli lider Ə.Elçibəyin ətrafında bir sıra tanınmış kadrlar var ki, onlardan biri də Ə.Kərimovdur.

Bu baxış birliyində ***“islahat”*** aparan yeni “Yurd”çulara görə, Ə.Elçibəy liderliyinin dövrü bitib və AXCP-yə yeni lider lazımdır ki, o da Ə.Kərimovdur (Hətta bir qəzet məqaləsində Ə.Kərimov xarizmatik lider kimi təqdim olunur).

4. Klassik “Yurd”çular da daxil bütün AXCP üzvlərinə görə, açıq kütləvi hərəkat üsuluna üstünlük verilməlidir.

Bu baxış birliyində ***“islahat”*** aparan yeni “Yurd”çulara görə isə, gizli bazarlıq üsulu daha üstün olmalıdır və s. (başqa “islahat”ları xatırlatmırıq).

Gözdən keçirdiklərimiz sübut edir ki, AXCP-nin ümumi baxış birliyində yeni “Yurd”çular gerçəkdən də ***“islahatçılıq”*** yapmağa çalışırlar. Ancaq unudurlar ki, siyasi həyatda bu cür ***“islahatçılıq”***la məşğul olanların elmi adı ***reformator*** “islahatçı2 yox, ***revizionist*** “təftişçi”dir.

***Elmə solçular tərəfindən gətirilmiş təftişçilik anlayışı mübarizənin ən həyati ideyalarına, təməl müddəalarına, prinsiplərinə yenidən baxılmasını, onların təftiş olunaraq düzəldilməsini və şəraitə uyğunlaşdırılmasını irəli sürən ideya-siyasi cərəyanı bildirir.*** Mübarizə ciddi maneələrlə üzləşərkən

və həmin maneələrə qalib gəlmək çətinlik törədərkən təftişçilər çıxış yolunu əvvəlki mübarizəni dəyişdirməkdə və fərqli bir mübarizə aparmaqda görür. Bu dəyişdirmə, yaxud fərqli mübarizə iki yöndə ola bilər:

1. maneələri zor gücünə ortadan qaldırmağı – hər cür terror, qiyam, çaxnaşma və s. zorakı vasitələrlə tam qalib gəlməyi əsas götürən ***sol təftişçilik***. Bunlar ultrainqilabi, anarxist, qiyamçı qüvvələrdir.

2. maneələr qarşısında təslim olub sazişə gəlməyi, şəraitə uyğunlaşaraq addım-addım kiçik qələbələr, xırda faydalar, günlük mənfəətlər əldə etməklə mübarizə aparmağı əsas alan ***sağ təftişçilik***. Bunlar opportunist (sazişçi, təslimçi) qüvvələrdir.

4 iyun qiyamından bəri Azərbaycanda milli demokratik sistem uğrunda aparılan mübarizə həm sol, həm də sağ təftəşçilərin zərbələrinə məruz qalmaqdadır.

1980-cı illərin sonu 1990-cı illərin əvvəllərində AXC-nin rəhbərliyi ilə Azərbaycan milli-azadlıq hərəkatı 1. sosialist ideologiyasını, 2. totalitar, qapalı sovet siyasi rejimini, 3. sovet partnomenklatura elitasını siyasi səhnədən kənarlaşdırdı və köklü dəyişikliklər yaradaraq Azərbaycan siyasi həyatına yenidən 1. müsavatçılıq məfkurəsini, 2. demokratik açıq siyasi rejimi, 3. milli demokratik elitanı gətirdi.

Təəssüflər ki, ***bu milli demokratik sistemin*** ömrü çox da uzun olmadı və 4 iyun qiyamından sonra hər şey bir daha dəyişildi, başlanmış islahatların böyük əksəriyyəti təhrif edildi, eybəcərləşdirildi, bir qismi sıradan çıxarıldı… Formalaşmaqda olan milli demokratik sistemi totalitar sovet sisteminin bir uzantısı – indiki ***avtoritar sistem*** əvəz etdi.

***Bu sistemin məfkurəsi şəxsiyyətəpərəstişə söykənir (İqtidar nümayəndələrinin biri açiqca bildirmişdir ki, bizim ideologiyamız Heydər Əlyevçilikdir).***

***Bu sistemin siyasi rejimi avtoritar, qapalı bir rejimdir.***

***Bu sistemin elitası klan iqtidarının avtoritet sahibləridir***.

Klançı elita öz hakimiyyəti boyu nüfuz gücünü itirdikcə hər cür zorakı vasitələrə əl atmaqla səlahiyyət güclərini qorumağa, hər cür saxtakarlıqlara gedərək iqtidarda qalmağa üstünlük vermişdir. Nəticədə, artıq yeddi ildir ki,

Azərbaycan bu avtoritar sistemin zülmü altında inləməkdə və qurtuluş arzulamaqdadır.

Yeganə doğru qurtuluş yalnız və yalnız milli demokratik sistem ola bilər! Lakin avtoritar sistem bütün gücü ilə milli demokratik sistemin qarşısını kəsmiş, onun önündə çox ciddi maneələr, əngəllər yaratmışdır. Artıq yeddi ildir ki, milli demokratik sistem bu maneələri aşa, maneələrə, çətinliklərə qalib gələ bilmir. ***Çünki milli demokratik sistemin bütün gücü xalqda, onun siyasi aktivliyində və fəallığındadır***. Hələliksə, xalq nə qədər narazı olsa da, fəallaşıb ayağa qalxmamışdır. Ona görə də, AXCP, Müsavat, AXP və s. kimi milli demokratik qüvvələr öz əvvəlki mübarizələrini yenidən davam etdirir və xalqı fəallaşdırıb milli demokratik sistem uğrunda kütləvi hərəkat yaratmağa çalışırlar. ***Lakin təftişçilər artıq bu cur mübarizə aparmağı qəbul etmirlər***. Müdrik babalarımızın "Yer bərk olanda, öküz-öküzdən görər" deyiminə uyğun olaraq, təftişçilər avtoritar sistemə indiyədək qalib gələ bilməmənin günahını ***məhz bu cür mübarizə*** aparılmasında görür və onu dəyişdirməyə, fərqli bir mübarizə aparmağa can atırlar.

Əvvəlki qaydada mübarizə aparmağı bəyənməyən ***sol təftişçilər*** avtoritar sistem maneəsini ortadan qaldırmaq üçün fiziki gücə – silaha üstünlük verdilər və bəlli sui-qəsd, qiyam hadisələri ortaya çıxdı (təbii ki burada xarici əlləri, həmçinin iqtidarın şüurlu şişirtmələrini də unutmaq olmaz).

***Sag təftişçilər*** isə avtoritar sistemin diqtəsinə boyun əyərək şəraitə uyğunlaşdılar və mübarizələrini klan iqtidarına xeyirli yöndə aparmağa başladılar. Bu qüvvələri iki qrupa ayırmaq mümkündür:

*1. Dönük sag təftişçilər,*

*2. Opportunist sag təftişçilər*.

***Dönük sag təftişçilər*** zahirdə sanki avtoritar sistemə qarşı çox radikal mübarizə aparırlar. Əslində isə avtoritar sistemin çaldığına oynayaraq klan iqtidarının dəyirmanına su tökməklə mübarizəni ***milli demokratik sistem müstəvisindən bölgəçilik və yerliçilik müstəvisinə keçirməyə çalışırlar***. Tahir Kərimli kimi zəif xarakterli və siyasətdən xəbərsiz adamların "anti-regionçuluq" adı altında apardıqları regionçuluq "mübarizə"si klan iqtidarının işinə çox yarayır və bir tərəfdən, klan iqtidarına sosial baza qazandırmağa, digər tərəfdən isə, avtoritar sistemə qarşı milli demokratik sistemin vahid

ideoloji platformasını bölüb-parçalamağa, birləşdirici məfkurəni bölücü bölgəçiliklə əvəzləməyə xidmət edir. Unutmayaq ki, Azərbaycanda siyasi mübarizənin milli demokratik sistem – avtoritar sistem müstəvisindən çıxarılaraq regional müstəviyə keçirilməsi onsuz da zəif olan milli kimlik şüuruna çox böyük zərbə vurur və bu, təkcə klan iqtidarının yox, həm də Rusiyanın və İranın (eyni zamanda, Ermənistanın) maraqlarına tam uyğun gəlir.

Ona görə də, bilərək, yaxud bilməyərək avtoritar sistemin tələsinə düşmüş və klan iqtidarının astar üzünə çevrilmiş dünənki bəzi milli demokratlar bu gün müxalifətin az qala bütün iri partiyalarını klan iqtidarına işləməkdə "suçlamağa" çalışsalar da, əslində özləri milli demokratik mübarizəyə dönük çıxmışlar və onlar dönük sag təftişçilərdən başqa bir şey deyillər.

***Opportunist sag təftişçilər*** isə üzdə avtoritar sistemə qarşı mübarizə aparır kimi görünməyə çalışsalar da, arxada onunla dil tapmağa üstünlük verirlər. Nisbətən passivləşərək (yaxud passivləşdirilərək) kənara çəkilmiş xalqın yenidən fəallaşacağına, geniş kütlələrin yeni hərəkat dalğasının doğacağına, bir sözlə, xalqın gücünə inamı itirmiş opportunist sag təftişçilər sabaha yönəlik yüksək ideyanı yox, bu günə yönəlik kiçik, xırda mənfəəti əsas götürürlər və sabahla yox, bu günlə yaşamaq istəyirlər. Nəticədə, ***opportunizm (sazişçilik, təslimçilik)*** bataqlığına yuvarlanaraq məsələləri açıq mübarizə ilə yox, gizli sövdələşmələrlə çözməyə çalışırlar.

Sabaha yönəlik yüksək ideyanın gercəkləşdirilməsində açıq kütləvi hərəkat üsulu ən əsas üsuldur.

Bu günə yönəlik kiçik, xırda nənfəətlərin qazanılmasında gizli bazarlıq üsulu daha xeyirlidir.

4 iyun qiyamından sonra AXC-nin qorunub saxlanması üçün yürüdülən liberal – mülayim və yumşaq siyasi xətt ilk öncə xeyir verdi. Sonra bu xətt ardıcıl tətbiq olunduğundan alışqanlığa çevrildi və açıq kütləvi hərəkat üsulundan imtina edilməsi – gizli bazarlıq üsulunun (utanmamaq və ifşa edilməmək üçün buna "siyasət", "siyasi qabiliyyət" və s. də deyirlər) qabarması ilə nəticələndi.

Gizli bazarlıq üsulunun partiyadaxili müstəviyə tətbiqi AXCP-də yeni "Yurd" fraksiyası yaratdı.

Gizli bazarlıq üsulunun partiyaxarici müstəviyə tətbiqi bir sıra müəmmalara, o cümlədən "İlham Əliyevin islahatçı komandası" ilə şübhəli əlaqələrə dair söz-söhbətin qəzetlərdə işıqlandırılmasına yol açdı.

Hərəkatçılıqla qaragüruhçuluğu eyniləşdirən yeni "Yurd" fraksiyası milli demokratik sistem uğrunda AXCP-nin əvvəlki mübarizəsini – xalqı fəallaşdırıb kütləvi hərəkat yaratma xəttini davam etdirməyi mühafizəkarlıq, fanatiklik saydı və bu mübarizənin söykəndiyi təməl uzlaşma məsələlərini təftiş edərək, özünün yeni müddəalarını irəli sürdü. Milli demokratik sistemin gerçəkləşməsi yolundakı güclü maneənin – ***avtoritar sistemin diqtəsinə boyun əyməklə, şəraitə uyğunlaşaraq bu avtoritar sistemə oxşamağa çalışmaqla irəli sürülmüş həmin "yeni müddəalar"*** bunlardır:

1. AXCP-nin müsavatçılıq məfkurəsi əvəzinə, yeni "Yurd"un günlük mənfəətçi praqmatizmi.

2. AXCP-nin demokratik açıq siyasi rejimi əvəzinə, yeni "Yurd"un "demokratik" (əslində, avtoritar) qapalı siyasi rejimi.

3. AXCP-nin (eləcə də, milli-azadlıq hərəkatımızın və bütövlükdə, Türk dünyasının) lideri Ə.Elçibəy əvəzinə, yeni "Yurd"çuların lider saydığı Ə.Kərimov.

***Məsələyə elmi baxımdan yanaşdıqda, bu "yeni müddəalar" milli demokratik sistemin gerçəkləşdirilməsinə maneçilik törədən avtoritar sistemin diqtəsi ilə, onun "oyun qaydaları"nı qəbul etmək və həmin qaydalara uyğunlaşmaqla meydana çıxmış opportunist sag təftişçiliyin açıq təzahüründən başqa bir şey deyil***.

Bəli, yeni "Yurd" islahatçılığının hər vasitə ilə gizlədilməsinə çalışılan gerçək üzü məhz budur: ***opportunist sag təftişçilik! Bu "islahatçılığı" yapanlar isə islahatçılar yox, opportunist sağ təftişçilərdir.***

## Cəbhəçilər və sağ təftişçilər, yaxud yeni sıfır variantı təklifimiz

Bu gun AXCP-də getdikcə sərtləşən siyasi toqquşma ***cəbhəçilərlə oppotunist sag təftişçilər*** arasındadır. Bu sag təftişçilərin linqvistik manipulyasiya yaparaq özlərinə “praqmatist”, “islahatçı”, cəbhəçilərə isə “mühafizəkar”, “qaragüruh”, “fanatik”, “qeyri-islahatçı” adları qoyması qətiyyən mahiyyəti dəyişdirmir. Cəbhəçilər geniş xalq kütlələrinin siyasi fəallığına arxalanaraq dinc yolla avtoritar sistemi dəyişdirməyi, köklü islahatlar apararaq milli demokratik sistemi bərqərar etməyi istəyirlər. Bu istək hamının mənafeyini təmin etməyə yönəlmişdir və onda qətiyyən hər hansı bir qrup mənafeyi yoxdur.

Sag təftişçilər – yeni “Yurd”çular isə xalqın gücünə inanmayıb ona bir vasitə kimi baxır, öz qrup mənafelərini təmin etməyə yönəlmiş günlük xırda-para mənfəətlər qazanmağa üstünlük verməklə milli demokratik sistem uğrunda mübarizə apardıqlarını zənn edirlər. Onlar avtoritar sistemi örnək alıb “Sükanı belə saxlayarlar, daha bizim kimi yox!” düşüncəsindən yola çıxdıqlarını, avtoritar sistemin oyun qaydalarına uyduqlarını, mahiyyətcə sazişçiliyə, təslimçiliyə vardıqlarını və bununla da müxalifət düşərgəsinə (özəlliklə, AXCP-yə) böyük zərbə vurduqlarını hələ də görmür, yaxud görə bilmir və ya görmək istəmirlər. Bunu görmək üçün qapalı yeni “Yurd” fraksiyasının sag təftişçi opportunizm bataqlığından kənara çıxması və öz yapdıqlarına vicdanın gözü ilə baxması gərəkdir.

Hələlik gec deyil və heç də bütün körpülər yandırılmamışdır. Rəyasət Heyətinin yasaqlaması sərt toqquşmanın yumşaldılması və siyasi uzlaşmanın gücləndirilməsində birinci mərhələ sayıla bilər. Bu birinci mərhələ problemi çözmək yox, dondarıb saxlamaq mahiyyətli iş görür. Əsas məsələ isə problemi çözməkdir. Çünki problem çözülməsə, uyğun şəraitdə yenidən “donu açıla” və qızışıb sərtləşə bilər.

Cəbhəçilərlə sag təftişçilər arasındakı siyasi toqquşma, heç şübhəsiz, öz bətnində siyasi uzlaşmanın toxumlarını da daşıyır. Lakin toqquşanlar siyasi şüur və siyasi mədəniyyət baxımından gərəkən yüksək yetkinlik ortaya qoyub problemə bəsirət gözü ilə baxmasalar, bu uzlaşma toxumları sərt siyasi

toqquşma küləyinin umuduna buraxılacaqdır. O zaman iki durumdan biri yarana bilər:

1. Mümkündür ki, AXCP-nin idarəediciliyə can atan çıxar qrupları yeni "Yurd"un avtoritar sistemdən aldığı oyun qaydalarına uysunlar və AXCP-nin tabanası ilə bütünləşməyərək məhdud bir qrup halında qalsınlar (Yəni yumşaq siyasi toqquşmanın say vasitəsinə gərəyincə söykənməsinlər və kütləvilikdən çəkinsinlər). Təbii ki, geniş tabanadan məhrum bu məhdud qruplaşmalar işərisində pul, təşkilatlanma və KİV imkanlarına görə, yeni "Yurd" daha güclü olacaq, öz təkəlçi idarəçilik mövqeyini qoruya biləcəkdir. O zaman yeni "Yurd" öz nüfuz gücünü itirməmək üçün səlahiyyət gücündən sui-istifadə edəcək (indiki kimi) və müxtəlif çıxar qruplarını zaman-zaman əzib susdurmaqla "meydanı təmizləyəcəkdir". ***Nəticədə, AXCP tamamilə yeni "Yurd"un əlinə keçib sag mərkəzçi mühafizəkar bir partiyadan sag təftişçi opportunist bir partiyaya çevriləcək*** və milli demokratik müxalifət düşərgəsini parçalayaraq ana müxalifətdən ya klan iqtidarının əl müxalifətinə dönəcək, ya da nə zamansa bazarlıq yapa-yapa iqtidara gəlib Azərbaycanda yeni bir avtoritar sistem quracaqdır.

2. Mümkündür ki, AXCP-nin idarəediciliyə can atan çıxar qrupları yumşaq siyasi toqquşmanın say vasitəsinə gərəyincə diqqət yetirərək partiyadaxili kütləviliyi genişləndirsinlər və AXCP tabanası ilə tam bütünləşərək ciddi bir gücə çevrilib pozulmuş tarazlığı yenidən bərpa etsinlər. O zaman yeni "Yurd":

a) ya bu tarazlıqla razılaşmayacaq və AXCP-dən qopub ayrılacaq, özü üçün müstəqil siyasi uzlaşma modeli kimi ayrıca bir partiya yaradacaqdır;

b) ya tarazlıqla razılaşmalı olub AXCP-də bir fraksiya kimi qalacaq, lakin sağ təftişçi opportunist xisləti AXCP-nin sifətini müəyyənləşdirməyəcəkdir (ilk fürsətdə yenidən qabarmaq imkanından yararlanmaq istəyi ilə gözləmə mövqeyi tutacaqdır);

c) ya da sözdə yox, əməldə sağ təftişçilikdən imtina edib fraksiyaçılıqdan əl çəkəcək, normal bir çıxar qrupuna dönəcək və AXCP sisteminin ən azı yüzdə 75%-lik təməl uzlaşma səviyyəsini daha da yüksəldəcəkdir. Bununla da "Hədəf bəlli, təşkilat bəlli, lider bəlli!" təməl uzlaşma modelli AXCP sistemi daxilən saflaşacaq, monolitləşəcək, daxili enerji bir yerə toplanıb daha da güclənəcək və AXCP-nin topluma təsir gücü qat-qat artmış olacaqdır. Nəticədə, açıq kütləvi

hərəkata üstünlük verən, xalqın siyasi qatılma imkanını daha da genişləndirən AXCP müxalifət düşərgəsindəki ana müxalifət rolunu tam yerinə yetirərək ya özü ayrılıqda, ya da digər milli demokratik qüvvələrlə koalisiya halında iqtidara gələcək və Azərbaycanda yenidən milli demokratik sistem bərqərar olacaqdır.

***Birinci durum***, opportunist sağ təftişçiliyinin AXCP-yə tam hakim olması milli demokratik mübarizə üçün, özəlliklə də AXCP üçün fəlakətdən başqa bir şey deyil.

***İkinci durumun a) variantı*** – AXCP-dən qopma nə qədər kiçik və əhəmiyyətsiz olsa da, AXCP sistemi üçün müəyyən zərbədir, arzuedilməz bir sonluqdur; ***b) variantı*** keçici uzlaşmanın əldə edilməsi, lakin toqquşma ehtimalının qorunması və nə zamansa sərtləşmənin qabaracağı deməkdir; ***c) variantı*** isə məhz yeganə doğru çözüm yoludur. Bu dogru çözüm yolunu ***yeni sıfır variantı*** adlandırırıq.

Dialektikanın ***tezis – antitezis – sintez*** üzərində qurulmuş inkişaf qanunauyğunluğunu unutmayaq. 1991 – 1992-ci illər arasında normal çıxar qrupu olan "Yurd"un AXC-dəki təməl uzlaşma məsələləri ilə bağlı siyasi toqquşması sıfır səviyyəsində idi. Lakin o vaxtdan bəri çox hadisələr baş vermiş, çox yeniliklər yaranmış və durum çox dəyişilmişdir. Artıq tamamilə həmin sıfır variantına qayıtmaq, təxminən, imkansız bir hala gəlmişdir. Ona görə də, ən optimal çıxış yolu sözdə yox, əməldə ***yeni sıfır variantına*** müraciət etməkdir.

Bu gün tezislə – idarəedici opportunist sağ təftişçi yeni "Yurd" fraksiyası ilə ***antitezis*** – sag mərkəzçi muhafizəkar AXCP-nin birləşməkdə və AXCP tabanası ilə bütövləşməkdə olan normal çıxar qrupları arasında sərt siyasi toqquşma gedir. Biz sabah yaranacaq ***sintezin*** yeni sıfır variantında olmasını təklif edirik. Bu variant nə cəbhəçilərin, nə də sağ təftişçilərin yox, yalnız və yalnız ümum AXCP-nin qazanması deməkdir (Onu ***"məğlubiyyətsiz tərəflər formulu"*** da adlandırmaq olar).

Hədəfimiz gerçəkdən Azərbaycanda milli demokratik sistemin bərqərar olması və milli dövlət quruculuğudursa, o zaman bir gerşəkliyi unutmayaq: insanlarımız arasında təməl uzlaşma məsələlərinə yönəlik ən azı yüzdə 75%-lik bir səviyyə əldə etməsək, bu hədəfimiz gerçəkləşə bilməz. O səviyyəni qazanmaq üçün insanları bölüb ayıran ***mənfəətçi praqmatizm*** yox, hamını bir

araya gətirib birləşdirən ***ideyalı praqmatizm*** – böyük öndərimiz M.Ə.Rəsulzadənin mirası olan və milli liderimiz Ə.Elçibəy tərəfindən gəlişdirilən ***müsavatçılıq məfkurəsi*** gərəkdir!

O səviyyəni qazanmaq üçün insanların siyasi qatılmasını məhdudlaşdıran, toplumu "yaxşı bizimkilər – pis başqalar" qütblənməsinə ayıran, bir ovuc "yaxşı bizimkilər"i hamı üzərində "külli-ixtiyar" sahibinə çevirən qapalı siyasi rejim yox, hamının siyasi qatılma haqqını əməldə tanıyan, "başqaları"na dözümlülük göstərən və hamı üçün məqbul prinsiplərə söykənən ***açıq siyasi rejim*** gərəkdir!

O səviyyəni qazanmaq üçün keçid dövrünü yaşayan indiki Azərbaycanda müsavatçılıq məfkurəsinə ürəkdən bağlanmış, açıq siyasi rejimə sadiqliyini əməldə sübut etmiş bir ***lider*** ətrafında birləşmək gərəkdir! Bu gün həmin lider vəsfinə uyğun gələn ən böyük şəxsiyyət məhz Ə.Elçibəydir!

Cəbhəçilərlə sağ təftişçilər (bütövlükdə, gerçək milli demokratik qüvvələr) arasında yaranması gərəkən sintez məhz bu təməl uzlaşma məsələləri üzərində qurulmalıdır.

Yeni sıfır variantına görə, cəbhəçilərlə sağ təftişçilər arasında atılacaq ilk addım məhz bu təməl uzlaşma məsələlərinə yönəlik gerçək ***baxış birliyinə*** yiyələnməkdir.

İkinci addim isə, bu gerçək baxış birliyini əks etdirən ***davranış birliyinin*** yaradılmasıdır.

Hələlik nə baxış birliyi var, nə də davranış birliyi. Əksinə, baxış və davranış fərqliliyindən doğan sərt siyasi toqquşma baş alıb getməkdədir.

Yeni sıfır variantına görə, sərt siyasi toqquşmanın sıx siyasi uzlaşmaya çevrilməsi yüksək siyasi şüur və siyasi mədəniyyət nümayiş etdirməklə aşağıdakı mərhələlər üzrə gerçəkləşdirilə bilər:

1. Siyasi toqquşmanın qarşılıqlı razılıq əsasında durdurulması – ***atəşkəs*** elan olunması (Bu yöndə ilk addımın atılması sevindiricidir).

2. Siyasi toqquşmanın detallarından qaçmaqla ***təməl səbəblərin müəyyənləşdirilməsi.*** Bunun üçün KİV-də bir-birini ittiham etmək yox, məşvərət məclisləri, dəyirmi masalar, elmi-nəzəri seminar və diskussiyalar təşkil etmək, təməl səbəblərə dair gerçək münasibətləri, həqiqi mövqeləri aydınlaşdırmaq gərəkdir.

3. Fərqli mövqeləri yaxınlaşdırmaq üçün ***məsələlərə yanaşmanın ümumi prinsiplərinə dair razılaşma.*** Bunun üçün milli lider Ə.Elçibəyin arbitraj rolu oynaması və toqquşan tərəflərdən bərabər sayda adamın qatılması ilə ***razılaşma komissiyası*** yaradıla bilər.

4. Məsələlərə yanaşmanın ümumi prinsiplərini qəbul etmiş ***razılaşma komissiyasında toqquşmanın konkret detallarına baxılması və neqativ durumların ortadan qaldırılması***.

5. Hər iki tərəfin iştirakı ilə ***ümumpartiya mənsubluğu şüurunun yüksəldilməsinə və səmimi partiyadaşlıq duyğusunun gücləndirilməsinə yönəlik birgə tədbirlərin keçirilməsi***.

Yeni sıfır variantı üzrə partiyadaxili siyasi toqquşmanın bu çözüm modeli tətbiq edilərsə, AXCP sisteminin monolitliyi, sıx birliyi, istiqrarar və sabitliyi tam təmin olunar, partiya enerjisi bölünərək daxilə yönəlib passivləşdirici rol oynamaz, əksinə, bütövləşərək xaricə yönəlib Azərbaycan toplumunun hərəkətə gətirilməsinə daha güclü təsir göstərər.

## Yararlanılmış qaynaqlar


1. A.Can Baysal, Erdal Tekarslan. Davranış Bilimləri. I-II c. İstanbul. Bayrak Matbaaçılık – 1987.

2. Ağaoğlu Ahmet. Rakamlar Ne Diyor. Bax: «Atatürk Devri Fikir Hayatı». I. Ankara. Kültür Bakanlığı – 1992.

3. Ahmet Taner Kışlalı. Siyasal Çatışma ve Uzlaşma. Ankara. İmge Kitabevi Yayınları – 1995.

4. Arif Rəhimoğlu. Siyasi təbliğatın əsasları. Bakı. ”Əbilov, Zeynalov və oğulları”. – 1999.

5. Ayşe Öncü. Örgüt Sosyolojisi. Ankara. Sevinc Matbaası – 1976.

6. Bertrand Russell. İktidar. Çev.: Mete Ergin. İstanbul. Cem Yayınları – 1990.

7. Besim Baykal. Motivasyon Kavramına Genel Bir Bakış. İstanbul. Divan Matbaaçılık – 1978.

8. Çeyin Yetkin. İktidar. İstanbul. Sürec – 1987.

9. Davit Spritz. Antidemokratik Düşünce Şekilleri. Çev.: Şiar Yalçın. İstanbul. M.E.B. – 1994.

10. Esat Çam. Siyaset Bilimine Giriş. İstanbul. Der Yayınları – 1990.

11. Herbert Ç.Hisk, C.Ray Gullett. Orhanizasyonlar: Teori ve Davranış. Çev.: Besim Baykal. İstanbul. İ.İ.T.İ.A. İşletme Bilimleri Enstitüsü – 1981.

12. Ghita İonescu, İsabel be Madariage. Muhalefet. Çev.: Behzat Tanç. İstanbul. Boğazıçı Yayınları – 1988.

13. Qoşqar Əliyev, Hikmət Dayızadə. Konfliktologiyaya giriş. Bakı. Təbib – 1998.

14. Gustave Le Bon. Kitleler Psikolojisi. Hazırlayan: Yunus Ender. İstanbul. Hayat Yayınları – 1997.

15. Max Weber. Sosioloji Yazıları. Çev.: Taha Parla. İstanbul. Hürriyet Vakfı Yayınları – 1993.

16.Maurice Duverger. Siyasal Rejimler. Çev.: Tunçdogan. İstanbul. Sosyal Yayınlar – 1986.

17. Münci Kapani. Politika Bilimine Giriş. İstanbul. Bilgi Yayınları – 1989.

18.Nurettin Türsan. Jeopolitikle Siyasal Coğrafiyanın Ortak Konuları. «Harp Akademileri Bülteni». Sayı: 128. İstanbul – 1982.

19. Политическая социология. Ростов-на-Дону. Феникс –1997

20. Samuel P.Huntington ve Jorge İ.Dominguez. Siyasal Gelişme. Çev.: Ergun Özbudun. Ankara. ”S” Yayınları – 1985.

21. S.M.Lipset. Siyasal İnsan. Çev.: Mete Tunçay. Ankara. Teori Yayınları – 1986.

22. Tom Bottomore. Siyaset Sosyolojisi. Çev.: Erol Mutlu. Ankara. Teori Yayınları. 1987.

23. Т.Т.Сидельникова, Д.А.Темников, И.А.Шарагин. Политология. Комментарии, схемы, афоризмы Москва. Владос. 1999 г.